RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 123 (10143) 15 iyul 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# ŞUŞADAN DÜNYAYA BAXIŞ

Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşanın işğaldan azad edilməsi münasibətilə 8 noyabr 2020-ci ildə Azərbaycan xalqına müraciətini sevinc və qürur dolu bu sözlərlə bitirmişdi.

Müraciətdə həmçinin Azərbaycan Prezidentinin Qarabağın gözü sayılan Şuşaya verdiyi dəyər də əksini tapmışdır:

"Şuşanın Azərbaycan tarixində xüsusi yeri vardır. Bu bizim qədim, tarixi şəhərimizdir. Əsrlər boyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi.

Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün məscidləri bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir".

Müzəffər Ali Baş Komandan İlham Əliyev verdiyi bütün vədlər kimi, bu vədini də şərəflə, ləyaqətlə yerinə yetirdi!

Özünün qurduğu ordu ilə Şuşanı düşmən işğalından azad edərək göstərdiyi möcüzələri bərpa və quruculuq meyadanında yenidən təkrar etdi.

Murdar düşmən tərəfindən vəhşicəsinə dağıdılaraq xarabalıqlara çevrilən bu şəhər çox qısa bir müddətdə yenidən tikilib qurularaq əvvəlkindən də gözəl olur.

Müharibədən sonrakı Şuşanı görənlər bu gün yenidən oraya qayıdanda heyrət, təəccüb və vurğunluqlarını gizlədə bilmirlər.

İstər Azərbaycan vətəndaşı olsun, istərsə də əcnəbi qonaq.

Şuşa təkcə zahiri görkəmini dəyişməyib!..

Artıq dünyanın mədəniyyət mərkəzinə çevrilib!

Şuşa həm də bir-birindən maraqlı tarixi hadisələrin baş verdiyi məkandır.

Müharibə başa çatandan az sonra tarixlərə şahidlik etmiş bu şəhərdə dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən Azərbaycan-Türkiyə qardaşlığının, əsrlərin sınağından şərəflə çıxmış dostluğun, doğmalığın artıq həm də strateji müttəfiqlik səviyyəsinə yüksəldiyini göstərən "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalandı.

Şuşa ilə bağlı cənab İlham Əliyevin, habelə bir sıra beynəlxalq qurum və təşkilatların xüsusi qərarları da olmuşdur.

MƏSƏLƏN:

* Prezident İlham Əliyev 7 may 2021-ci il tarixli sərəncamı ilə Şuşa şəhərini Azərbaycanın mədəniyyət paytaxtı elan edib;

* 2021-ci ilin may ayında Milli Məclis "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanun qəbul edib. Qanun Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş Şuşa şəhərinin qorunmasının, bərpasının, öyrənilməsinin, inkişafının və təbliğinin hüquqi və təşkilati əsaslarını müəyyən edir;

* Prezident İlham Əliyevin 5 yanvar 2022-ci il tarixli sərəncamı ilə 2022-ci il Azərbaycan Respublikasında "Şuşa İli" elan olunub;

* 2022-ci il martın 31-də Türkiyənin Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbədənkənar iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçilib;

* 2023-cü il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilib;

* 2023-cü il oktyabrın 5-də İranın Ərdəbil şəhərində keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin turizm nazirlərinin 5-ci iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2026-cı il üçün "İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı" seçilib.

7

# Slovakiya Qarabağın bərpasında fəal iştirak edir

## Slovakiya Respublikasının Prezidenti Azərbaycanda rəsmi səfərdədir



Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrininin iyulun 14-də Şuşada rəsmi qarşılanma mərasimi olub.

Həmin gün Azərbaycan Prezidenti İlham Əliyevin Slovakiya Prezidenti Peter Pelleqrini ilə təkbətək və geniş tərkibdə görüşü olub.

Hər iki dövlət başçısı Şuşada mətbuata bəyanatlarla çıxış edib.

Daha sonra İlham Əliyev və Peter Pelleqrini Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə güllələnmiş büstlərinə baxıb, Ağdam rayonunun Baş Qərvənd kəndində görülən işlərlə tanış olub, Milan Rastislav Ştefanik adına 840 şagird yerlik Baş Qərvənd kənd tam orta məktəb binasının təməlini qoyublar.

Azərbaycan Prezidenti İlham Əliyevin adından Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrininin şərəfinə rəsmi nahar verilib.

2-4

## Parlamentin növbədənkənar sessiyası başa çatdı



Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan xalqının milli özünüdərki yeni inkişaf mərhələsinə qədəm qoyub. Həmin illər ərzində Azərbaycanın gələcək müstəqilliyi uğrunda mübarizənin təməlini təşkil edən mühüm işlər görülüb. Məhz bu möhkəm təməl üzərində Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndərin siyasi kursunu və inkişaf strategiyasını uğurla davam etdirir. Dövlət başçımızın həyata keçirdiyi siyasət nəticəsində işğal altında olan ərazilərimiz azad edilib və bu gün Azərbaycan dünyada qalib dövlət kimi tanınır. Ölkəmiz həm regional, həm də qlobal miqyasda öz mövqelərini daha da möhkəmləndirib.

Azərbaycan xalqının Heydər Əliyevin dövlətimizin müstəqilliyi və inkişafı naminə göstərdiyi xidmətləri yüksək qiymətləndirdiyi, Ulu Öndərin müəyyən etdiyi yola sadiq olduğu, onun irsinə sədaqət və dərin ehtiram bəslədiyi vurğulanıb.

5

## XXI əsrin çağırışlarına Şuşadan verilən cavab

### Həqiqətə söykənən informasiya siyasəti, əməkdaşlıq, etimad və sülh




Bu gün Yaxın Şərqdə və digər regionlarda baş verən böhranlar fonunda Azərbaycanın coğrafi mövqeyi strateji xarakter alıb. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının genişləndirilməsi, gəmiqayırma sənayesinin inkişafı, Orta dəhlizin gücləndirilməsi və Mərkəzi Asiya ilə Avropa arasında əlaqələrin genişlənməsi ölkəmizin beynəlxalq əhəmiyyətini daha da artırır.

Azərbaycan Prezidenti bildirdi ki, hazırda biz öz imkanlarımızı artırırıq: "Dəniz ticarət limanımıza gəldikdə, hazırda o, 15 milyon ton imkanı ilə Xəzərdə ən iri limandır və onun həcmi 25 milyon tonu təmin etmək üçün artırılacaq. Hazırda biz Avropaya və geriyə yükləri daşımaq üçün öz gəmiqayırma zavodumuzda 10 gəmini tikirik. Mərkəzi Asiya ölkələri və Avropa Komissiyası ilə sıx münasibətlərimiz hər iki istiqamətin mərkəzində dayanır və bu, həqiqətən böyük üstünlük yaradır.

11

## Azərbaycan-Slovakiya münasibətlərinin təməli - qarşılıqlı maraqlara xidmət edən iqtisadi əməkdaşlıq



Qarabağın bərpası prosesi də Azərbaycan-Slovakiya iqtisadi əməkdaşlığına yeni məzmun qazandırır. Slovakiya şirkətlərinin yenidənqurma layihələrində iştirakı iki ölkə arasında iqtisadi tərəfdaşlığın praktik nəticələrini nümayiş etdirir. 2025-ci ilin sentyabrında Ağdam rayonunun Baş Qərvənd kəndində Slovakiyanın "Concago j.s.a" şirkəti və onun yerli tərəfdaşı "IMA ENERGY" MMC tərəfindən fərdi yaşayış evlərinin tikintisinə dair müqavilə imzalanıb və layihənin icrasına başlanılıb. Bu təşəbbüs təkcə infrastrukturun bərpasında deyil, həm də iş yerlərinin yaradılmasında, regionun sosial-iqtisadi inkişafının sürətləndirilməsində və Qarabağın yenidən qurulması prosesində mühüm rol oynayır.

13

## Paşinyanın "demokratik" diktaturası

### İkili standartlardan çıxış edən Qərb Ermənistandakı avtoritar idarəçiliyə göz yumur



Paşinyan hakimiyyətinin avtoritar rejimi Qərbin qeyd-şərtsiz dəstəyi ilə daha da stimullaşdırılır. Halbuki bu dəstək Ermənistanı müstəqil ölkəyə çevirmir, onu böyük güclərin əlində təhlükəli geosiyasi alətə çevirir. Uzun illər Rusiyanın Cənubi Qafqazdakı əsas hərbi-siyasi dayağı olan Ermənistan indi sahibini dəyişərək Qərbin regiondakı yeni forpostuna çevrilməkdədir. Bu siyasət Ermənistanı daxili parçalanmaya, iqtisadi problemlərə və regional təhlükələrə sürükləyir. Ölkə getdikcə Qərb-Rusiya rəqabətinin qurbanına çevrilir.

Nəticə etibarilə Ermənistanda yaşanan son proseslər Paşinyan diktaturasının kənar dairələrin dəstəyi ilə daha da güclənməsindən xəbər verir. Qərb dairələrinin İrəvandakı avtoritar rejimi israrla legitimləşdirmək cəhdləri ikili standartlarla yanaşı, Cənubi Qafqazda davamlı sülh və sabitlik perspektivlərinə də zərbə vurur.

15

◆ Slovakiya Prezidenti Peter Pelleqrininin Azərbaycana rəsmi səfəri

# Slovakiya Qarabağın bərpasında fəal iştirak edir

## Şuşada rəsmi qarşılanma mərasimi

**İyulun 14-də Şuşada Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrininin rəsmi qarşılanma mərasimi olub.**

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı meydanda Slovakiya Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyev Slovakiya Prezidenti Peter Pelleqrinini qarşıladı.

Fəxri qarovul dəstəsinin rəisi Slovakiya Prezidentinə raport verdi.

Slovakiya Respublikasının və Azərbaycan Respublikasının Dövlət himnləri səsləndirildi.

Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Azərbaycan Prezidenti İlham Əliyevin və Slovakiya Prezidenti Peter Pelleqrininin qarşısından keçdi.

Azərbaycan nümayəndə heyətinin üzvləri Prezident Peter Pelleqriniyə, Slovakiya nümayəndə heyətinin üzvləri isə Prezident İlham Əliyevə təqdim olundu.

Dövlət başçıları rəsmi foto çəkdirdilər.







## Şuşada Prezident İlham Əliyevin Slovakiya Prezidenti ilə təkbətək görüşü olub

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iyulun 14-də Şuşada Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə təkbətək görüşü olub.



## Prezident İlham Əliyevin Şuşada Slovakiya Prezidenti ilə geniş tərkibdə görüşü olub

**İyulun 14-də Şuşada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini ilə geniş tərkibdə görüşü olub.**



AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidenti **İlham ƏLİYEV** çıxış edərək dedi: Hörmətli qonaqlar, Azərbaycana xoş gəlmisiniz. Qarabağa xoş gəlmisiniz. Sizi görməyimə çox şadam. Əvvəlcə, qonaqpərvərliyə görə minnətdaram. Ötən il ölkənizə rəsmi səfərimdən və müzakirələrimizdən xoş xatirələr qalır. Məmnunam ki, fəal dialoqu davam etdiririk. Eyni zamanda şadam ki, Sizi Administrasiyanızın və Hökumətinizin mühüm üzvlərindən ibarət çox böyük nümayəndə heyəti müşayiət edir. Biz də böyük heyətimizlə buradayıq. Bu, işin və ikitərəfli gündəliyin miqyasını, həmçinin irəliləyişi gördüyümüz və əlavə irəliləyişi görmək istədiyimiz həmin istiqamətləri nümayiş etdirir. Elə indicə bir çox məsələlərlə bağlı təkbətək fikir mübadiləsi apardıq, indi isə nümayəndə heyətləri ilə davam edirik. Tam əminəm ki, bu səfər tərəfdaşlığımıza əlavə təkan verəcək.

Sizi Qarabağda qəbul etmək xüsusilə xoşdur. Sabah Siz Bakıda olacaqsınız. Biz həmçinin hazırda slovak şirkəti tərəfindən tikilən "ağıllı kənd"ə səfər edəcəyik və bu, güclü əlaqələrimizin digər yaxşı nümunəsidir. Hazırda burada, Qarabağda yenidənqurma işləri hökumətimizin əsas prioritetlərindən biridir. Buna görə slovak mütəxəssislərin iştirakı olduqca vacibdir. Bir sözlə, biz bu gün gündəliyimizdə olan bir çox məsələləri əhatə edəcəyik. Bir daha xoş gəlmisiniz və dəvətimi qəbul etdiyinizə görə minnətdaram.

* * *

Slovakiya Prezidenti **Peter PELLEQRİNİ** çıxış edərək dedi: Çox sağ olun, cənab Prezident. Güclü nümayəndə heyəti ilə yenidən Azərbaycanda olmaq bizim üçün böyük şərəfdir və dəvətinizə görə Sizə bir daha təşəkkürümü bildirirəm.

Sizin Bratislavaya səfəriniz mənim də xatirimdədir. Həmin səfər diplomatik münasibətlərimizin tarixində mühüm səfər oldu. Əlbəttə, mən Bakıda deyil, Qarabağda, Şuşada görüşmək təklifinizi çox yüksək dəyərləndirirəm. Biz, həqiqətən, böyük təəssürat altındayıq. Ötən gecədən başlayaraq, cəmi bir neçə saatdır buradayıq və azad ediləndən sonra bir neçə il ərzində görülmüş işlər, həyata keçirilmiş infrastruktur layihələri bizə xoş təəssürat bağışladı. Biz çox fərəhlənirik ki, Slovakiya həmin işlərdə iştirak edir. Həmin mühüm layihələrdə iştirak edən iki xarici şirkətlərdən biri bizik. Ümid edirik ki, slovak ekspertlər gələn illərdə də burada digər yeni layihələrdə iştirak edəcəklər.

* * *

Geniş tərkibdən sonra qarşılıqlı hədiyyələr təqdim olunub.

## Azərbaycan və Slovakiya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini iyulun 14-də Şuşada mətbuata bəyanatlarla çıxış ediblər.**

**AZƏRTAC xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti bəyanatla çıxış etdi.**

### Prezident İlham Əliyevin bəyanatı



- Hörmətli cənab Prezident!

Hörmətli xanımlar və cənablar!

İlk növbədə, cənab Prezident, Sizi bir daha Azərbaycanda, Qarabağda salamlayıram, Azərbaycana xoş gəlmisiniz.

Şadam ki, Slovakiya-Azərbaycan əlaqələrinin inkişafı uğurla gedir. Bizim siyasi təmaslarımız müntəzəm xarakter alır. Keçən ilin sonunda Slovakiyaya rəsmi səfərimi məmnunluqla xatırlayıram və mənə göstərilən qonaqpərvərliyə görə bir daha Sizə təşəkkürümü bildirmək istəyirəm.

Doğrudan da, belə dinamik əlaqələrin inkişafı iki tərəfin niyyətini göstərir. Bu gün biz bir çox məsələləri müzakirə etdik və bir daha gördük ki, gündəliyimiz kifayət qədər genişdir. Nümayəndə heyətlərinin tərkibinə baxmaq kifayətdir ki, hər kəs görsün hansı istiqamətlər üzrə fəal işlər gedir, dialoq gedir və təkcə dialoq yox, praktiki işlər.

Bu gün Slovakiya-Azərbaycan siyasi əlaqələri çox yüksək səviyyədədir və qarşılıqlı səfərlər bunu əyani şəkildə göstərir. 2024-cü ildə biz strateji tərəfdaşlığa dair Birgə Bəyannamə imzalamışıq və bəyannamənin icrası göz önündədir. Çünki belə fəal siyasi təmaslar və birgə layihələrin icra olunması, əlbəttə ki, güclü siyasi iradə tələb edir.

Biz çox şadıq ki, Slovakiya Qarabağın bərpasında fəal iştirak edir və biz bu gün cənab Prezidentlə birlikdə Ağdam rayonunun Baş Qərvənd kəndinə gedəcəyik. Orada Slovakiya şirkəti "Ağıllı kənd" layihəsini icra edir və bu layihə ilə tanış olacağıq. Bu dəstəyə və Qarabağın bərpasına verdiyiniz töhfəyə görə Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm.

*Ardı 3-cü səh.*

◆ **Slovakiya Prezidenti Peter Pelleqrininin Azərbaycana rəsmi səfəri**

# Slovakiya Qarabağın bərpasında fəal iştirak edir

## Azərbaycan və Slovakiya prezidentləri mətbuata bəyanatlarla çıxış ediblər

*Əvvəli 2-ci səh.*

Müzakirə edilən məsələlər arasında, təbii ki, ənənəvi məsələlər üstünlük təşkil edirdi. İqtisadi-ticari əlaqələr, energetika sahəsində, hərbi-texniki sahədə əməkdaşlıq və digər sahələr prioritet təşkil edir. Bütün bu məsələlər ətrafında çox səmimi və açıq müzakirələr aparılmışdır. Nümayəndə heyətlərinin üzvləri də bu gün və sabah - daim təmasdadırlar.

Prezidentin səfəri sabah Bakıda davam edəcək. Mənim dəvətimi qəbul etdiyi və o cümlədən səfərini Qarabağa etdiyi üçün cənab Prezidentə bir daha təşəkkürümü bildirmək istəyirəm. Bu, bir daha münasibətlərimizin nə qədər səmimi və mehriban olduğunu göstərir.

Əminəm ki, bundan sonra da bu münasibətlər uğurla inkişaf edəcək. Çünki biz konkret işlərin tərəfdarıyıq. Hər iki tərəf ikitərəfli münasibətlərə çox böyük önəm verir və deyə bilərəm ki, son illər ərzində çox güclü tərəfdaşlıq yaradılmışdır.

Onu da bildirməliyəm ki, Prezident Pelleqrini Azərbaycana ilk dəfə səfər etmir. Deyə bilərəm ki, o, Slovakiyadan olan yüksəkvəzifəli şəxslər arasında birinci insan idi, hələ əvvəlki vəzifədə Azərbaycana səfər etmişdir - həm parlamentin sədri, həm də Baş nazir kimi. Prezident kimi bizim beynəlxalq iqlim konfransında iştirak etmişdir və bu gün də Azərbaycanda rəsmi səfərdədir.

Bir daha cənab Prezident, Sizi salamlayıram və Sizə xoş səfər arzulayıram.

* * *

Sonra Slovakiya Prezidenti bəyanatla çıxış etdi.





### Prezident Peter Pelleqrininin bəyanatı

- Hörmətli cənab Prezident!

İcazə verin, Azərbaycana rəsmi səfərimin burada, Qarabağda, Şuşa şəhərində təşkil etmək təşəbbüsünüzə, həmçinin səmimi qəbula görə bütün nümayəndə heyəti adından səmimi təşəkkürümüzü bildirim.

Keçmişdəki görüşlərimiz əsnasında biz Qarabağ və onun gələcək inkişafı barədə xeyli danışmışıq. Bu səbəbdən bu gün nümayəndə heyətindəki həmkarlarımla birgə burada olmaq, bu bölgənin inkişafında əldə edilmiş böyük tərəqqini öz gözlərimizlə görmək böyük şərəfdir.

Mən bu ərazinin azad edilməsindən sonra qısa müddət ərzində burada əldə olunmuş nailiyyətləri ehtiramla və iftixarla qeyd etmək istərdim. Eyni zamanda mən olduqca şadam və fərəhlənirəm ki, slovak şirkətləri Qarabağın yenidən qurulmasında iştirak edirlər. Qəti şəkildə inanıram ki, onlar burada gələcəkdə icra olunacaq bir çox digər mühüm layihələrə davamlı şəkildə töhfə verəcəklər. Cənab Prezident, Sizin sözlərinizin təsdiqi olaraq qeyd edim ki, Slovakiya ilə Azərbaycan arasında strateji tərəfdaşlıq sadə formal bəyannamə deyil. Ölkələrimiz arasında münasibətlər standart diplomatik əlaqələrin hüdudlarını keçir. Biz, həqiqətən, dost ölkələrik. Biz bir-birimizə xeyli kömək edən və əla münasibətlərimizi konkret layihələrə, əyani əməkdaşlığa çevirən dostlarıq.

Mən həmçinin şadam ki, nümayəndə heyətimdə Slovak Respublikası Hökumətinin yüksəkrütbəli nümayəndələri var. Bu gün və sabah onlar öz azərbaycanlı həmkarları ilə görüşə biləcəklər və cənab Prezident, Sizin vurğuladığınız əməkdaşlığın konkret sahələrini müzakirə edəcəklər. Mən həmçinin şadam ki, nazirlərimizlə yanaşı, mərkəzi banklarımızın rəhbərləri də buradadır. Onların da müzakirə olunacaq bir çox mühüm məsələləri var.

Cənab Prezident, mən səmimiyyətinizə, həmçinin aramızda olan açıq və ürəkdən gələn dialoqa görə Sizə dərin təşəkkürümü bildirmək istərdim, çünki iki dost ölkənin dövlət başçıları məhz bu cür çalışmalıdırlar. Slovakiya praqmatik münasibətlər qurur, dünyanın istənilən yerində özünə tərəfdaş və dost axtarır. Çox məmnunam ki, Azərbaycan onların sırasındadır.

Azərbaycan mühüm regional iştirakçıdır. O, sabitliyin və inkişafın qarantıdır, Şərqlə Qərbi birləşdirən logistika və nəqliyyat marşrutlarının əsas qovşağı rolunu oynayır. Azərbaycan bu baxımdan mühüm əhəmiyyətə malikdir.

Cənab Prezident, mən həmçinin enerji böhranı zamanı Azərbaycanın operativ cavabına görə Sizə və Azərbaycana təşəkkürümü bildirmək istərdim. Həmin vaxt Siz öz hazırlığınızı və arzunuzu bildirdiniz ki, ölkəmizə təbii qaz təchiz olunsun. Bütün bunlar qazın Ukrayna vasitəsilə tranziti dayandırıldıqdan sonra boşluğun doldurulmasına böyük töhfə idi. Şadam ki, nazirlərimiz 2027-ci ildən sonra enerji təchizatı üçün sabit, uzunmüddətli həll variantının tapılmasında müzakirələri davam etdirəcəklər. Cənab Prezident, mən çox məmnunam ki, bu gün günorta biz yenicə tikilmiş kəndi ziyarət edəcəyik. Mən həmçinin səmimi minnətdarlığımı bildirmək istərdim ki, bu kənddə yaşayacaq uşaqlar üçün məktəb və ətraf sahə görkəmli tarixi şəxsiyyət, slovak generalı Milan Rastislav Ştefanikin adını daşıyacaq.

Beləliklə, Slovakiyanın irsi uzun müddət burada, Qarabağda olacaq və həmin məktəbə gedəcək bütün uşaqların, valideynlərin və müəllimlərin, həmçinin Slovakiyaya bağlılığı olacaq. Biz şadıq ki, Slovakiya ilə Azərbaycan arasında münasibətlər iqtisadiyyatın və diplomatiyanın hüdudlarını keçir. Hər iki ölkənin vətəndaşları get-gedə daha çox səfərlər edirlər. Oktyabrdan etibarən birbaşa uçuşlar başlayacaq. Cənab Prezident, çox məmnunam ki, Sizin Bratislavaya səfərinizdən sonra biz bu fürsəti elan etdik. Lakin indi - 2026-cı ildə bu, artıq reallıqdır. Bununla da iki ölkə bir-birinə daha yaxın olacaq, təhsil, insanlar arasında təmaslar və əlbəttə ki, biznes sahəsində əməkdaşlıq daha da asanlaşacaq.

Eyni zamanda şadam ki, Azərbaycana səfərim zamanı məni böyük işgüzar nümayəndə heyəti müşayiət edir və sabah iqtisadiyyat nazirimiz öz azərbaycanlı həmkarı ilə birgə növbəti Azərbaycan-Slovakiya biznes-forumunu açacaqlar. Bununla da Slovakiya ilə Azərbaycan şirkətləri bir araya gələcək və ümid edirəm ki, onlar əməkdaşlıq üçün yeni imkanlar tapacaqlar. Bu, bizim Sizinlə ümumi tutduğumuz mövqeyə tam uyğundur. Yəni münasibətlərimiz yalnız birtərəfli ticarətə - bir tərəfin satdığına, digər tərəfin aldığına söykənməli deyil. Əksinə, biz mümkün qədər çox birgə layihələr istəyirik. Biz əməkdaşlığın qarşılıqlı şəkildə faydalı olacağı sahələrdə birgə işləmək istəyirik. Mümkün olan sahədə birgə istehsal etməyi, texnologiyanın ötürülməsini asanlaşdırmağı və birtərəfli deyil, hər iki ölkəyə fayda gətirəcək birgə layihələri həyata keçirməyi arzulayırıq.

Slovakiya Respublikası üçün təhlükəsizlik və sülh fundamental əhəmiyyət kəsb edir. Buna görə mən regionumuza təsir göstərən gərginliyin aradan qaldırılması, istər Rusiya ilə Ukrayna müharibəsi, istərsə də Yaxın Şərqdəki çətin vəziyyətin diplomatik həlli istiqamətində Prezident Əliyevin və Azərbaycanın bütün səylərini alqışlamaq istərdim.

Biz Slovakiyada qəti şəkildə inanırıq ki, müdafiə imkanlarının gücləndirilməsi, cari münaqişələrin qarşısının alınmasına maliyyə dəstəyinin göstərilməsi ilə yanaşı, Avropa liderləri danışıqlar masası arxasında diplomatik həll variantlarının tapılmasına daha çox vaxt ayırmalıdırlar ki, biz müharibəni öz qitəmizdən mümkün qədər tez çıxaraq və bütün regionların rifaha layiq inkişafına yenidən diqqət göstərək.

Mən həmçinin təsdiqləmək istərdim ki, 2027-ci və 2028-ci illərdə Slovakiya Bakıdakı səfirliyi vasitəsilə NATO-nun Azərbaycanda Əlaqələndirici Səfirliyi kimi işini davam etdirəcək. Çox şadam ki, müdafiə nazirlərimiz təhlükəsizlik və müdafiə imkanları sahəsində əla əməkdaşlıq edirlər. Həmçinin şadam ki, Slovakiya birgə əməkdaşlığımızın və razılaşmalarımızın ilk nəticələrini bu ilin sentyabrında Bakıda keçiriləcək əsas müdafiə sərgisində göstərə biləcək.

Cənab Prezident, bizə vaxtımızı burada - Qarabağda və Bakıda keçirmək fürsəti yaratdığınıza görə Sizə olduqca minnətdaram. Bu günə qədər göstərdiyiniz dostluğa və əməkdaşlığa görə təşəkkür edirəm. Çox şadam, biz dialoq və birgə fəaliyyət nəticəsində davamlı olaraq göstərəcəyik ki, Azərbaycan ilə Slovakiya arasında münasibətlər boş sözlərə əsaslanmır. Münasibətlər formal xarakter daşımır. Onlar konkret layihələrə və tutarlı tədbirlərə əsaslanır.

Gələcək görüşlərimizi səbirsizliklə gözləyirəm. Mən həmçinin məmnunam ki, Siz mənim Azərbaycana etdiyim səfərləri xatırlayarkən bildirdiniz ki, hər dəfə yüksək siyasi vəzifədə olmuşam. Bununla çıxışı daha şən notla bitirim. Görünür, hər dəfə Azərbaycana səfər edəndə hər işim yaxşı gedir və siyasi karyeram növbəti mərhələyə keçir. Buna görə də Sizə minnətdaram. Hər ikimizə daha çox yaxşı və dost görüşləri, ölkələrimizə isə davamlı rifah və əla münasibətlər arzu edirəm.

Çox sağ olun, cənab Prezident.

## Prezidentlər İlham Əliyev və Peter Pelleqrini Şuşada Azərbaycanın tanınmış şəxsiyyətlərinin işğal dövründə güllələnmiş büstlərinə baxıblar



İyulun 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini Şuşada Azərbaycanın tanınmış şəxsiyyətləri Natəvanın, Bülbülün və Üzeyir Hacıbəylinin işğal dövründə güllələnmiş büstlərinə baxıblar.

## Azərbaycan və Slovakiya prezidentləri Ağdamın Baş Qərvənd kəndində görülən işlərlə tanış olublar

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ölkəmizdə rəsmi səfərdə olan Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini iyulun 14-də Ağdam rayonunun Baş Qərvənd kəndində görülən işlərlə tanış olub, Milan Rastislav Ştefanik adına 840 şagird yerlik Baş Qərvənd kənd tam orta məktəb binasının təməlini qoyublar.**

AZƏRTAC xəbər verir ki, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov Azərbaycan və Slovakiya prezidentlərinə Ağdamın Baş Qərvənd kəndində görülən işlər barədə məlumat verdi.

Baş Qərvənd kəndi Bərdə-Ağdam avtomobil yolunun və Bərdə-Ağdam dəmir yolu xəttinin sağ tərəfində, Ağdam şəhərinin mərkəzindən 18 kilometr məsafədə yerləşir. Uzun illər erməni işğalı altında qalan kənd 2020-ci il noyabrın 20-də azad edilib.

Prezident İlham Əliyev kəndin təməlini 2023-cü il dekabrın 24-də qoyub.

Hazırda kənddə zəruri sosial infrastruktur qurulur, o cümlədən inzibati və xidmət binaları inşa edilir. Burada çoxfunksiyalı inzibati bina, tibb məntəqəsi, tam orta məktəb, uşaq bağçaları olacaq.

Kənddə ümumi uzunluğu 35 kilometr olan avtomobil yolları çəkilir, rabitə sistemi, elektrik, qaz, içməli su və çirkab suların axıdılması şəbəkələri yaradılır. Enerji daşıyıcılarına qənaət etmək məqsədilə Baş Qərvənd kəndində alternativ enerjidən istifadə olunacaq.

Azərbaycan və Slovakiya prezidentlərinə Milan Rastislav Ştefanik adına 840 şagird yerlik Baş Qərvənd kənd tam orta məktəbi barədə də məlumat verildi.

Bildirildi ki, məktəbin ərazisi 3 hektardır. Binada ümumilikdə 35 sinif, texnologiya, hərbi hazırlıq, kompüter otaqları, kitabxana, fizika, biologiya və kimya laboratoriyaları yaradılacaq.

Burada, eyni zamanda, akt və idman zalları, bufet və digər zəruri tədris infrastrukturu olacaq.









Binanın elektrik təchizatını təmin etmək üçün Günəş panellərinin quraşdırılması nəzərdə tutulur. Məktəbin ərazisində həm şagirdlər, həm də sakinlər üçün qaçış zolağı olan geniş idman meydançası, oyun və istirahət sahələri yaradılacaq, yaşıllıq zolaqları salınacaq. Azərbaycan və Slovakiya prezidentləri məktəbin təməlini qoydular. Qeyd edək ki, Baş Qərvənd kəndinin inşasında Slovakiya şirkətləri iştirak edirlər. Kənddə inşa olunacaq məktəb isə Slovakiya tərəfindən Azərbaycana hədiyyə olunur.

Sonra dövlət başçıları kənddə inşa edilmiş evdə yaradılan şəraitlə tanış oldular. Diqqətə çatdırıldı ki, ümumi ərazisi 480 hektara yaxın olan kəndin tikintisi 2 mərhələdə aparılacaq. Birinci mərhələ 200 hektardan çox sahəni əhatə edir. Bu mərhələdə 3703 nəfərin yaşayışı üçün 851 fərdi ev inşa olunacaq. Evlərdən 170-i ikiotaqlı, 417-si üçotaqlı, 145-i dördotaqlı, 119-u isə beşotaqlıdır.

◆ Slovakiya Prezidenti Peter Pelleqrininin Azərbaycana rəsmi səfəri

# Slovakiya Qarabağın bərpasında fəal iştirak edir

## Prezident İlham Əliyevin adından Xankəndidə Slovakiya Prezidentinin şərəfinə rəsmi nahar verilib





İyulun 14-də Xankəndidə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrininin şərəfinə rəsmi nahar verilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan və Slovakiya musiqilərindən ibarət konsert proqramı təqdim olunub.

## Slovakiya Prezidenti Füzuli aeroportundan təyyarə ilə Bakı şəhərinə yola düşüb

**İyulun 14-də Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrini Füzuli aeroportundan təyyarə ilə Bakı şəhərinə yola düşüb.**

AZƏRTAC xəbər verir ki, "Azərbaycan Hava Yolları" QSC-nin İdarə Heyətinin sədri Samir Rzayev Füzuli Beynəlxalq Hava Limanında Slovakiya Prezidentinə Füzuli, Zəngilan və Laçın beynəlxalq aeroportları haqqında məlumat verdi.



Prezident Peter Pelleqrinini Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov və digər rəsmi şəxslər yola saldılar.

## Azərbaycan-Fransa dövlətlərarası münasibətlərinin tarixində yeni dövr başlayıb

### Fransa Respublikasının Prezidenti zati-aliləri cənab Emmanuel Makrona

Hörmətli cənab Prezident!

Fransa Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza təbriklərimi çatdırıram.

Sizinlə son telefon danışıqlarımız və keçən il Kopenhagendə görüşümüz zamanı Azərbaycan-Fransa gündəliyində duran məsələlər, ikitərəfli əlaqələrimizin bugünkü vəziyyəti və gələcək perspektivlərinə dair apardığımız səmərəli müzakirələr dövlətlərarası münasibətlərimizin tarixində yeni dövrün başladığını söyləməyə əsas verir.

İnanıram ki, xalqlarımızın mənafeləri naminə dərin tarixi köklərə və zəngin ənənələrə malik münasibətlərimizin iqtisadi, mədəni, təhsil və qarşılıqlı maraq doğuran digər sahələrdə inkişafı üçün birgə səylərimizi bundan sonra da tərəfdaşlıq ruhunda davam etdirəcəyik.

Bu bayram günündə Fransa xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 10 iyul 2026-cı il*

## Baş nazir Əli Əsədov "Damen Shipyards Group" şirkətinin baş icraçı direktoru ilə görüşüb

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyulun 14-də "Damen Shipyards Group" şirkətinin baş icraçı direktoru Arnout Damen ilə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə "Damen Shipyards Group" arasında əməkdaşlığın uğurla inkişaf etdiyi qeyd olunub, şirkətin ölkəmizdə reallaşdırılan layihələrdə iştirakı məmnunluqla vurğulanıb.

Azərbaycanın beynəlxalq nəqliyyat-logistika mərkəzi kimi mövqeyinin və tranzit potensialının daha da gücləndirilməsinin gəmiqayırma və dəniz nəqliyyatı sahələrində əməkdaşlığın inkişafı üçün yeni imkanlar yaratdığı diqqətə çatdırılıb.

Görüş zamanı Azərbaycan ilə "Damen Shipyards Group" arasında gəmiqayırma, müasir dəniz texnologiyalarının tətbiqi və qarşılıqlı maraq doğuran digər istiqamətlər üzrə əməkdaşlığın genişləndirilməsi perspektivləri müzakirə olunub.

Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev görüşdə iştirak edib.

## Milli Məclisin Sədri Sahibə Qafarova Qətərə səfərə gedib

**Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti iyulun 14-də Qətər Dövlətinin sabiq Əmiri, Ata Əmir Əlahəzrət Şeyx Həməd bin Xəlifə Al Taninin vəfatı ilə əlaqədar Qətər Dövlətinin Əmiri Əlahəzrət Şeyx Təmim bin Həməd Al Taniyə Azərbaycan Hökuməti adından başsağlığı vermək məqsədilə bu ölkənin Doha şəhərinə səfərə gedib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Dohanın Beynəlxalq Hava Limanında nümayəndə heyətini Azərbaycanın Qətərdəki səfiri Adış Məmmədov və digər rəsmi şəxslər qarşılayıblar.

***"Azərbaycan"***

## Slovakiya Prezidenti Prezident İlham Əliyevə qonaqpərvərliyə görə təşəkkür edib

**Azərbaycanda rəsmi səfərdə olan Slovakiya Prezidenti Peter Pelleqrini səfərlə bağlı sosial media hesabında paylaşım edib.**

AZƏRTAC xəbər verir ki, "X" portalındakı paylaşımda Slovakiyanın dövlət başçısı səfər proqramı çərçivəsində Prezident İlham Əliyevlə bir qədər qeyri-adi şəkildə yola davam etdiyini yazıb: "Rəsmi səfər zamanı ev sahibi olan dövlət başçısının avtomobili şəxsən idarə etməsi, əlbəttə ki, adi hal deyil. Bu qeyri-adi və diqqətli jest məni səmimi-qəlbdən sevindirdi. Bu, ölkələrimiz arasında mövcud olan isti münasibətlərin, xalqlarımızı birləşdirən dostluğun, eləcə də tərəfdaşlığımızın təməlini təşkil edən qarşılıqlı etimad və hörmətin bariz ifadəsi idi. Bu unudulmaz qonaqpərvərlik nümunəsinə görə Prezident İlham Əliyevə səmimi təşəkkürümü bildirirəm".

Slovakiya Prezidenti digər paylaşımında isə Ağdam rayonunun Baş Qərvənd kəndinə səfərindən bəhs edib: "Ağdamda bölgənin bərpasının ən təsirli rəmzlərindən biri olan Baş Qərvənd "Ağıllı kənd" layihəsi ilə tanışlıq imkanım oldu. Slovakiya şirkətlərinin bu iddialı layihənin həyata keçirilməsində mühüm rol oynaması və Slovakiya təcrübəsinin daha parlaq gələcəyin qurulmasına töhfə verməsi qürurvericidir.

Müasir infrastrukturun və innovativ həllərin tətbiqi sayəsində bu layihə insanların təhlükəsiz, layiqli və davamlı şəkildə doğma yurdlarına qayıdaraq mülki həyata yenidən inteqrasiya olunmaları üçün əlverişli şərait yaradır. Prezident İlham Əliyevlə birlikdə gələcəkdə general Milan Rastislav Ştefanikin adını daşıyacaq yeni məktəbin təməlini də qoyduq. Bu məktəb Slovakiya ilə Azərbaycan arasında dostluğun davamlı rəmzi olmaqla yanaşı, gələcək nəsillərə yönəlmiş mühüm sərmayədir".

Dövlət başçısı bu əməkdaşlığı strateji tərəfdaşlığın bariz nümunəsi kimi qiymətləndirib.

## Azərbaycan və Slovakiyanın daxili işlər nazirləri əməkdaşlığa dair Anlaşma Memorandumu imzalayıblar

**İyulun 14-də daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Şuşa şəhərində ölkəmizdə səfərdə olan Slovakiya Respublikasının daxili işlər naziri Matuş Şutay-Eştok və rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkənin daxili işlər nazirlikləri arasında əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə edilib.

V.Eyvazov Daxili İşlər Nazirliyinin fəaliyyət istiqamətləri, ölkədəki kriminogen durum və vətəndaş məmnunluğunun təmin edilməsi sahəsində görülən işlər barədə məlumat verib.

Tərəflər transmilli mütəşəkkil cinayətkarlıq, narkotik və silahların qanunsuz dövriyyəsi, insan alveri, qeyri-leqal miqrasiya və kibercinayətkarlıqla mübarizədə birgə səylərin, müasir texnologiyaların tətbiqinin və operativ informasiya mübadiləsinin əhəmiyyətini vurğulayıblar.



Matuş Şutay-Eştok yüksək qonaqpərvərliyə görə təşəkkürünü bildirib, əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını qeyd edib.

Görüş zamanı nazirlər daxili işlər sahəsində əməkdaşlığa dair Anlaşma Memorandumu imzalayıblar.

Görüşdə hər iki ölkənin səfirləri də iştirak ediblər.

## Böyük Britaniya ilə parlamentlərarası əlaqələr inkişaf edir

İyulun 14-də Milli Məclisin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Britaniya parlamentinin üzvü, Azərbaycan ilə parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmən ilə görüşüblər.

Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Qeyd olunub ki, görüşdə Milli Məclisin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Fariz İsmayılzadə Azərbaycan ilə Böyük Britaniya arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirib. İki ölkə arasında siyasi-iqtisadi əlaqələrin mövcud vəziyyəti və inkişaf perspektivlərindən söz açan işçi qrupunun rəhbəri, təhsil və süni intellekt sahələrində əməkdaşlığın genişləndirilməsi imkanlarına da toxunub.

Söhbət zamanı parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluğunu ifadə edib. O, deputatlar arasında təmasların və fikir mübadiləsinin davam etdirilməsinin, eləcə də beynəlxalq parlament təşkilatları çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.



Böyük Britaniya parlamentinin üzvü Bob Bləkmən ona göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib, səfər çərçivəsində keçirilən görüşləri və aparılan danışıqları yüksək qiymətləndirib. Söhbətdə parlament diplomatiyası və qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin inkişafında mühüm rolu qeyd olunub.

Görüşdə Milli Məclisin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri çıxış edərək iki ölkə arasında münasibətlərin inkişaf perspektivləri barədə fikirlərini səsləndiriblər.

## Kəmaləddin Heydərov Slovakiyanın daxili işlər naziri ilə görüşüb

**İyulun 14-də Şuşa şəhərində fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrininin ölkəmizə rəsmi səfəri çərçivəsində nümayəndə heyətinin tərkibində Azərbaycana gələn Slovakiyanın daxili işlər naziri Matuş Şutay-Eştok ilə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə iki ölkə liderlərinin siyasi uzaqgörənliyi və qarşılıqlı etimadı sayəsində Azərbaycan ilə Slovakiya arasında dostluğa, hörmətə və sıx əməkdaşlığa əsaslanan strateji tərəfdaşlıq münasibətlərinin qurulduğu məmnunluqla qeyd edilib, bu çərçivədə iki ölkənin uyğun qurumları arasında əlaqələrin inkişaf etdirilməsi üçün geniş potensialın mövcud olduğu vurğulanıb.

Nazir Kəmaləddin Heydərov slovakiyalı nazir Matuş Şutay-Eştoka Azərbaycan Fövqəladə Hallar Nazirliyinin fəaliyyəti, o cümlədən işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur ərazisində həyata keçirilən humanitar minatəmizləmə əməliyyatları barədə ətraflı məlumat verib. Keçirilən görüşün iki qurum arasında təbii və texnogen xarakterli fövqəladə hallarla mübarizə üzrə müxtəlif istiqamətlərdə, o cümlədən mülki müdafiə, risklərin qiymətləndirilməsi və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi, xilasetmə fəaliyyətinin təşkili və digər sahələrdə əməkdaşlıq və təcrübə mübadiləsinin aparılması üçün möhkəm zəmin yaradacağına əminlik ifadə olunub.



Slovakiyanın daxili işlər naziri Matuş Şutay-Eştok səmimi görüşə görə təşəkkür edib, Azərbaycan və Slovakiyanın uyğun qurumları arasında fövqəladə halların idarə edilməsi üzrə çoxşaxəli əməkdaşlıq üçün mövcud potensialdan istifadənin qarşılıqlı faydasını qeyd edib.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

## Milli Məclisin iclasında

# Parlamentin növbədənkənar sessiyası başa çatdı

**İyulun 14-də Milli Məclisin növbədənkənar sessiyasının sonuncu iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasa sədrlik edən Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov 14 iyul tarixinin ölkəmizin ən əlamətdar hadisələrdən birinə təsadüf etdiyini bildirib.**



Əli Əhmədov qeyd edib ki, 57 il əvvəl Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev keçmiş Sovet İttifaqının müttəfiq respublikalarından biri olan Azərbaycanın rəhbəri seçilib. Onun rəhbərliyi ilə Azərbaycan qısa zaman ərzində keçmiş SSRİ-nin ən inkişaf etmiş respublikalarından birinə çevrilib. Ölkəmizin iqtisadi potensialı gücləndirilib, o cümlədən kənd təsərrüfatının yüksəlişi müşahidə olunub, bununla yanaşı, mədəniyyət sahəsində böyük nailiyyətlər əldə edilib. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969- 1982-ci illəri əhatə edən bu dövr ölkəmizin intibah mərhələsi kimi səciyyələndirilir.

Bildirilib ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti sayəsində Azərbaycan xalqının milli özünüdərki yeni inkişaf mərhələsinə qədəm qoyub. Həmin illər ərzində Azərbaycanın gələcək müstəqilliyi uğrunda mübarizənin təməlini təşkil edən mühüm işlər görülüb. Məhz bu möhkəm təməl üzərində Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndərin siyasi kursunu və inkişaf strategiyasını uğurla davam etdirir. Dövlət başçımızın həyata keçirdiyi siyasət nəticəsində işğal altında olan ərazilərimiz azad edilib və bu gün Azərbaycan dünyada qalib dövlət kimi tanınır. Ölkəmiz həm regional, həm də qlobal miqyasda öz mövqelərini daha da möhkəmləndirib.

Azərbaycan xalqının Heydər Əliyevin dövlətimizin müstəqilliyi və inkişafı naminə göstərdiyi xidmətləri yüksək qiymətləndirdiyi, Ulu Öndərin müəyyən etdiyi yola sadiq olduğu, onun irsinə sədaqət və dərin ehtiram bəslədiyi vurğulanıb.

Sonra birinci vitse-spiker Əli Əhmədov iclasın gündəliyinə 26 məsələnin daxil edildiyini bildirib. Qeyd edilib ki, iclasda 19 qanun layihəsi üçüncü oxunuşda, 6 qanun layihəsi bir oxunuşda, 1 qanun layihəsi isə birinci oxunuşda müzakirə olunacaq. Gündəliyin ilk 2 məsələsinin Azərbaycan Prezidenti tərəfindən Milli Məclisə təqdim edildiyi və mahiyyətcə bir-birinə yaxın olduğu bildirilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə qanunun layihəsini (üçüncü oxunuş) təqdim edib. Komitə sədri bildirib ki, Konstitusiya Qanununa təklif olunan dəyişiklikdə media sahəsində fəaliyyət göstərən tənzimləyici qurumun səlahiyyətlərinin genişləndirilməsi ilə əlaqədar adının dəyişdirilərək "Media və Yayım Şurası" ilə əvəz olunması nəzərdə tutulur.

Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc "Dövlət qulluğu haqqında" və "Media haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsindən (üçüncü oxunuş) bəhs edib. Bildirilib ki, qanun layihəsi media sahəsində normativ tənzimləmənin müasirləşdirilməsi, tətbiq mexanizmlərinin gücləndirilməsi, hüquqi müəyyənliyin təmin edilməsi və beynəlxalq standartlara uyğunluğun artırılması məqsədi daşıyır.

Komitə sədri habelə Ulu Öndər Heydər Əliyevin həm Sovet, həm də müstəqillik dövründə milli mətbuatın inkişafı sahəsindəki xidmətlərini vurğulayaraq, onun dövlətimizin dirçəlişi və qüdrətlənməsi istiqamətində gördüyü işlərin əhəmiyyəti ilə bağlı fikirlərini bölüşüb.

Təqdim olunan məsələ barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bu komitənin müsbət rəyini açıqladıqdan sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Bildirilib ki, növbəti 4 məsələ Azərbaycan Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub və mahiyyətcə bir-birinə yaxındır.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov gündəliyin 3-cü məsələsi - "Kraudfandinq haqqında", 4-cü məsələsi - Mülki Məcəllədə, Cinayət Məcəlləsində, Vergi Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Dövlət rüsumu haqqında", "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında", "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Lisenziyalar və icazələr haqqında", "Nağdsız hesablaşmalar haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə, 5-ci məsələsi - Əmək Məcəlləsində, Mülki Məcəllədə, "Valyuta tənzimi haqqında", "İnvestisiya fondları haqqında" və "Qiymətli kağızlar bazarı haqqında" qanunlarda dəyişiklik edilməsi barədə və 6-cı məsələsi - Vergi Məcəlləsində, Miqrasiya Məcəlləsində, "Sosial sığorta haqqında", "Gömrük tarifi haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Dövlət satınalmaları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələrini üçüncü oxunuşda təqdim edib.

Komitə sədri qanun layihələri barədə əvvəlki oxunuşlar zamanı ətraflı məlumat verildiyini, geniş müzakirələrin aparıldığını, sənədlərin deputatlar tərəfindən dəstəkləndiyini söyləyib. O, həmçinin məsələlərlə əlaqədar səsləndirilən fikir və təkliflərə münasibət bildirib, həm komitə, həm də aidiyyəti dövlət qurumu tərəfindən qaldırılan məsələlərə aydınlıq gətirildiyini deyib.

Müzakirələr zamanı innovasiya ekosisteminin terminologiyasına dair səsləndirilən təkliflərlə bağlı nəzərə çatdırılıb ki, innovasiya, startap, vençur kapitalı, kraudfandinq və digər bu kimi anlayışlar qlobal innovasiya ekosisteminin formalaşmış beynəlxalq leksikonunu təşkil edir. Beynəlxalq maliyyə və investisiya hüququnun ayrılmaz tərkib hissəsi olan həmin anlayışlar, artıq qlobal innovasiya platformasının ümumi ortaq peşə dilinə çevrilib.

Bildirilib ki, hazırkı mərhələdə milli maraqlar daha çox rifaha xidmət edən innovativ və rəqabətqabiliyyətli, güclü iqtisadiyyatın formalaşması ilə bağlıdır. Bu gün əsas məqsəd beynəlxalq terminlərin ifadə etdiyi müasir ideyaları, iqtisadi münasibətləri və mexanizmləri, maliyyələşmə alətlərini ölkəmizdə uğurla tətbiq etməkdən ibarətdir. Təqdim edilən qanun layihələrinin innovativ sahibkarlığın inkişafına, yüksək əlavə dəyər yaradan iqtisadi fəaliyyətin genişlənməsinə və Azərbaycanın innovasiya əsaslı, rəqabətqabiliyyətli yeni inkişaf modelinə keçidinə mühüm töhfə verəcəyi vurğulanıb.

Sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli 4-cü, 5-ci və 6-cı məsələlər barədə, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev 5-ci və 6-cı məsələlərə dair bu komitələrin rəylərini açıqlayıblar.

Təqdim olunan dörd qanun layihəsinin hər biri ayrı-ayrılıqda səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (üçüncü oxunuş) açıqlamasında məsələ barədə əvvəlki oxunuşlar zamanı ətraflı məlumat verildiyini və layihədə hər hansı əlavə dəyişikliyin edilmədiyini söyləyib.

Sənəddə təklif olunan dəyişikliklər informasiya təhlükəsizliyi və kibertəhlükəsizlik sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsi, informasiya infrastrukturunun kibertəhdidlərdən qorunması, kibertəhlükəsizlik üzrə institusional mexanizmlərin yaradılması və rəqəmsal inkişaf proseslərinin hüquqi əsaslarının müəyyən edilməsi məqsədi daşıyır.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Sonra nəzərə çatdırılıb ki, gündəliyin növbəti iki məsələsi ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olub.

Aqrar siyasət komitəsinin üzvü Azər Badamov bu iki məsələni təqdim edib. Əvvəlcə "Toxumçuluq haqqında" Azərbaycan Respublikası qanununun layihəsi (üçüncü oxunuş) barədə məlumat verilib. Bildirilib ki, layihə toxumçuluq sahəsində hüquqi tənzimləmənin təkmilləşdirilməsini, keyfiyyətə nəzarət və sertifikatlaşdırma sisteminin beynəlxalq standartlara uyğunlaşdırılmasını, elektron qeydiyyatın tətbiqini, özəl sektorun iştirakının genişləndirilməsini və rəqabət mühitinin gücləndirilməsini nəzərdə tutur.

Millət vəkili növbəti məsələ - "Seleksiya nailiyyətləri haqqında", "Dövlət rüsumu haqqında", "Lisenziyalar və icazələr haqqında" və "Texniki tənzimləmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı (üçüncü oxunuş) məlumatında qeyd edib ki, sənəd "Toxumçuluq haqqında" yeni qanunun tələblərindən irəli gələn məsələlərin tənzimlənməsi məqsədilə hazırlanıb.

Deputat Azər Badamov bu məsələ barədə təmsil etdiyi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin müsbət rəyini açıqlayıb.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq, üçüncü oxunuşda qəbul edilib.

Gündəliyin növbəti iki məsələsinin də ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğu və bir-birinə yaxın olduğu bildirilib.

Aqrar siyasət komitəsinin üzvü Azər Badamov "Balıqçılıq haqqında" Azərbaycan Respublikasının qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. Diqqətə çatdırılıb ki, qanun layihəsi balıqçılıq və akvakultura sahəsində hüquqi tənzimləmənin müasir tələblərə uyğunlaşdırılması, su bioresurslarının dayanıqlı idarə olunması, idarəetmə və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, habelə bu sahədə rəqəmsallaşma və şəffaflığın təmin edilməsi məqsədi ilə hazırlanıb. Bildirilib ki, sənəddə balıqçılıq və akvakultura sahəsində fəaliyyətin hüquqi əsasları təkmilləşdirilir, elektron uçot və monitorinq mexanizmləri, elmi əsaslı kvota sistemi, akvakultura subyektlərinin qeydiyyatı və digər məsələlər müəyyən edilir.

Məsələ barədə Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov komitənin müsbət rəyini açıqlayıb.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Azər Badamov "Dövlət rüsumu haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (üçüncü oxunuş) məlumat verib. Layihədə "Balıqçılıq haqqında" yeni qanun layihəsindən irəli gələn məsələlərin tənzimlənməsi ilə bağlı bəzi dəyişikliklər öz əksini tapıb. Belə ki, sənəddə akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsinin verilməsinə görə dövlət rüsumu müəyyən edilir. Habelə sahibkarlıq fəaliyyətinə verilən icazələrin siyahısına akvakultura təsərrüfatlarının qeydiyyat şəhadətnaməsinin əlavə olunması təklif edilir.

Azər Badamov həmçinin bu məsələ barədə təmsil etdiyi Aqrar siyasət komitəsinin müsbət rəyini də səsləndirib.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq, üçüncü oxunuşda qəbul edilib.

Aqrar siyasət komitəsinin üzvü Azər Badamov Torpaq Məcəlləsində, Mülki Məcəllədə və "Qiymətləndirmə fəaliyyəti haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı (üçüncü oxunuş) məlumat verib. Qanun layihəsi dövlət mülkiyyətində olan əmlakın, o cümlədən dövlət torpaqlarının qanunla müəyyən edilmiş hallarda xüsusi mülkiyyətdə olan əmlakla qarşılıqlı razılıq əsasında dəyişdirilməsinin hüquqi əsasını yaradır. Sənəd habelə bu əmlakların bazar dəyəri əsasında qiymətləndirilməsi və bu sahədə hüquqi tənzimləmənin təkmilləşdirilməsini təmin edir.

Deputat Azər Badamov təmsil etdiyi İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, deputat Nurlan Həsənov isə təmsil etdiyi Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin məsələ barədə rəylərini bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

Daha sonra Azər Badamov Torpaq Məcəlləsində, Mülki Məcəllədə, "Daşınmaz əmlakın dövlət kadastrı, torpaqların monitorinqi və yerquruluşu haqqında", "Torpaq bazarı haqqında" və "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, qanun layihəsinin torpaq ehtiyatlarından səmərəli və dayanıqlı istifadənin təmin edilməsi, torpaqların konsolidasiyası üçün hüquqi zəminin formalaşdırılması məqsədilə hazırlandığını söyləyib. Bildirilib ki, sənəddə torpaqların konsolidasiyası mexanizmi, torpaq sahələrinin bölünməsinə dair yeni qaydalar, qonşu torpaq mülkiyyətçilərinin üstünlük hüququ, habelə konsolidasiya nəticələrinin kadastr və dövlət qeydiyyatı sistemində əks etdirilməsi ilə bağlı dəyişikliklər nəzərdə tutulur.

İqtisadi siyasət, sənaye və sahibkarlıq və Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin qanun layihəsi ilə bağlı müsbət rəyləri səsləndirildikdən sonra sənəd üçüncü oxunuşda qəbul olunub.

İclasda Torpaq Məcəlləsində, Mülki Məcəllədə, "Azərbaycan Respublikasında mənzil fondunun özəlləşdirilməsi haqqında", "Dövlət torpaq kadastrı, torpaqların monitoringi və yerquruluşu haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında" 2017-ci il 15 dekabr tarixli 918-VQD nömrəli və "Aqrar sığorta haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi də (üçüncü oxunuş) nəzərdən keçirilib. Layihə daşınmaz əmlakın kadastrı və reyestri sahəsində qanunvericilik bazasının təkmilləşdirilməsini nəzərdə tutur.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Gündəliyin on beşinci məsələsi olan İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Komitə sədri bildirib ki, layihə ilə bağlı birinci və ikinci oxunuşda geniş məlumat verilib və dəyişikliklə bağlı heç bir təklif daxil olmayıb.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

"İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, məsələyə dair birinci və ikinci oxunuşda geniş məlumat verilib və sənədin mətnində dəyişiklik aparılmayıb.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Növbəti məsələni - "Tibbi sığorta haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov təqdim edib. Komitə sədri layihənin ikinci oxunuşu zamanı qaldırılan məsələlərlə bağlı qanunvericilik təşəbbüskarı subyekti ilə aparılan işlərin nəticələrini diqqətə çatdırıb.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev dəyişiklik barədə rəhbərlik etdiyi komitənin müsbət rəyini səsləndirəndən sonra qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli gündəliyin 18-ci məsələsi olan Miqrasiya Məcəlləsində, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" və "Dövlət rüsumu haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumat verib. Layihə barədə birinci və ikinci oxunuşda geniş məlumat verildiyini deyən komitə sədri ikinci oxunuş zamanı qaldırılan məsələyə aydınlıq gətirib və layihənin olduğu kimi səsə qoyulmasını xahiş edib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanovun məsələ barədə rəhbərlik etdiyi komitənin müsbət rəyi dinlənildikdən sonra qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü Bədəl Bədəlov "Enerji resurslarından səmərəli istifadə və enerji effektivliyi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə dair (üçüncü oxunuş) məlumat verib, birinci və ikinci oxunuşda heç bir irad və təklifin olmadığını deyib.

Qanun layihəsi üçüncü oxunuşda qəbul olunub.

İyirminci məsələ olan "Aviasiya haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov diqqətə çatdırıb ki, layihə çox yüngül uçuş aparatlarının hava məkanından istifadə və uçuş qaydalarının qəbul edilməsinin hüquqi əsasının yaradılması məqsədilə hazırlanıb.

Sənəd barədə komitə sədri Siyavuş Novruzovun fikirləri dinlənildikdən sonra layihə qəbul olunub.

"Xüsusi icra məmurları haqqında" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 248-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. O bildirib ki, layihədə Əmək Məcəlləsində, habelə "Həmkarlar ittifaqları haqqında", "İcra haqqında", "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" qanunlarda xüsusi icra məmurlarının hüquqi statusunun dəqiqləşdirilməsi nəzərdə tutulur.

Qanun layihəsi səsə qoyularaq qəbul olunub.

"İcra haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verərək vurğulayıb ki, sənəddə uyğunlaşdırma xarakterli dəyişikliklər təklif olunur.

Deputat Vüqar Bayramovun dəyişikliklə bağlı fikirləri dinlənildikdən sonra layihə səsə qoyularaq qəbul olunub.

Vergi Məcəlləsində, "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" və "Qida təhlükəsizliyi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov məlumat verib. Diqqətə çatdırılıb ki, qanunvericilikdə elektron siqaretlərin və onların komponentlərinin idxalı, ixracı, istehsalı, saxlanılması, topdan və pərakəndə satışı və istifadəsi qadağan edilib. Bu məhsulların dövriyyəsi qadağan edildiyindən təklif olunan qanun layihəsi Vergi Məcəlləsinin ayrı-ayrı maddələrində elektron siqaretlərlə bağlı ləğv edilmiş maddələrə istinadları aradan qaldırır, habelə "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında" və "Qida təhlükəsizliyi haqqında" qanunlarda müvafiq uyğunlaşdırıcı dəyişikliklərin edilməsini təmin edir.

Hüquq siyasəti və dövlət quruculuğu və Aqrar siyasət komitələrinin müsbət rəyi səsləndirildikdən sonra layihə səsə qoyularaq qəbul olunub.

"Yol hərəkəti haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verib. Vurğulanıb ki, sənəddə uyğunlaşdırma xarakterli dəyişikliklər təklif olunur və "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2025-ci il 24 iyun tarixli Qanununun icrası ilə əlaqədar hazırlanıb.

Layihə səsə qoyularaq qəbul edilib.

"Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov təqdim edib. Bildirilib ki, layihədə iki qanuna - "Dövlət rüsumu haqqında" və "Energetika haqqında" qanunlara dəyişikliklər edilməsi nəzərdə tutulur. Belə ki, yeni "Qaz təchizatı haqqında" qanunda ləğv edilmiş 30 iyun 1998-ci il tarixli qanundan fərqli olaraq qaz qurğularının xəritələrinin dövlət rüsumu ödəməklə sifarişçilərə verilməsi müddəası nəzərdə tutulmadığından "Dövlət rüsumu haqqında" qanunda müvafiq dəyişiklik edilir. Eyni zamanda "Energetika haqqında" qanunda terminoloji xarakterli uyğunlaşdırma həyata keçirilir.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov layihə barədə rəhbərlik etdiyi komitənin müsbət rəyini diqqətə çatdırandan sonra sənəd səsə qoyularaq qəbul edilib.

Gündəliyin sonuncu məsələsi olan "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov məlumat verib. Komitə sədri deyib ki, layihədə iki vacib məsələ - balıqçılıq sahəsində dövlət nəzarətinin operativliyini təmin etmək və kənd təsərrüfatı layihələrinin ətraf mühitə təsirinin qiymətləndirilməsi (ƏMTQ) qaydalarının daha aydın, ölçülə bilən kəmiyyət meyarlarına keçirilməsi təsbit olunub.

Layihədə "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunun 2.1-ci maddəsinə təklif edilən əlavə ilə balıqçılıq sahəsində nəzarətlə bağlı yoxlamalar onların dayandırılması rejimindən istisna kateqoriyasına daxil olunur. Balıqçılıq sahəsində hüquq pozuntuları (qanunsuz ovlanma, kvota pozuntuları) qısa müddətdə baş verdiyindən və nəticələri sürətlə genişləndiyindən, bu sahədə çevik nəzarət imkanının təmin edilməsi ekoloji tarazlığın, biomüxtəlifliyin və əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatının qorunması baxımından zəruridir.

Layihədə "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" qanunda təsbit olunan " Ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) tələb olunan fəaliyyət növlərinin Siyahısı"nın 27-ci maddəsi yeni redaksiyada verilir, 34-cü maddəsi isə ləğv edilir. Yeni redaksiyaya əsasən kənd təsərrüfatı məhsullarının istehsalı üzrə müəssisələrin layihələndirilməsi zamanı ƏMTQ öhdəliyi konkret kəmiyyət meyarları əsasında müəyyən edilir.

Komitə sədri vurğulayıb ki, layihədə tətbiq olunan yanaşma beynəlxalq təcrübəyə əsaslanır və dəyişikliklərin qəbulu nəticəsində aqrar sahədə ƏMTQ-nin tətbiqi üzrə hüquqi müəyyənlik təmin olunacaq, kiçik və orta təsərrüfatlar əsassız inzibati və maliyyə yükündən azad ediləcək, dövlətin nəzarət fəaliyyəti əsasən real ekoloji risk yaradan iri istehsal kompleksləri üzrə həyata keçiriləcək.

Dəyişikliklər barədə komitə sədri Hicran Hüseynovanın və deputat Vüqar Bayramovun fikirləri dinlənildikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Sonra deputat Elşən Musayev çıxış edib. O bildirib ki, iyulun 14-də Ümummilli Lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycanda siyasi rəhbərliyə gəlməsinin ildönümü tamam olur. Deputat Ulu Öndərin Vətən və xalq qarşısında misilsiz tarixi xidmətlərini dərin minnətdarlıq hissilə qeyd edərək bildirib ki, Azərbaycanın müasir dövlət kimi formalaşması, müstəqilliyinin möhkəmləndirilməsi, davamlı inkişafı və əldə etdiyi uğurlar məhz Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun nəticəsidir. O vurğulayıb ki, müasir Azərbaycan Respublikası Ulu Öndərin xalqına sonsuz məhəbbətinin, Vətən yolunda göstərdiyi fədakarlığın və uzaqgörən dövlətçilik siyasətinin əyani təcəssümüdür. Deputat Ümummilli Liderin Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsi, milli həmrəyliyin təmin olunması və gələcək inkişafın əsaslarının yaradılması istiqamətində gördüyü tarixi xidmətlərdən bəhs edib.

Milli Məclis Sədrinin birinci müavini Əli Əhmədov bildirib ki, Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevin dövlət və xalq qarşısındakı misilsiz xidmətlərini heç vaxt unutmayacaq. O, Ulu Öndərin əsasını qoyduğu dövlətçilik siyasətinin bundan sonra da ölkənin inkişafına xidmət edəcəyini vurğulayıb.

İclasa yekun vuran Əli Əhmədov bildirib ki, bununla da Milli Məclisin növbədənkənar sessiyası uğurla başa çatır. O, səmərəli iş üçün deputatlara təşəkkür edib və növbədənkənar sessiyanı bağlı elan edib.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Milli Məclisin növbədənkənar sessiyası başa çatıb.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

4TH SHUSHA GLOBAL MEDIA FORUM

# IV Şuşa Qlobal Media Forumu

## Prezidentin köməkçisi Hikmət Hacıyev Şuşada Türkiyə nümayəndə heyəti ilə görüşüb



Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev IV Şuşa Qlobal Media Forumu çərçivəsində Türkiyə Respublikası Prezident Administrasiyasının Kommunikasiyalar İdarəsinin direktorunun müşaviri Bora Bayraktar və Anadolu Agentliyinin vitse-prezidenti, baş redaktoru Yusuf Özhanla görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə qonaqlar Şuşa Qlobal Media Forumuna dəvətə və tədbirin yüksək səviyyədə təşkilinə görə təşəkkürlərini bildiriblər.

Hikmət Hacıyev Azərbaycan ilə Türkiyə arasında media sahəsində əməkdaşlıq platformasının əhəmiyyətini vurğulayaraq, bu istiqamətdə əməkdaşlığın müxtəlif aspektlərinə toxunub. Həmçinin Azərbaycanın və Türkiyənin dezinformasiyaya qarşı birgə mübarizəsi, süni intellekt texnologiyalarının media sahəsində tətbiqi, Türk Dövlətləri Təşkilatı çərçivəsində fəaliyyətin əlaqələndirilməsi və birgə media layihələrinin həyata keçirilməsi ilə bağlı məsələlər müzakirə olunub.

## Prezidentin köməkçisi Hikmət Hacıyev Şuşada D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının nümayəndə heyəti ilə görüşüb



Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev IV Şuşa Qlobal Media Forumu çərçivəsində D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Sohail Mahmud, təşkilatın direktoru Mustafa Özcan və Baş katibin icraçı köməkçisi Muhammad Bilal Xan ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla D-8 İqtisadi Əməkdaşlıq Təşkilatı arasında əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparılıb.

Hikmət Hacıyev Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycanda D-8 çərçivəsində Media Mükəmməllik Mərkəzinin yaradılması təşəbbüsünün irəli sürüldüyünü xatırladıb. O qeyd edib ki, məhz dövlətimizin başçısının bu təşəbbüsü çərçivəsində ötən il Azərbaycanda ilk dəfə D-8 Media Forumu keçirilib. D-8 Media Mükəmməllik Mərkəzinin fəaliyyətə başlaması isə həmin təşəbbüsün məntiqi davamıdır.

Sohail Mahmud öz növbəsində Azərbaycanda D-8 Media Mükəmməllik Mərkəzinin yaradılması münasibətilə təbriklərini çatdırıb və buna görə təşəkkürünü ifadə edib.

Söhbət zamanı mərkəzin D-8-ə üzv dövlətlərin media nümayəndələrinin peşəkar hazırlığı, süni intellekt və media sahələrində yeni çağırışların müzakirəsi, dezinformasiyaya qarşı mübarizə istiqamətində təlimlərin təşkili və təcrübə mübadiləsinin aparılması üçün mühüm platforma rolunu oynayacağı vurğulanıb.

## *Panel müzakirə:* "Media obyektivində sülh quruculuğu və ictimai diskurs"

**İyulun 14-də IV Şuşa Qlobal Media Forumu işini panel sessiyalarla davam etdirib. AZƏRTAC xəbər verir ki, əvvəlcə forumun məqsəd və əhəmiyyətini əks etdirən videoçarx nümayiş etdirilib.**



Sonra açılış nitqi ilə çıxış edən Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Şuşa Qlobal Media Forumu, sadəcə, konfrans deyil, jurnalistlərin, siyasətçilərin, akademik və texnologiya liderlərinin medianın ən vacib dəyərlərindən birini, yəni həqiqəti və faktları qoruyub saxlamaq yollarını araşdırmaq üçün platformadır. Çünki hazırda informasiya və dezinformasiya çox sürətlə yayılır. Etimad isə çox vaxt və mütəmadi olaraq geridə qalır. Süni intellekt jurnalistikanı yenidən formalaşdırır.

"Son illərdə Azərbaycan media mühitinin hərtərəfli modernləşdirilməsini həyata keçirib. Bu islahatlar peşəkar jurnalistikanın gücləndirilməsi, institusional potensialın artırılması, daha yüksək etik standartların təşviq edilməsi, media savadlılığının artırılması və bu sahənin sürətli texnoloji dəyişikliklərə uyğunlaşmasına kömək etmək üçün nəzərdə tutulub. Media islahatı yalnız qanunvericilikdən ibarət deyil. Bu, dayanıqlı institutların qurulması, jurnalistlərə investisiya qoyulması, dezinformasiyaya qarşı dözümlülüyün artırılması və ictimai etimadın gücləndirilməsi deməkdir", - deyə Hikmət Hacıyev bildirib.

Daha sonra "AnewZ" televiziya kanalının aparıcısı Nadia Qyanenin moderatorluğu ilə "Media obyektivində sülh quruculuğu və ictimai diskurs" adlı panel müzakirəsi olub.

Mərakeş Krallığının Audiovizual Kommunikasiyalar üzrə Ali Qurumunun sədri Lətifə Axarbaş çıxışında rəqəmsal platformaların fəaliyyətində daha yüksək şəffaflığın təmin olunmasının vacib olduğunu deyib. O bildirib ki, medianın əsas missiyası cəmiyyətə dünyanı peşəkar jurnalist prizmasından təqdim etmək, həqiqəti dəqiqləşdirilmiş və məsuliyyətli şəkildə çatdırmaqdır.

Lətifə Axarbaş sülhün qorunmasında media tənzimləyici qurumlarının və rəqəmsal platformaların məsuliyyətinin xüsusi əhəmiyyət daşıdığını bildirib:




"Beynəlxalq ictimaiyyət olaraq əsas vəzifəmiz hər bir ölkənin öz tarixi, mədəniyyəti və institutlarına uyğun şəkildə sülhün möhkəmlənməsinə, birgəyaşayış mədəniyyətinin təşviqinə xidmət edən dayanıqlı media və mədəniyyət ekosistemi formalaşdırmasına dəstək verməkdir".

Qazaxıstanın mədəniyyət və informasiya nazirinin birinci müavini Kanat İskakov diqqətə çatdırıb ki, dezinformasiya genişmiqyaslı sabitliyi pozan informasiya mühiti yarada bilər. Bu baxımdan onlayn platformalarla əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir. O vurğulayıb ki, Qazaxıstanda bu sahə təkcə qanunvericiliklə tənzimlənmir, eyni zamanda bütün onlayn platformalara süni intellekt vasitəsilə yaradılmış məzmunun mütləq şəkildə işarələnməsi tövsiyə edilir.

"Süni intellektlə hazırlanmış bütün xəbər və digər məzmunlar xüsusi qeyd olunmalıdır ki, istifadəçilər onların təbii yolla hazırlanıb-hazırlanmadığını aydın şəkildə müəyyən edə bilsinlər. Bu, həm qanunvericilik, həm də tənzimləyici qurumlarla iri rəqəmsal platformalar arasında əməkdaşlığın əsas istiqamətlərindən biridir", - deyə o vurğulayıb.

Daha sonra "Dezinformasiyanın sülhə təsiri: Mediada koordinasiyalı reaksiyalar" mövzusunda təkbətək formatlı müzakirə keçirilib.

"AnewZ" beynəlxalq televiziya kanalının baş redaktoru Qay Şounun moderatorluğu ilə təşkil olunan müzakirədə Londonda fəaliyyət göstərən "Atticus Partners" strateji kommunikasiya agentliyinin təsisçisi Leon Kuk dezinformasiyanın müasir informasiya məkanına təsiri, peşəkar medianın cəmiyyət qarşısındakı məsuliyyəti və xəbərlərin yoxlanılması mexanizmlərinin əhəmiyyətindən danışıb. O vurğulayıb ki, rəqəmsal platformaların sürətli inkişafı fonunda etibarlı informasiyanın qorunması üçün redaksiya standartlarına sadiqlik hər zamankından daha vacibdir.

Leon Kuk bildirib ki, peşəkar mediaya etimadın əsas səbəbi xəbərlərin redaksiya nəzarətindən keçməsi, faktların bir neçə mərhələdə yoxlanılması və yalnız bundan sonra ictimaiyyətə təqdim edilməsidir. Onun sözlərinə görə, redaksiya məsuliyyəti, faktların dəqiqləşdirilməsi və etik jurnalistika prinsiplərinə riayət olunması dezinformasiyaya qarşı mübarizənin ən təsirli vasitələrindəndir.

Qeyd edək ki, "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusuna həsr edilən forumda dünyanın 53 ölkəsindən 160-a yaxın media nümayəndəsi, ekspertlər, rəsmi şəxslər təmsil olunur.

## "Radio sənayesinin inkişafı üçün uğurlu həllər: Aİ və yeni formatlar"



**İyulun 14-də IV Şuşa Qlobal Media Forumu çərçivəsində "Radio sənayesinin inkişafı üçün uğurlu həllər: Aİ və yeni formatlar" mövzusunda tədbir olub.**

AZƏRTAC xəbər verir ki, "ASAN TV"nin direktoru Emin Musavinin moderatorluğu ilə keçirilən tədbirdə radio sənayesinin müasir vəziyyəti, rəqəmsal transformasiya, yeni yayım formatları, auditoriya ilə əlaqənin gücləndirilməsi və media bazarında baş verən dəyişikliklər müzakirə olunub.

Paneldə çıxış edən "Radyo Dinleme Hizmetleri Organizasyon Tanıtım ve Yayıncılık" (RİAK) şirkətinin baş direktoru Esat Çıplak, Gürcüstanın "Radio Fortuna FM 106,9" radio kanalının direktoru və təsisçisi Tamara Giqoqidze, Özbəkistanın "Poytaxt 107.2 FM" radio kanalının direktoru Zəfər Tursunov, "Yurd FM" radiostansiyasının icraçı direktoru, "Media FM" radiostansiyasının təsisçisi və baş direktoru Rüstəm Əliyev radio sənayesinin qarşılaşdığı çağırışlar, rəqəmsal platformaların yaratdığı imkanlar, keyfiyyətli məzmun istehsalı və radio yayımının gələcək inkişaf istiqamətləri barədə fikirlərini bölüşüblər.

Çıxışlarda vurğulanıb ki, müasir dövrdə radio ənənəvi yayım formatlarını qorumaqla yanaşı, rəqəmsal texnologiyalardan, sosial media imkanlarından və yeni məzmun strategiyalarından daha geniş istifadə etməlidir. Həmçinin auditoriyanın ölçülməsi, reklam bazarında rəqabət, innovativ həllərin tətbiqi və media platformaları arasında əməkdaşlığın əhəmiyyəti diqqətə çatdırılıb.

Tədbirdə həmçinin radio sənayesinin gələcək inkişaf perspektivləri, yeni texnologiyaların tətbiqi və dəyişən media mühitində uğurlu fəaliyyət üçün innovativ yanaşmaların əhəmiyyəti vurğulanıb.

## "Etimadın bərpasında media diplomatiyası və media savadlılığının rolu"

**IV Şuşa Qlobal Media Forumu çərçivəsində növbəti panel müzakirə "Etimadın bərpasında media diplomatiyası və media savadlılığının rolu" mövzusunda olub.**




AZƏRTAC xəbər verir ki, panelin moderatoru "AnewZ" televiziya kanalının aparıcısı Dilek Tuna olub.

Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin (AQEM) baş katibinin müavini Zhang Ling medianın qlobal gündəliyin formalaşdırılmasında həmmüəllif rolunu oynadığını deyib: "Bu baxımdan hesab edirəm ki, beynəlxalq təşkilatlar və beynəlxalq media eyni məqsədə - tərəflər arasında körpülər yaratmağa və dialoqu gücləndirməyə xidmət edir".

Onun sözlərinə görə, xalqlar arasında da humanitar əlaqələrin və qarşılıqlı münasibətlərin inkişafında media mühüm rol oynayır. Çoxtərəfli mexanizmlərə daha çox diqqət göstərilməsi və onların fəaliyyətinin peşəkar şəkildə işıqlandırılması beynəlxalq dialoq mədəniyyətinin formalaşmasına, ictimaiyyətin qarşıda duran qlobal çağırışlar barədə məlumatlandırılmasına və çoxtərəfli əməkdaşlıq formatlarına inamın güclənməsinə kömək edəcək", - deyə o diqqətə çatdırıb.

İordaniya Haşimilər Krallığının Kommunikasiya Nazirliyinin baş katibi Zaid Əl-Nəvaisə bildirib ki, texnologiyaların sürətli inkişafı fonunda qarşıdakı vəziyyəti tam proqnozlaşdırmaq çətindir. Bu gün süni intellekt texnologiyaları sürətlə inkişaf edir. Hər üç-altı aydan bir yeni versiyalar ortaya çıxır və həmin sistemlər həqiqi olub-olmadığını müəyyənləşdirməyin çox çətin olduğu məzmunlar yarada bilir.

"Rəqəmsal informasiya mühitində baş verən böyük dəyişikliklərlə biz ictimai məkanda yayılan fasiləsiz informasiya axını ilə qarşılaşmışıq. Bu böyük dəyişiklik yalnız informasiyanın əldə olunması ilə bağlı deyil. Həmçinin əsas çağırış artıq həmin məlumatın yoxlanılması, doğruluğunun təsdiqlənməsi və ona düzgün qiymət verilməsi imkanları ilə bağlıdır", - deyə Zaid Əl-Nəvaisə əlavə edib.

## "Dağıntıdan dirçəlişə: Şəhərsalma narrativləri və media məsuliyyəti"

**İyulun 14-də IV Şuşa Qlobal Media Forumu çərçivəsində "Dağıntıdan dirçəlişə: Şəhərsalma narrativləri və media məsuliyyəti" mövzusunda panel müzakirəsi keçirilib.**

AZƏRTAC xəbər verir ki, panel "AnewZ" televiziya kanalının baş redaktorun müavini Orxan Amaşovun moderatorluğu ilə baş tutub.

Anadolu Agentliyinin vitse-prezidenti və baş redaktoru Yusuf Özhan jurnalistikanın əsasən gündəlik hadisələrin işıqlandırılması ilə məşğul olduğunu deyib: "Bu hadisələr çox vaxt müvəqqəti xarakter daşıyır. Hətta bəzən bir neçə gün əvvəl şahidi olduğumuz hadisələri belə tez unuduruq. Buna görə də peşəmizin vəzifələrindən biri də baş verənləri zamanın sınağından çıxacaq şəkildə qorumaqdır".

Onun sözlərinə görə, jurnalistika keçmişlə gələcək arasında körpü rolunu oynayır və bu baxımdan onun missiyası son dərəcə vacibdir.

"AnewZ" televiziya kanalının icraçı direktor Rüfət Həmzəyev deyib ki, media təkcə dağıntıları deyil, həm də dayanıqlılığı, bərpa və yenidənqurma prosesini işıqlandırmalıdır. O diqqətə çatdırıb ki, dağıntıların sənədləşdirilməsi ilə bərpa prosesinin işıqlandırılması arasında mühüm fərq var. Dağıntılar dərhal baş verir, bərpa isə daha uzun zaman tələb edən bir prosesdir. Dağıntılar təsirli görüntülər və diqqətçəkən başlıqlar yaradır. Bərpa prosesi isə daha mürəkkəb və çoxşaxəlidir.

"Burada medianın üzərinə düşən daha bir mühüm məsuliyyət var. Media yalnız baş verənləri çatdırmaqla kifayətlənməməlidir. Yaddaşın necə qorunacağını və gələcək nəsillərə necə ötürüləcəyini də düşünməliyik", - deyə Rüfət Həmzəyev deyib.

## "Media üfüqləri - Süni intellekt, vizual hekayəçilik və yeni nəsil təcrübələr"



**IV Şuşa Qlobal Media Forumu çərçivəsində "Media üfüqləri: Süni intellekt, vizual hekayəçilik və yeni nəsil təcrübələr" mövzusunda tədbir təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, panel müzakirəsi Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru Fərhad Məmmədovun moderatorluğu ilə keçirilib.

Tədbirdə müasir media mühitində baş verən dəyişikliklər, süni intellekt texnologiyalarının jurnalistikaya təsiri, vizual hekayəçiliyin yeni imkanları və rəqəmsal platformalarda auditoriya ilə effektiv kommunikasiya yolları müzakirə olunub.

Müzakirədə texnoblogerlər Fərid Pərdəşünas, Tariyel Ağazadə, həmçinin blogerlər Gela Vasadze və Diana Knud iştirak ediblər.

Qeyd olunub ki, süni intellekt media sahəsində həm yeni imkanlar yaradır, həm də informasiya təhlükəsizliyi, məzmunun etibarlılığı və etik prinsiplərin qorunması ilə bağlı mühüm çağırışlar meydana çıxarır. Bildirilib ki, texnologiyanın sürətli inkişafı jurnalistlərdən yeni bacarıqlar əldə etməyi, rəqəmsal alətlərdən səmərəli istifadəni və dəyişən media trendlərinə uyğunlaşmağı tələb edir.

Panel iştirakçıları vizual məzmunun müasir auditoriyanın diqqətini cəlb etməsində roluna toxunaraq, yeni nəsil media təcrübələrinin informasiya təqdimatında mühüm yer tutduğunu vurğulayıblar.

Qeyd olunub ki, süni intellekt və innovativ texnologiyalar jurnalistikanın gələcəyini formalaşdıran əsas amillərdən biridir və bu sahədə peşəkar yanaşma, düzgün istifadə prinsipləri xüsusi əhəmiyyət daşıyır.

# ŞUŞADAN DÜNYAYA BAXIŞ




*"Əziz Şuşa, sən azadsan!*
*Əziz Şuşa, biz qayıtmışıq!*
*Əziz Şuşa, biz səni dirçəldəcəyik!*
*Şuşa bizimdir!*
*Qarabağ bizimdir!*
*Qarabağ Azərbaycandır!"*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşanın işğaldan azad edilməsi münasibətilə 8 noyabr 2020-ci ildə Azərbaycan xalqına müraciətini sevinc və qürur dolu bu sözlərlə bitirmişdi.**

Müraciətdə həmçinin Azərbaycan Prezidentinin Qarabağın gözü sayılan Şuşaya verdiyi dəyər də əksini tapmışdır:

*"Şuşanın Azərbaycan tarixində xüsusi yeri vardır. Bu, bizim qədim, tarixi şəhərimizdir. Əsrlər boyu azərbaycanlılar Şuşada yaşayıb, qurub, yaradıb. Şuşa nəinki Azərbaycanın, bütün Qafqazın incisidir. Ancaq mənfur düşmən Şuşanı işğal altında saxlamaqla bizim mədəni irsimizə böyük zərbə vurdu, bizim tarixi abidələrimizi dağıtdı, bizim məscidlərimizi dağıtdı, təhqir etdi.*

*Biz indi Şuşaya qayıtmışıq. Bütün tarixi abidələrimizi bərpa edəcəyik, bütün məscidləri bərpa edəcəyik, 28 ildən sonra Şuşada yenə də azan səsi eşidiləcəkdir".*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev verdiyi bütün vədlər kimi, bu vədini də şərəflə, ləyaqətlə yerinə yetirdi!**

Özünün qurduğu ordu ilə Şuşanı düşmən işğalından azad edərək göstərdiyi möcüzələri bərpa və quruculuq meydanında yenidən təkrar etdi.

Murdar düşmən tərəfindən vəhşicəsinə dağıdılaraq xarabalıqlara çevrilən bu şəhər çox qısa bir müddətdə yenidən tikilib qurularaq əvvəlkindən də gözəl olur.

*Müharibədən sonrakı Şuşanı görənlər bu gün yenidən oraya qayıdanda heyrət, təəccüb və vurğunluqlarını gizlədə bilmirlər.*

*İstər Azərbaycan vətəndaşı olsun, istərsə də əcnəbi qonaq.*

**Şuşa təkcə zahiri görkəmini dəyişməyib!..**

**Artıq dünyanın mədəniyyət mərkəzinə çevrilib!**

Şuşa həm də bir-birindən maraqlı tarixi hadisələrin baş verdiyi məkandır.

*Müharibə başa çatandan az sonra tarixlərə şahidlik etmiş bu şəhərdə dövlət başçıları İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan tərəfindən Azərbaycan-Türkiyə qardaşlığının, əsrlərin sınağından şərəflə çıxmış dostluğun, doğmalığın artıq həm də strateji müttəfiqlik səviyyəsinə yüksəldiyini göstərən "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" imzalandı.*

**Şuşa ilə bağlı cənab İlham Əliyevin, habelə bir sıra beynəlxalq qurum və təşkilatların xüsusi qərarları da olmuşdur.**

MƏSƏLƏN:

* Prezident İlham Əliyev 7 may 2021-ci il tarixli sərəncamı ilə Şuşa şəhərini Azərbaycanın mədəniyyət paytaxtı elan edib;

* 2021-ci ilin may ayında Milli Məclis "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanun qəbul edib. Qanun Azərbaycanın mədəniyyət paytaxtı elan edilmiş Şuşa şəhərinin qorunmasının, bərpasının, öyrənilməsinin, inkişafının və təbliğinin hüquqi və təşkilati əsaslarını müəyyən edir;

* Prezident İlham Əliyevin 5 yanvar 2022-ci il tarixli sərəncamı ilə 2022-ci il Azərbaycan Respublikasında "Şuşa İli" elan olunub;

* 2022-ci il martın 31-də Türkiyənin Bursa şəhərində Beynəlxalq Türk Mədəniyyəti Təşkilatına (TÜRKSOY) üzv ölkələrin Mədəniyyət Nazirlərinin Daimi Şurasının növbədənkənar iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2023-cü il üçün "Türk dünyasının mədəniyyət paytaxtı" seçilib;

* 2023-cü il sentyabrın 25-də Qətər Dövlətinin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilib;

* 2023-cü il oktyabrın 5-də İranın Ərdəbil şəhərində keçirilmiş İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT) üzv ölkələrin turizm nazirlərinin 5-ci iclasında Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhəri 2026-cı il üçün "İqtisadi Əməkdaşlıq Təşkilatının turizm paytaxtı" seçilib.

❖ ❖ ❖

**Azərbaycan Prezidenti cənab İlham Əliyev Şuşanı həm də beyin mərkəzinə çevirib.**

Burada bir-birinin ardınca dünyada gedən proseslərin müzakirə olunduğu və dəyərləndirildiyi tədbirlər baş tutur, dünyanın görkəmli siyasi xadimləri, dövlət başçıları, beyin mərkəzlərinin nümayəndələri söz, fikir səsləndirir, baş verən hadisə və proseslərə yanaşma və münasibətlərini açıqlayırlar.

Şuşada keçirilməsi ənənəyə çevrilmiş bir sıra beynəlxalq tədbirlər də var.

*Onlardan biri Şuşa Qlobal Media Forumudur.*

*Artıq dördüncü dəfədir ki, baş tutan bu tədbirə dünyanın hər tərəfindən, bütün dövlətlərdən insanlar toplaşır.*

**Əksəriyyəti jurnalistlərdən və siyasətçilərdən ibarət olan bu insanları düşündürən, narahat edən, planetimizin bu günü və gələcəyi ilə bağlı suallarını Azərbaycanın dövlət başçısı cənab İlham Əliyevə ünvanlayırlar.**

*Bir neçə saat davam edən belə görüşlərdə bütün sualları Azərbaycan Prezidenti cənab İlham Əliyev konkret fakt və rəqəmlər əsasında cavablandırır, özünün fikir və münasibətlərilə yanaşı, Azərbaycan dövlətinin mövqeyini ortaya qoyur.*

**İyulun 13-də açılışı olan IV Şuşa Qlobal Media Forumu "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusuna həsr olunmuşdu.**

*Yeri gəlmişkən, budəfəki forumda 53 ölkədən 160 qonaq, o cümlədən 30 xəbər agentliyinin nümayəndələri, 60-dan artıq media qurumu, bu sahədə fəaliyyət göstərən 10 beynəlxalq təşkilat iştirak edirdi.*

Bir faktı da qeyd edək ki, son 4 ildə forum 81 ölkənin 600-ə yaxın media nümayəndəsini bir araya gətirmişdir.

❖ ❖ ❖

Bəs görəsən Şuşa Qlobal Media Forumunu bu qədər maraqlı və cəlbedici edən nədir?

Şübhəsiz, cənab İlham Əliyevin suallara verdiyi, konkret faktlara, rəqəmlərə, tarixi hadisələrə söykənən dolğun və dəqiq cavabları, obyektiv və dərin qiymətləndirmələri və daim özünü doğruldan proqnozları.

**Cənab İlham Əliyev isə artıq ənənəyə çevrilən forumun yaşarlılığını, qarşısında duran vəzifələri belə dəyərləndirir:**

*"Forumun ideyası maraq doğuran məsələləri, qarşılıqlı surətdə narahatlıq doğuran sualları müzakirə etmək, həmçinin Qarabağ və Şuşa ilə tanış olmaq məqsədilə dünyanın müxtəlif guşələrindən media nümayəndələri üçün mühit yaratmaqdan ibarətdir. Əminəm ki, vaxt keçdikcə dövri olaraq buraya gələn qonaqlarımızın bir çoxu Qarabağın inkişafını, yenidənqurmanı görürlər. Onlar ilk dəfə gəldikləri zaman bəlkə də yalnız dağıntıları gördülər, lakin indi şəhərləri görürlər. Onlar yeni mənzillərdə və evlərdə yaşayan insanları görürlər. Bir sözlə, bu, müxtəlif meyarların kombinasiyasıdır. Birincisi, hər dəfə, hər il forumun mövzusu, sadəcə, cari çağırışları əks etdirir. İkincisi, mühit çox mehriban, çox müsbətdir və müxtəlif mediadan olan bir çox insanlar, əminəm ki, Şuşada görüşlərdən sonra yaxın dostlara çevrilirlər. Əlbəttə ki, bizim üçün mühüm meyar qərarların qəbul edilməsi prosesinə təsir göstərən, öz ölkələrində və onun hüdudlarından kənarda ictimai rəyi formalaşdıran insanlardan ibarət böyük qrupu toplamaqdır və Qarabağın öz köklərinə qayıtmasını, bu torpaqların yiyələrinin qayıtmasını, real inkişafı göstərməkdir".*

❖ ❖ ❖

Şuşa Qlobal Media Forumunda cənab İlham Əliyevə ünvanlanan sualları şərti olaraq iki qrupa ayırmaq olar:

Birincisi, ölkənin daxili həyatı, Azərbaycanın reallaşdırdığı layihələr, digər dövlətlərlə əməkdaşlıq və dünyaya verdiyi töhfələr;

İkincisi, müasir dünyada gedən ziddiyyətli proseslər, Azərbaycanın həmin proseslərdə iştirakı və mövqeyi, beynəlxalq qurum və təşkilatlarla bağlı problemlər, habelə Azərbaycanın atdığı addımlar, ayrı-ayrı dövlətlər və siyasətçilər barədə verilən sualların cavablandırılması və digər məsələlər.

**Bəs Azərbaycan Prezidenti İlham Əliyevin cavabları mətbuat nümayəndələri və forumun iştirakçıları üçün niyə bu qədər maraq doğurur?**

Belə bir suala da cavab verməyə çalışaq.

*Əvvəla,* bu, cənab Prezidentin şəxsiyyəti ilə bağlıdır.

* İlham Əliyev son 80 ildə dünyanın heç bir dövlət başçısının bacarmadığı möhtəşəm hərbi qələbəyə nail olmuşdur!

* İlham Əliyev 30 illik işğala və ikiəsrlik Qarabağ münaqişəsinə "dəmir yumruğ"u ilə son qoymuş, Azərbaycanı qalib dövlətə çevirmişdir!

* İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü və dövlət suverenliyini bərpa etmişdir!

* İlham Əliyev Azərbaycanı həm də ərazisində bir nəfər də olsun separatçı və əcnəbi əsgər olmayan ölkəyə çevirmişdir!

* İlham Əliyev II Qarabağ müharibəsini tam və qəti qələbə ilə başa çatdırdıqdan sonra qalib tərəf olmasına baxmayaraq, sülh təşəbbüsü ilə çıxış etmişdir.

* İlham Əliyev bu gün dünyanın ən çox qəbul edilən, hörmətlə qarşılanan, beynəlxalq tədbirlərə həvəslə dəvət olunaraq çıxışına şərait yaradılan siyasi liderlərindəndir!

* İlham Əliyev dünyaya böyük fayda gətirən transmilli layihələr müəllifidir, bu gün bir çox dövlətin ciddi ehtiyac duyduğu Orta dəhlizin yaradıcılarındandır!

*İkincisi, indiyədək cənab İlham Əliyevin verdiyi bir çox proqnoz özünü tamamilə doğrultmuş, Azərbaycan dünyada ən etibarlı tərəfdaş, İlham Əliyev isə sözü ilə imzası bir olan dövlət rəhbəri kimi hörmət qazanmışdır.*

❖ ❖ ❖

Onu da deyək ki, forumda verilən suallarla bağlı heç bir məhdudiyyət yox idi.

İrəlicədən adı siyahıya düşmüş şəxs mikrofonu götürərək sərbəst şəkildə sualını səsləndirirdi.

Odur ki, üç saatadək davam edən forumda təkcə Azərbaycanla bağlı deyil, dünyada gedən proseslər, baş verən hadisələr barədə suallar səsləndirildi.

Azərbaycanın Avropa İttifaqı, Avropa Komissiyası, AŞPA ilə münasibətlərinə, əlaqələrin gələcəyi ilə bağlı məsələlərə toxunuldu.

Bir yazıda bütün bunların hamısı barədə danışmaq mümkünsüzdür. Odur ki, biz bəzi məqamlardan söhbət açacağıq.

❖ ❖ ❖

Bu gün dünya kataklizmlər içərisindədir.

Bir tərəfdən zəlzələlər, sunamilər, selbasmalar və meşə yanğınları, digər tərəfdən isə dağıdıcı müharibələr...

Müharibələr təkcə çoxsaylı insan təlefatına səbəb olmur, həm də dünya iqtisadiyyatına mənfi təsir göstərir, sosial problemlərə, o cümlədən qiymət artımına gətirib çıxarır.

Hörmüz boğazında baş verən proseslərin neftin qiymətinin qalxmasına, Rusiya-Ukrayna müharibəsinin isə yanacaq qıtlığı yaratmasına səbəb olduğunu xatırlatmaq kifayətdir.

*Təbii ki, böyük müharibə təcrübəsi olan cənab İlham Əliyevə bu mövzuda da suallar verilməli idi və verildi də!*

**İlham Əliyevin cavablarında isə həm də Azərbaycanın daim sülh istəyində olduğu öz əksini tapırdı:**

*"Əlbəttə, biz istərdik ki, cənubumuzda da, şimalımızda da mümkün qədər tez sülh bərqərar olsun. Lakin bu sülh ədalətli olmalı, beynəlxalq hüquqa əsaslanmalı, hər hansı bir tərəfin ambisiyaları və ya gündəliyi üzərində qurulmamalıdır. Beynəlxalq hüquq istənilən sülh üçün universal platformadır".*

*"Sülh nail olunmalı olan ən ali məqsəddir. Buna görə də hesab edirəm ki, burada çoxlu psixoloji və emosional amillər, cavab vermək, qisas almaq istəyi olacaq. Mənim qonşularımıza mesajım məsuliyyətli olmaq, mümkün qədər tez dayanmaq, münasibətləri normallaşdırmağa çalışmaq və bu prosesi qlobal münaqişəyə çevriləcək səviyyəyədək eskalasiya etdirməməkdir. Bu, çox böyük təhlükədir və mən hər kəsi məsuliyyətli olmağa çağırıram".*

❖ ❖ ❖

*Dünyanı ən çox maraqlandıran məsələlərdən biri BMT-nin gələcəyi, onun dövlətlərə təsir gücünün artırılması, bu ali qurumda islahatların nə vaxt və necə keçiriləcəyi ilə bağlıdır.*

**Cənab İlham Əliyev həm BMT-nin Təhlükəsizlik Şurasına sədrliyi dövründə iclasa rəhbərlik edərkən, həm də müxtəlif məqamlarda artıq BMT-də islahatların vaxtının çatdığını dəfələrlə söyləmişdir.**

Bu dəfə də sualı cavabsız qoymadı və öz təkliflərini açıq şəkildə səsləndirdi:

*"Bildiyiniz kimi, islahatlarla bağlı bu məsələ Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasında vaxtaşırı müzakirə olunur. Lakin indiyədək hər hansı nəzərəçarpacaq irəliləyiş əldə edilməyib. Azərbaycanın bu məsələ ilə bağlı öz mövqeyi var və olub. Qoşulmama Hərəkatına sədrliyimiz dövründə biz Təhlükəsizlik Şurasında islahatlarla bağlı öz təklifimizi irəli sürmüşük. Çünki hesab edirik ki, bu islahat inklüziv və təmsilçilik prinsipinə əsaslanmalıdır".*

*"Biz bilirik ki, bəzi ölkələr Təhlükəsizlik Şurasına üzv olmaq istəyirlər. Lakin əgər nə vaxtsa islahat həyata keçirilərsə, onda nə üçün digərinin deyil, məhz bu ölkənin üzv seçilməli olduğunu müəyyən edən meyarların tapılması olduqca çətin olacaq. Nə əhalinin sayı, nə də iqtisadi potensial belə meyar ola bilməz. Ona görə də bizim təklifimiz ilk növbədə inklüzivlik prinsipinə əsaslanır. Bu, rotasiya prinsipi ilə həyata keçirilə bilər. Necə ki hazırda Təhlükəsizlik Şurasının üzvlərinin əksəriyyəti rotasiya prinsipi əsasında seçilir. Lakin bu halda həmin yer veto hüququna malik olmalıdır.*

*Bu, mütləq baş verməlidir. Əks təqdirdə Birləşmiş Millətlər Təşkilatı öz nüfuzunu, potensialını və təsir imkanlarını itirməkdə davam edəcək, münaqişələrin həlli və beynəlxalq münasibətlərin tənzimlənməsi sahəsində digər güc mərkəzlərinin kölgəsində qalacaq".*

❖ ❖ ❖

**Ən çox diqqət çəkən məsələlərdən biri Azərbaycan ilə ABŞ arasındakı münasibətlər oldu.**

Məlumdur ki, ABŞ BMT Təhlükəsizlik Şurasının daimi üzvü, Qarabağ münaqişəsinin sülh yolu ilə həlli məqsədilə yaradılan keçmiş Minsk qrupunun həmsədr dövlətlərindən biridir.

Eyni zamanda ABŞ-də güclü erməni diasporu və lobbisi fəaliyyət göstərir.

Odur ki, işğalın davam etdiyi dövrdə ABŞ nəinki güclü və söz sahibi olaraq münaqişənin həllinə töhfə verdi, əksinə, ədalətsiz addımlar atdı.

İşğalçı dövlət Ermənistan olduğu halda Azərbaycana qarşı 907-ci düzəlişi qəbul etdi.

*Prezident Baydenin dövründə münasibətlərimiz daha da gərginləşdi.*

**Hazırda isə ABŞ-Azərbaycan əməkdaşlığı yeni dövrünü yaşayır və cənab İlham Əliyev bu barədə verilən sualı cavablandırarkən dedi:**

*"Prezident Trampın yanaşması isə tamamilə fərqli idi. O, sülhsevər, dünyanın müxtəlif bölgələrində sülhün bərqərar olunmasına çalışan bir liderdir. Özünün də qeyd etdiyi kimi, o, səkkiz münaqişənin həllinə töhfə verib. Bu, onun xarakterini, baxışlarını və siyasətini əks etdirir.*

*Bizim məsələdə Prezident Trampın rolu Azərbaycan ilə Ermənistan arasında sülh sazişi üzrə danışıqların yekun mərhələsində xüsusilə mühüm oldu. Prezident Tramp və onun komandası bu prosesə qoşularaq elə bir çərçivə formalaşdırdılar ki, nəticədə sülh mümkün oldu".*

*"Prezident Bayden senator olduğu dövrdə Azərbaycana qarşı sanksiyaların tətbiqi təşəbbüsünün müəlliflərindən biri idi və onun regiona baxışı da məhz belə idi. Onun yanaşmasına görə, region parçalanmış, münaqişələr və qarşıdurmalar şəraitində qalmalı idi. Belə vəziyyətdə məqsədlərinə nail olmaq daha asan olurdu. Prezident Tramp isə tamamilə fərqli şəxsdir və fərqli baxışlara malikdir. O, sülhü arzulayır və sülhü yeni imkanlar yaradan bir amil kimi görür. Bu gün isə Azərbaycan ilə Ermənistan arasında sülhün təmin olunması yeni imkanlar açır. Hazırda Prezident Tramp Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək dəhlizə öz adını verib - TRIPP. Bizdə olan məlumata görə, layihə çərçivəsində praktiki işlərə, ümid edirik ki, artıq bu il başlanılacaq. Bu layihə regionun nəqliyyat bağlılığı xəritəsini tamamilə dəyişəcək, Cənubi Qafqazda təhlükəsizliyin möhkəmlənməsinə xidmət edəcək. Bizim buna böyük ehtiyacımız var. Eyni zamanda bu, Cənubi Qafqazda qarşılıqlı etimad və konstruktiv əməkdaşlıq mühitinin formalaşmasına töhfə verəcək".*

❖ ❖ ❖

**Ukraynanın "Media Gordon Ukraine"in təsisçisi və jurnalist-bloqçu Dmitri Qordon ilə Azərbaycan Prezidenti arasında maraqlı mükalimə oldu.**

*"Hörmətli cənab Prezident, icazə verin, əvvəlcə milyonlarla ukraynalının adından Rusiyanın günahı ucbatından gözəl Ukraynanın məruz qaldığı qorxulu faciəyə göstərdiyiniz şəfqət və sırf insani münasibətə görə dost Azərbaycan xalqına və şəxsən Sizə minnətdarlığımı bildirim. Düz bir il əvvəl bu salonda Sizdən soruşdum: Ukraynaya nə məsləhət görərdiniz? Siz isə cavab verdiniz: "İşğalı heç vaxt qəbul etməyin". Bir il keçdi və çox şey dəyişdi".*

**Azərbaycan Prezidenti cənab İlham Əliyev:**

*"Fikrimcə, bu müharibəni dayandırmağın və həm də dərhal dayandırmağın lazım olduğu çoxdan başa düşülməli idi. Bu, Azərbaycanın mövqeyidir və mənim də sırf insani mövqeyimdir. Bu, işğal altında olan ərazilərini azad edən bir ölkəyə rəhbərlik edən və rəhbərlik etməkdə davam edən bir insanın mövqeyidir. Düşünürəm ki, bu təcrübə tarixdə olduqca nadirdir, çünki həm işğal, həm də kobud desək, Qarabağı təhvil verməyə məcbur etmək cəhdləri ilə bağlı təcrübəmiz var. Mən bunu dəfələrlə demişəm: ABŞ, Fransa və Rusiyanın rəhbərlik etdiyi bu Minsk qrupu yalnız Qarabağı, yəni təkcə Qarabağı deyil, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati sərhədlərini deyil, həm də Laçın və Kəlbəcər rayonlarının bütün ərazisini əlimizdən alıb Ermənistana vermək istəyirdi ki, biz buna razı olaq. Bunun müqabilində bizə olduğumuz yerdən şərqə doğru beş rayonun qaytarılması vəd edilirdi. Amma nə mən, nə də Azərbaycanda heç kim buna razı olmazdı. Lakin bu, üç aparıcı ölkənin konsolidasiya olunmuş mövqeyi idi".*

**Daha bir maraqlı yanaşmanı isə qlobal kommunikasiya şirkəti "Yurovich Communications"ın baş icraçı direktoru, eyni zamanda Soxmet-Yəhudi Agentliyinin Azərbaycandakı fəxri səfiri cənab Romen Yuroviç göstərdi:**

*"Mənim sualım bundan ibarətdir: Azərbaycanın torpağında, siyasi mədəniyyətində və rəhbərliyində mövcud olan nədir ki, o, ölkəyə ən mürəkkəb məsələlərin - bir-birinə etibar etməyən, lakin nədənsə Azərbaycana etibar edən ölkələrə təsir edən məsələlərin həlli üçün tanınmış beynəlxalq mərkəzə çevrilmək gücü verir?"*

**Cənab İlham Əliyev bu sualı da səmimiyyətlə cavablandırdı:**

*"Biz həmişə bacardığımız yerdə səmimiyyətlə kömək etmək istəmişik.*

*Bu, bir növ dövlətimizin davranış xəttidir və kifayət qədər dayanıqlı olub. Kömək etmək imkanı varsa, etməliyik. Əgər yoxdursa, yox deməliyik. Bir vaxtlar kömək etmək imkanımız yox idi, amma indi var - həm maddi, həm siyasi və həm də digər formalarda.*

*Buna görə də düşünürəm ki, etibar birinci yerdədir, məxfi məlumatların sızmayacağı və heç bir yerə sızmadığı - hər halda, sızsa belə bunun bizdən olmayacağı fikridir".*

*"İkincisi, öz aralarında ortaq dil tapa bilməyənlərin hamısı ilə dürüst olacağımıza səmimi bir inamdır. Bu cür hallar həm keçmişdə, həm də yaxın tarixdə çox olub".*

*"İnsanlar bizə dürüstlüyümüzə və necə deyərlər, bizdə belə bir söz var - "ağzıbütöv" olmağımıza görə etibar edirlər - elədir? Bunu rus dilinə necə tərcümə edəcəyimi bilmirəm, elə deyilmi? Ağzına qıfıl vurmaq - eləmi? Düşünürəm ki, buna görə də bizə belə münasibət var".*

❖ ❖ ❖

**Nəhayət, sualvermə növbəsi Azərbaycan jurnalisti Mirşahin Ağayevə çatdı:**

*"Mənim indi verəcəyim sual belə olacaq: Azərbaycan Respublikasının, yeganə qalib respublika olan Azərbaycanın, Prezident İlham Əliyevin, yeganə qalib Prezident İlham Əliyevin Şuşada, bax, bugünkü forumda bəşəriyyətə yeni tarixi dönəm üçün müraciəti və səslənişi".*

**Prezident İlham Əliyev azərbaycanlı jurnalistin fəaliyyətini yüksək qiymətləndirməklə yanaşı, sualı özünəxas tərzdə - açıq və səmimiyyətlə cavablandırdı.**

Verilən cavab - müraciətdən bir neçə məqama diqqət çəkirik:

*"Ancaq özümüzə güvənməliyik və dövlətə güvənməliyik. Birlik heç vaxt sarsılmamalıdır. Nə üçün mən bunu deyirəm? Bəlkə də bu gün bunu demək o qədər də məntiqli səslənməz. Çünki bu gün Azərbaycan cəmiyyətində olan birliyə oxşar mənzərə tapmaq da çətindir. Çünki bu, ürəkdən gələn, insanların zehnindən gələn bir birlikdir. Elə bil ki, iki çay birləşir bir yerə. Bax, odur bu birlik - həm qəlbən, həm də necə deyərlər, fikir olaraq".*

*"Dünya dəyişir və bu barədə də danışmışıq. Yeni təhdidlər, yeni təxribatlar ortaya çıxır. Əgər kimsə fikirləşir ki, bizi istəməyən qüvvələr bizdən əl çəkəcək, olmayacaq, heç vaxt olmayacaq. Bu mübarizə daimi olmalıdır - mübarizə öz hüquqlarımızı qorumaq üçün, mübarizə öz milli kimliyimizi qorumaq üçün, öz müstəqilliyimizi öz əlimizdə saxlamaq üçün".*

*"Bizim xalqımız həm işğal görüb, həm dağıntılar görüb, həm Zəfər görüb, həm də bu gün bu bərpa və dirçəliş dövrünü həm görür, həm də bunun iştirakçısıdır. Ona görə bu sözlərim gələcək nəsillərə, gənc nəslədir ki, Azərbaycan xalqı əbədi, yəni qürurlu xalq kimi, qalib xalq kimi yaşasın, milli kimlik hər şeydən üstün olmalıdır, milli ləyaqət hər şeydən üstün olmalıdır. Məğlub ola bilərsən, - indi olur belə hadisələr, - amma gərək heç vaxt əyilməyəsən, sınmayasan. Heç vaxt işğalçı ilə razılaşmayasan, işğalçının diktəsi ilə oturub-durmamalısan. Lazım olsa, ölsən də belə gərək ləyaqətlə yaşayasan və öz övladlarına, nəvələrinə, nəticələrinə bunu aşılayasan".*

*"Bizim gələcək inkişafımız gənc nəslə bağlı olacaq, təqribən 20 il, 30 il, 50 il sonra. Onlar da bizim kimi Vətənə bağlı, mətin, iradəli, güclü olmalıdırlar ki, Azərbaycan daim yüksəklərdə olsun".*

❖ ❖ ❖

Şuşada keçirilən daha bir beynəlxalq media forumu tarixə çevrildi.

Həm də yaddaşlarda yaşayan tarixə!

Bu tarix işğaldan azad olunduqdan sonra xarabalıqlar üzərində yenidən ucalan Şuşanın və külli-Qarabağın hər tərəfində yaşanır.

Bu tarixi 44 günlük Zəfər müharibəsində Azərbaycan xalqına şərəfli qələbə, Qarabağa və Şərqi Zəngəzura isə yeni intibah yaşadan İlham Əliyev yaradır! Dostlarımız hər dəfə bu diyara gələndə baş verən dəyişiklikləri görərək heyrət, sevinc və fərəhlərini gizlətmirlər.

**Azərbaycan xalqı isə daim xilaskar oğlu, möcüzələr ustası İlham Əliyevlə sonsuz qürur və fərəh hissi duyur!**

*Şuşadan dünyaya baxanda isə İlham Əliyev möcüzələri daha aydın və parlaq görünür!*

**Bəxtiyar SADIQOV**

# IV Şuşa Qlobal Media Forumu

## Dünya mediası Azərbaycan Prezidentinin IV Şuşa Forumundakı çıxışını işıqlandırmaqda davam edir

**Azərbaycan Prezidenti İlham Əliyevin Şuşada "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusunda keçirilən IV Şuşa Qlobal Media Forumunda səsləndirdiyi mesajlar dünya mediasının diqqət mərkəzində qalmaqda davam edir.**

AZƏRTAC xəbər verir ki, Almaniyanın **"Deutsche Welle"** yayım qurumu Prezident İlham Əliyevin forumda Azərbaycanın Avropa Şurası ilə münasibətlərinə dair səsləndirdiyi fikirləri geniş işıqlandırıb. Məqalədə dövlətimizin başçısının Azərbaycanın artıq iki ildir Avropa Şurasında ayrı-seçkiliyə məruz qaldığını bildirdiyi vurğulanır. Qeyd olunur ki, Prezident İlham Əliyevin sözlərinə görə, münasibətlərdə dönüş nöqtəsi Avropa Şurası Parlament Assambleyasının (AŞPA) 2024-cü ildə Azərbaycan nümayəndə heyətini səsvermə hüququndan məhrum etməsi olub.

"Deutsche Welle" Prezident İlham Əliyevin Azərbaycan-Rusiya münasibətləri ilə bağlı fikirlərinə də geniş yer ayırıb. Bildirilir ki, Azərbaycan Prezidenti Bakı ilə Moskva arasında müəyyən dövrlərdə müşahidə olunan gərginliyin artıq arxada qaldığını, iki ölkə arasında münasibətlərin isə tam normallaşdığını vurğulayıb.

Çinin **"NetEase"** və **"Tencent News"** xəbər portalları da Prezident İlham Əliyevin Şuşa Qlobal Media Forumunda çıxışındakı diqqətçəkən məqamları oxucularına çatdırıb. Xəbərlərdə dövlətimizin başçısının Rusiya ilə münasibətlərin tam normallaşdığı, iki ölkənin dövlət qurumları arasındakı təmasların aktivləşdiyi və əməkdaşlığın uğurla inkişaf etdiyi barədə fikirləri nəzərə çatdırılıb. Bundan əlavə, Çin mediası Prezident İlham Əliyevin Azərbaycanın Avropa Şurasından tamamilə çıxmaq ehtimalını ciddi şəkildə nəzərdən keçirdiyinə dair açıqlamasına da yer ayırıb.

Azərbaycan Prezidenti İlham Əliyevin IV Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirlər Belçikanın **"Business AM"** xəbər portalında da dərc edilib. Məqalədə dövlətimizin başçısının Azərbaycanın Avropa Şurasından tamamilə çıxmaq ehtimalı ilə bağlı bəyanatına xüsusi yer verilib. Xəbərdə bildirilib ki, Prezident İlham Əliyev Şuşa Forumunda rəsmi Bakının təkcə üzvlüyün dayandırılmasını deyil, həm də bu təşkilatdan qəti şəkildə ayrılmağı ciddi şəkildə nəzərdən keçirdiyini diqqətə çatdırıb.

Ukraynanın **"Korrespondent", "24 Kanal", "Delovaya Stolitsa", "Gordon", "Ukrinform", "Obozrevatel", "Censor.NET", "iPress", "112 Ukraina"** və **"Evropeyskaya Pravda"** kimi tanınmış xəbər saytları və portalları dövlətimizin başçısının Avropa Şurası ilə bağlı bəyanatları ilə yanaşı, Ukraynaya göstərilən dəstəyə dair fikirlərinə də xüsusi diqqət ayırıb.

Serbiyanın **"Tanjug", "RTV", "NIN", "Blic", "Info365", "Politika", "Novine Srbija"** və **"Vecernje novosti"** xəbər agentlikləri, onlayn qəzet və xəbər portalları da Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumundakı çıxışının əsas məqamlarını geniş işıqlandırıb. Məqalələrdə Azərbaycanın Avropa ölkələrinə təbii qaz tədarükünü artırmaq məqsədilə danışıqlar apardığı və Avropanın etibarlı enerji tərəfdaşına çevrildiyi vurğulanıb. Bununla yanaşı, Serbiya mediası Prezident İlham Əliyevin Azərbaycanın Avropa Şurası Parlament Assambleyası (AŞPA) ilə bağlı səsləndirdiyi fikirlərə də geniş yer ayırıb.




**"Reuters Connect", "Business AM", "CE Energy News", "Newsy Today", "RT Arabic"** və digər tanınmış xəbər portalları da Prezident İlham Əliyevin forumda regional və qlobal məsələlərlə bağlı səsləndirdiyi fikirləri diqqət mərkəzində saxlayıb. Xəbərlərdə dövlətimizin başçısının forumun qlobal media dialoqunu gücləndirmək, dezinformasiya ilə mübarizə aparmaq və sülhə töhfə vermək missiyasını daşıdığı barədə fikirlərinə yer verilib.

Yaponiyanın **"Nippon.com", "Jiji Press", "Himeji Keizai Shimbun"** və **"NewsPicks"** kimi nüfuzlu xəbər resursları Prezident İlham Əliyevin Yaponiya ilə Azərbaycan arasındakı münasibətlərə dair bəyanatları oxucuların diqqətinə çatdırıb. Məqalələrdə dövlətimizin başçısının iki ölkə arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq potensialının olduğunu bildirdiyi, həmçinin bu sahədə təcrübə mübadiləsi və birgə istehsal imkanlarını vurğuladığı qeyd olunub.

Bolqarıstanın **"NRD", "Delnik", "BTA", "Novini", "Manager.bg"**, Rumıniyanın **"Evenimentul Zilei", "Briefed.ro", "Monitorul Zilei", "Astazi", "Sinteza Presei"**, Yəmənin **"Saba News Agency"** və Tacikistanın **"Khabari Khush"** informasiya agentlikləri, xəbər portalları və digər media orqanları da Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumundakı çıxışının əsas məqamlarını geniş işıqlandırıblar.

Moldovanın **"Jurnal.md", "Telegraph Moldova", "Point.md"** və **"Noi.md"** portalları Azərbaycan Prezidenti İlham Əliyevin IV Şuşa Qlobal Media Forumundakı çıxışından mühüm məqamları oxucularına təqdim edib. Məqalələrdə rəsmi Bakının Avropa Şurasından tamamilə çıxmaq ehtimalını ciddi şəkildə nəzərdən keçirdiyi ön plana çıxarılıb. Moldova mətbuatının yayımlandığı xəbərlərdə həmçinin dövlətimizin başçısının Rusiya ilə ikitərəfli münasibətlərə dair şərhi yer alıb. Bildirilib ki, Prezident İlham Əliyev Moskva ilə müəyyən dövrlərdə yaşanan gərginliklərin artıq geridə qaldığını və iki ölkə arasındakı əlaqələrin tam normallaşdığını diqqətə çatdırıb.

Rusiyanın **"Gazeta.Press",** Belarusun **"Nasha Niva", "News.by",** Yunanıstanın **"Banking News", "Olympia.gr"** media qurumları da Azərbaycan Prezidentinin IV Şuşa Qlobal Media Forumunda çıxışını və suallara cavablarını diqqət mərkəzində saxlayıb. Materiallarda dövlət başçısının Azərbaycanın Avropa Şurasından tamamilə çıxmaq ehtimalını ciddi şəkildə nəzərdən keçirdiyi barədə fikirlərinə xüsusi yer ayrılıb. Eyni zamanda qeyd olunub ki, Prezident İlham Əliyevin sözlərinə görə, Bakı ilə Moskva arasında bütün səviyyələrdə siyasi dialoq davam edir. Nəşrlərdə dövlət başçısının mövcud vəziyyəti müsbət qiymətləndirdiyi, Azərbaycan-Rusiya münasibətlərinin bundan sonra da sabit və qarşılıqlı faydalı əsaslarla inkişafına əminliyini ifadə etdiyi vurğulanıb.

İranın **"IRNA"** Dövlət Xəbər Agentliyi, **"Euronews Persian", "Akharin Khabar", "Borna News", "Sarnevis.ir", "Khabar Farsi", "Vista.ir"** və **"Ghatreh"** media orqanlarında Prezident İlham Əliyevin Azərbaycanın Avropa Şurasından tamamilə çıxmaq ehtimalı ilə bağlı bəyanatları geniş işıqlandırılıb. Materiallarda dövlətimizin başçısının AŞPA-da Azərbaycan nümayəndə heyətinin səsvermə hüququnun dayandırılmasını ölkəyə qarşı ayrı-seçkilik kimi qiymətləndirməsi, Avropa Şurası ilə münasibətlərin gələcəyi, bu təşkilatdan mümkün çıxışın nəticələri və rəsmi Bakının münasibətlərin normallaşdırılması üçün irəli sürdüyü şərtlər əsas mövzulardan olub.

Litvanın **"Respublika.lt", "Delfi.lt", "LRT"** Milli Radio və Televiziyasının portalı, eləcə də **"TV3"** xəbər platformasında Prezident İlham Əliyevin Azərbaycanın XIX əsrdən etibarən müstəmləkə şəraitində yaşaması, SSRİ dövrünə münasibəti və müstəqillikdən sonra ölkənin keçdiyi inkişaf yolu ilə bağlı fikirləri diqqət mərkəzində olub. Materiallarda sovet dövründə Azərbaycanın təbii sərvətlərinin istismarı, müstəqillik illərində əldə olunan nailiyyətlər və keçmiş sovet respublikalarının inkişafına dair qiymətləndirmələr də oxuculara təqdim edilib.

Özbəkistanın **"Buzb.uz", "Buxoroisharif.uz", "NewsHub.uz"** və **"UzA"** Milli İnformasiya Agentliyi, Tacikistanın **"Khabari Khush"** xəbər portalı, eləcə də Qırğızıstanın **"TRT Kyrgyz"** xəbər portalı Prezident İlham Əliyevin regional və beynəlxalq gündəmə dair mesajlarını geniş auditoriyaya çatdırıb. Materiallarda Türkiyə-Azərbaycan müttəfiqliyinin dünyada analoqu olmayan model kimi dəyərləndirilməsi, Yaxın Şərqdə sülh çağırışları, Azərbaycan-Rusiya münasibətlərinin normallaşması, eləcə də Avropa təsisatları ilə münasibətlərə dair Bakının mövqeyi ön plana çıxarılıb. Bir sıra nəşrlər dövlətimizin başçısının sovet dövrünə və Azərbaycanın müstəqillik tarixinin nəticələrinə dair fikirlərinə də ayrıca diqqət yetirib.

İordaniyanın **Petra** Dövlət Xəbər Agentliyi, **"FANA News", "Al-Qalah News"** və **"Ammon News", "Misirin Al-Ghad", "Youm7", "Rosa El-Youssef"** və **"Baladna Elyoum",** həmçinin Səudiyyə Ərəbistanı və ərəb dünyasının **"RT Arabic", "Nabd", "Khawlan Press"** və **"Akhbar Al-An"** media orqanlarında isə Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumundakı çıxışı geniş əksini tapıb. Xəbərlərdə dövlətimizin başçısının İordaniya Kralı II Abdullahın Yaxın Şərqdə sülh təşəbbüslərinə verdiyi dəstəyi yüksək qiymətləndirməsi, Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığa verdiyi önəm, Azərbaycan-İordaniya və Azərbaycan-Misir münasibətlərinin inkişafı, regional nəqliyyat və bağlantı imkanlarının genişləndirilməsi, eləcə də medianın sülhün təşviqi, dezinformasiyaya qarşı mübarizə və süni intellekt dövründə üzərinə düşən missiya xüsusi vurğulanıb.

Gürcüstanın **"Fortuna"** Radiosunun təsisçisi Tamara Giqoqidze isə müəllifi olduğu məqalədə IV Şuşa Forumunun yüksək səviyyədə təşkili, Azərbaycanda şahidi olduğu geniş abadlıq və quruculuq işləri, eləcə də Prezident İlham Əliyevə ünvanladığı sual barədə oxuculara və dinləyicilərə ətraflı məlumat verib. Azərbaycanda 5 il əvvəl olduğunu vurğulayan müəllif ötən illər ərzində ölkəmizdə və xüsusən də işğaldan azad olunmuş ərazilərdə böyük dəyişikliklərin baş verdiyini qeyd edib.

Məqalədə yüksək səviyyədə təşkil olunmuş forumda 53 ölkədən 160 qonağın - beynəlxalq media forumu jurnalistlərinin, xəbər agentliklərinin rəhbərlərinin, media menecerlərinin, dövlət rəsmilərinin, eləcə də beynəlxalq təşkilatların, texnologiya platformalarının və akademik dairələrin nümayəndələrinin bir araya gətirildiyi bildirilir.

Tamara Giqoqidze yazır ki, IV Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyevə elektrikli avtomobillərdə FM radio sistemlərinin saxlanılması ilə bağlı sual ünvanlayıb. Məqalədə dövlət başçısının bu təşəbbüsü tam dəstəklədiyi, avtomobili radiosuz təsəvvür etmədiyini və belə bir təşəbbüs olacağı təqdirdə Azərbaycanın dəstək verməyə hazır olduğunu bildirdiyi vurğulanır.

İspandilli mətbuat da IV Qlobal Şuşa Forumunu diqqət mərkəzində saxlayıb. Belə ki, Çilinin **"El Periodista"** elektron xəbər portalı iştirakçılar arasında Latın Amerikasından yeddi nümayəndənin iştirak etdiyini yazıb. Portal Azərbaycan Prezidentinin köməkçisi və Prezident Administrasiyasının Xarici siyasət şöbəsinin müdiri Hikmət Hacıyevə istinadla bildirib ki, Şuşa medianın gələcəyini müzakirə etmək üçün xüsusilə əhəmiyyətli bir yerdir. Şuşa təkcə bir şəhər deyil, həm də tarixi və mədəni bir simvoldur. Şəhər təxminən otuz il Ermənistanın nəzarəti altında qaldıqdan sonra altı il əvvəl, 2020-ci ildə geri alınıb.

Uruqvayın **"Diario La R"** elektron xəbər portalı da Azərbaycan Prezidenti İlham Əliyevin forumda həqiqət vasitəsilə qlobal etimadı bərpa etməyə çağırdığını yazıb. Qeyd edilib ki, Azərbaycanın yenidən qurulmasını simvolizə edən Şuşa şəhərindən səslənən Prezident İlham Əliyev həqiqət uğrunda mübarizənin XXI əsrin əsas çağırışlarından biri olacağını bildirib və medianı sülhün qurulmasında mərkəzi rol oynamağa çağırıb. Şuşanın məkan kimi seçilməsinin təsadüfi olmadığı vurğulanıb. Diqqətə çatdırılıb ki, Azərbaycan üçün bu şəhər bərpa olunmuş şəhər mərkəzindən daha böyük məna daşıyır. Bu, hökumətin beynəlxalq dialoq üçün daimi forum kimi təqdim etməyə çalışdığı milli yenidənqurma layihəsi və mədəni kimliyin rəmzidir.

"Tarix və gələcəyin görüşdüyü Qafqaza açılan qapı olan Bakı" adlı məqalədə qeyd edilib ki, Azərbaycanın paytaxtı bəzi ziyarətçilərini abidələrlə, digərlərini isə mənzərələrlə qarşılayır.

Bildirilib ki, **"Diario La R"** üçün IV Şuşa Qlobal Media Forumunda iştirak etmək beynəlxalq konfransda iştirak etməkdən daha böyük məna kəsb edir. Bu, Uruqvay oxucularına strateji bir bölgəyə birbaşa baxış gətirmək, Qafqazda gedən siyasi, iqtisadi və mədəni prosesləri anlamaq və jurnalistika vasitəsilə Latın Amerikası ilə Azərbaycan arasında əlaqələri gücləndirmək deməkdir.

Argentinanın **"Latinamerica.newsagency"** instaqram səhifəsində isə bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyev jurnalist Sesilya Deql İnnosentinin sualından sonra Şuşa Qlobal Media Forumunda Argentina ilə Böyük Britaniya arasında Folklend adaları ilə bağlı mübahisəyə toxunub. Prezident münaqişənin danışıqlar, xoşməramlılıq və beynəlxalq hüquqa uyğun şəkildə həll edilməli olduğunu vurğulayıb. Prezident İlham Əliyev dövlətlərin ərazi bütövlüyünün qorunub saxlanılmalı olduğunu bildirib və qeyd edib ki, Azərbaycan bu mövqeyi öz təcrübəsinə əsaslanaraq tutur.

## AZƏRTAC dünyanın bir sıra informasiya agentlikləri ilə memorandum imzalayıb

Şuşada keçirilən IV Qlobal Media Forumu çərçivəsində iyulun 14-də Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə Oman Xəbər Agentliyi (ONA) arasında xəbər və informasiya mübadiləsi sahəsində Anlaşma Memorandumu imzalanıb.

Sənədi AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev və Oman Xəbər Agentliyinin Baş direktoru İbrahim Salim Al Salmi imzalayıblar.

Memoranduma əsasən, tərəflər ərəb, ingilis və digər dillərdə xəbər bülletenlərinin, həmçinin foto və videomaterialların qarşılıqlı və ödənişsiz mübadiləsini həyata keçirəcəklər.

* * *

Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə Mozambik İnformasiya Agentliyi (AIM) arasında əməkdaşlıq və xəbər mübadiləsinə dair Anlaşma Memorandumu imzalanıb.

Sənədi AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev və AIM-in Baş direktoru Orlando Voabil Qambeta imzalayıblar.

Memorandumun məqsədi xəbər mübadiləsi sahəsində əməkdaşlıq üçün hüquqi çərçivənin yaradılması, tərəflər arasında qarşılıqlı faydalı əlaqələrin inkişaf etdirilməsi və informasiya sahəsində əməkdaşlığın genişləndirilməsidir.

* * *

Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə İtaliyanın Adnkronos İnformasiya Agentliyi (ADN) arasında əməkdaşlıq və xəbər mübadiləsinə dair yeni müqavilə imzalanıb.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyevin Adnkronos agentliyinin biznesin inkişafı direktoru Klaudio Çiukkiu ilə görüşündə ikitərəfli əlaqələrin inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

Müqaviləyə əsasən, AZƏRTAC və Adnkronos fotosərgilər, videoreportajlar, onlayn seminarlar və medianın inkişafına yönəlmiş digər birgə informasiya layihələri həyata keçirə, həmçinin tərəflərdən birinin ölkəsində təşkil olunan tədbirlərin işıqlandırılması zamanı qarşılıqlı dəstək göstərə biləcəklər.

* * *

Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) ilə Yaponiyanın "Jiji Press" informasiya agentliyi arasında əməkdaşlıq və xəbər mübadiləsi haqqında müqavilə imzalanıb.

Sənədləri AZƏRTAC-ın İdarə Heyətinin sədri Vüqar Əliyev və "Jiji Press"in beynəlxalq əlaqələr üzrə icraçı direktoru Yoşiki Kişida imzalayıblar.

Diqqətə çatdıraq ki, bu sənəd iki agentlik arasında 2015-ci il aprelin 15-də imzalanmış müqaviləni əvəz edir.

## Milli Məclisdə görüşlər

Milli Məclis Sədrinin müavini Musa Qasımlı iyulun 14-də ölkəmizdə səfərdə olan Koreya Respublikası Milli Assambleyasının Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Li Man Hinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Azərbaycan ilə Koreya arasında münasibətlərin hazırkı səviyyəsinin məmnunluq doğurduğu qeyd olunub. Bildirilib ki, ölkələrimiz arasında fəal siyasi dialoq, ali və yüksəksəviyyəli qarşılıqlı səfərlər, eləcə də müxtəlif sahələr üzrə əməkdaşlığın ardıcıl şəkildə inkişaf etdirilməsi dövlətlərarası əlaqələrin daha da genişlənməsi üçün möhkəm zəmin yaradır.

Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin əldə etdiyi uğurlardan danışan Musa Qasımlı, iqtisadi inkişafın dinamikasını, ölkədə sabitliyin təmin olunması istiqamətində görülən işləri, eləcə də xarici sərmayədarlar üçün yaradılmış əlverişli investisiya mühitini qeyd edib. Bu baxımdan Azərbaycanda fəaliyyət göstərən çoxsaylı Koreya şirkətlərinin ölkələrimiz arasında iqtisadi əməkdaşlığın dərinləşməsinə mühüm töhfə verdiyi məmnunluqla qeyd olunub.

Milli Məclis Sədrinin müavini parlamentlərarası əməkdaşlığın ikitərəfli münasibətlərin mühüm istiqamətlərindən biri olduğunu vurğulayaraq, hər iki ölkənin qanunverici orqanlarında fəaliyyət göstərən dostluq qruplarının bu əlaqələrin inkişafına əhəmiyyətli töhfə verdiyini bildirib. O, deputatlar arasında qarşılıqlı səfərlərin və təmasların intensivləşdirilməsinin vacibliyini qeyd edərək, beynəlxalq parlament təşkilatları çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığın davam etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Koreya Milli Assambleyasının Azərbaycanla parlamentlərarası dostluq qrupunun rəhbəri Li Man Hi Azərbaycana səfərindən məmnunluğunu ifadə edərək, ölkəmiz haqqında xoş təəssüratlarını bölüşüb. O, bu səfərin parlamentlərarası münasibətlərin və ümumilikdə Koreya- Azərbaycan əməkdaşlığının daha da dərinləşməsinə xidmət edəcəyinə inandığını bildirib.

Söhbət zamanı həmçinin iqtisadiyyat, enerji, nəqliyyat, turizm, elm və təhsil, səhiyyə, mədəni-humanitar sahələrdə əməkdaşlığın mövcud vəziyyəti və inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

* * *

İyulun 14-də Milli Məclisin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Britaniya parlamentinin üzvü, Azərbaycan ilə parlamentlərarası dostluq qrupunun rəhbəri Bob Bləkmən ilə görüşüblər.

Milli Məclisin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Fariz İsmayılzadə Azərbaycan ilə Böyük Britaniya arasında əlaqələrin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirib. İki ölkə arasında siyasi-iqtisadi əlaqələrin mövcud vəziyyəti və inkişaf perspektivlərindən söz açan işçi qrupunun rəhbəri, təhsil və süni intellekt sahələrində əməkdaşlığın genişləndirilməsi imkanlarına da toxunub.

Söhbət zamanı parlamentin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov ölkələrimiz arasında münasibətlərin inkişafından məmnunluğunu ifadə edib. O, deputatlar arasında təmasların və fikir mübadiləsinin davam etdirilməsinin, eləcə də beynəlxalq parlament təşkilatları çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Böyük Britaniya parlamentinin üzvü Bob Bləkmən ona göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib, səfər çərçivəsində keçirilən görüşləri və aparılan danışıqları yüksək qiymətləndirib. Söhbətdə parlament diplomatiyası və qarşılıqlı səfərlərin ikitərəfli münasibətlərin inkişafında mühüm rolu qeyd olunub.

Görüşdə Milli Məclisin Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Sevil Mikayılova, Azay Quliyev, Tural Gəncəliyev və Zaur Şükürov çıxış edərək iki ölkə arasında münasibətlərin gələcək inkişaf perspektivləri barədə fikirlərini səsləndiriblər.

* * *

İyulun 14-də Milli Məclisin Koreya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Malik Həsənov Koreya Milli Assambleyasının Azərbaycanla parlamentlərarası dostluq qrupunun sədri Li Man Hi ilə görüşüb.

Qonaqları parlamentdə qarşılamaqdan məmnunluğunu bildirən Malik Həsənov Azərbaycan ilə Koreya Respublikası arasında uzun illərdir qarşılıqlı etimada və dostluğa əsaslanan münasibətlərin uğurla inkişaf etdiyini bildirib. O qeyd edib ki, ali və yüksəksəviyyəli qarşılıqlı səfərlər, eləcə də siyasi dialoq ikitərəfli əməkdaşlığın daha da möhkəmlənməsinə mühüm töhfə verir.

Söhbət zamanı Milli Məclisin Sədri Sahibə Qafarovanın Koreya Respublikasına rəsmi səfəri məmnunluqla xatırlanıb, həmin səfərin parlamentlərarası əlaqələrin inkişafına yeni impuls verdiyi qeyd olunub.

Li Man Hi Azərbaycan və Koreya arasında parlamentlərarası münasibətlərin yüksək səviyyədə olduğunu, iki ölkənin beynəlxalq təşkilatlar çərçivəsində də səmərəli əməkdaşlıq etdiyini bildirib. O, Azərbaycanın zəngin mədəni irsinə göstərilən marağın nümunəsi kimi "Kitabi-Dədə Qorqud" dastanının altı boyunun koreya dilinə tərcümə olunduğunu və bu nəşrin Koreya Milli Assambleyasında rəsmi təqdimat mərasiminin keçirildiyini diqqətə çatdırıb.

Görüşdə Koreya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Göydəniz Qəhrəmanov, Koreya Milli Assambleyasının Azərbaycanla parlamentlərarası dostluq qrupunun sədr müavini Son Myonq Su çıxış edərək iki ölkə arasında enerji, yüksək texnologiyalar, innovasiya, turizm, ticarət, mədəniyyət və digər sahələrdə əməkdaşlığın daha da genişləndirilməsi barədə fikirlərini səsləndiriblər.

Tərəflər parlamentlərarası dostluq qruplarının qanunverici orqanlar arasında dialoqun inkişafı, qarşılıqlı təcrübə mübadiləsinin təşviqi və xalqlar arasında dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi baxımından mühüm platforma rolunu oynadığını vurğulayıblar.

Görüşdə Koreya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvləri Ülviyyə Ağayeva, Bədəl Bədəlov, Koreyanın Azərbaycandakı səfiri Kang Kymgu və digər rəsmi şəxslər iştirak ediblər.

***"Azərbaycan"***

4TH SHUSHA GLOBAL MEDIA FORUM

# IV Şuşa Qlobal Media Forumu




## Zəngəzur dəhlizi regionda daimi sülhün əsas təminatçılarından biri olacaq

**"Azərbaycanın, ümumən türk dünyasının mədəniyyət paytaxtı Şuşa qlobal fikir mübadiləsinin, beynəlxalq dialoqun və media əməkdaşlığının mühüm mərkəzlərindən birinə çevrilib. Artıq ənənə halını alan Şuşa Qlobal Media Forumu beynəlxalq səviyyədə baş verən dəyişikliklərin, qarşıda duran yeni çağırışların, qarşılıqlı əməkdaşlıq imkanlarının və digər mühüm mövzuların müzakirəsi üçün nüfuzlu platforma kimi qəbul olunur".**

Bunu qəzetimizə açıqlamasında **Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini Arzu ABDULLAYEV** deyib. Onun sözlərinə görə, iyulun 13-14-də keçirilən IV Şuşa Qlobal Media Forumu da özündə mühüm çağırışları və reallıqları əks etdirdi: "Forumda ənənəvi olaraq çoxsaylı xarici jurnalistlərin müxtəlif suallarını ətraflı cavablandıran Prezident İlham Əliyev bir daha Azərbaycanın qlobal gündəliklə bağlı mövqeyini, strateji baxışını və ölkənin artan nüfuzunu əks etdirən mühüm mesajlar səsləndirdi. Dövlətimizin başçısı forumdakı çıxışında Azərbaycanın qlobal gündəliyini aydın şəkildə diqqətə çəkdi".

A.Abdullayev vurğulayıb ki, Prezident İlham Əliyevin forumda xüsusi toxunduğu məqamlardan biri də Azərbaycanın bağlantı imkanları, Orta dəhliz və Zəngəzur dəhlizi (TRIPP) məsələləri idi. Dövlətimizin başçısı birmənalı vurğuladı ki, ABŞ Prezidenti və onun komandası Azərbaycanın əsas hissəsini Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək Zəngəzur dəhlizinin (TRIPP) zəruriliyini aydın şəkildə dərk edirdilər və Ermənistanı sülhün vacibliyinə inandırmaq istiqamətində olduqca səmərəli fəaliyyət göstərdilər. Nəticədə Ağ Evdə keçirilən tarixi görüş zamanı Birgə Bəyannamə imzalandı: "Azərbaycanın coğrafi mövqeyi, enerji və nəqliyyat layihələri ölkələr, xalqlar arasında sıx bağlantı yaradır. Hazırda Azərbaycanın enerji diplomatiyasının uğurları göz qabağındadır. Şuşa Qlobal Media Forumunda bütün bu məsələlərə xüsusi diqqət yönəldildi, Azərbaycanın malik olduğu imkanlar, istər ənənəvi, istərsə də bərpaolunan enerji sektorunda əlaqələrin möhkəmləndirilməsi, yeni əməkdaşlıq formatlarının yaradılması üçün potensial imkanlar diqqətə çatdırıldı".

Arzu Abdullayev bildirib ki, Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən siyasət ölkəmizi regionun nəqliyyat və logistik habına çevirməkdədir: "Orta dəhliz və Zəngəzur dəhlizi (TRIPP) layihələri yalnız nəqliyyat infrastrukturu kimi qiymətləndirilməməlidir. Beynəlxalq yükdaşımalar bir tərəfdən ölkənin geosiyasi mövqeyini gücləndirir, digər tərəfdən dövlət gəlirlərini artırır. 15 milyon ton ötürmə potensialı olacaq Zəngəzur dəhlizi (TRIPP) yaxın gələcəkdə Orta dəhlizin mühüm seqmentinə çevrilərək Azərbaycanın geosiyasi mövqeyinin daha da möhkəmlənməsinə xidmət etməklə yanaşı, region dövlətlərinin gəlirlərinin artmasına da imkan yaradacaq. Rəsmi rəqəmlər göstərir ki, ötən il beynəlxalq yükdaşımalardan əldə edilən gəlir 3,3 milyard manat olub. Bu o deməkdir ki, Azərbaycan il ərzində beynəlxalq yükdaşımalardan 7 milyard manata yaxın gəlir əldə edəcək. Bu, iqtisadiyyatın şaxələndirilməsinə dəstək olmaqla yanaşı, Azərbaycanın dövlət gəlirlərinin artmasına şərait yaradacaq".

A.Abdullayev qeyd edib ki, Zəngəzur dəhlizi (TRIPP) həm münaqişə tərəflərinin, həm də beynəlxalq vasitəçilərin rəsmən tanıdığı, Cənubi Qafqazda uzunmüddətli sülhün bərqərar olması və iqtisadi blokadanın yarılması üçün əsas hüquqi mexanizm kimi qəbul edilir: "Bu layihənin reallaşması Azərbaycanın milli strateji prioritetlərinin icrasında müstəsna rol oynayacaq. Ən əsası dəhlizin fəaliyyətə başlaması sayəsində uzun illərdir təcriddə qalan Naxçıvan Muxtar Respublikası ilə birbaşa və maneəsiz quru əlaqəsi təmin olunacaq. Ümumi uzunluğu 42 kilometr olan bu xətt Naxçıvanı iqtisadi cəhətdən canlandıracaq, onun ölkənin digər iqtisadi rayonları ilə sıx qovuşmasını stimullaşdıracaq. Müasir yol-nəqliyyat infrastrukturu, rabitə və enerji xətlərinin çəkilişi muxtar respublikanı mühüm logistik mərkəzə çevirəcək. Bu isə öz növbəsində turizm və ticarət əlaqələrinin şaxələnməsinə, yerli sənayenin ixrac imkanlarının genişlənməsinə zəmin yaradacaq. Yeni dəhliz Naxçıvanda istehsal edilən məhsulların dünya bazarlarına çıxışını asanlaşdıracaq. Bölgənin zəngin təbii ehtiyatlarının səmərəli istismarı və onların xarici ölkələrə ixracı məhz Zəngəzur dəhlizinin (TRIPP) işə düşməsi ilə birbaşa bağlıdır. Layihə muxtar respublikaya yeni investisiya axını cəlb etməklə yerli büdcənin gəlirlərini artıracaq və əhalinin rifah halını əhəmiyyətli dərəcədə yüksəldəcək".

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədr müavini əlavə edib ki, Azərbaycanın tranzit potensialının artırılmasında Zəngəzur dəhlizi (TRIPP) müstəsna əhəmiyyət daşıyır: "Bu xətt təkcə regional əlaqələri gücləndirməyəcək, həm də Avrasiya materikini birləşdirən əsas logistik halqa olacaq. Azərbaycanın müəllifi olduğu qlobal layihələr bu gün Avropa, Türkiyə, Cənubi Qafqaz və Mərkəzi Asiyanı vahid iqtisadi platformada birləşdirən nəhəng bir əməkdaşlıq platformasının bünövrəsini qoyub. Bu tərəfdaşlıq formatı geniş bir arealı əhatə edir və yalnız tranzit sahəsi ilə məhdudlaşmır. Avropa ilə Asiyanı yaxınlaşdıracaq bu unikal marşrut qitənin nəqliyyat xəritəsini yenidən formalaşdıracaq və dövlətlərarası ticarət dövriyyəsini sürətləndirəcək. Layihədə iştirak edən hər bir ölkə öz tranzit imkanlarını artıraraq dünya iqtisadi sisteminə daha səmərəli inteqrasiya edəcək. Bu cür strateji layihələr Azərbaycanı Avrasiyanın əsas nəqliyyat mərkəzinə çevirir, ölkəmizin geoiqtisadi potensialını və beynəlxalq arenadakı statusunu daha da möhkəmləndirir. Nəticə etibarilə Bakının dürüst tərəfdaşlıq və etibarlılıq prinsiplərinə söykənən xarici siyasəti ölkəmizə dünya miqyasında böyük nüfuz qazandırıb. IV Şuşa Qlobal Media Forumu da Azərbaycanın beynəlxalq miqyasda artan çəkisini, reputasiyasını və dövlətimizin başçısının müasir dövrün uzaqgörən liderlərindən biri olduğunu növbəti dəfə bütün dünyaya nümayiş etdirdi".

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## Azərbaycan və Slovakiya arasında münasibətlər qarşılıqlı etimad üzərində qurulub

**Prezident İlham Əliyevin dəvəti ilə Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrininin ölkəmizə rəsmi səfəri iki dövlət arasında münasibətlərin dinamik inkişafını təsdiqləyir. Səfərin ilk gününün məhz Qarabağda, Şuşada başlaması isə həm siyasi, həm də simvolik baxımdan xüsusi əhəmiyyət daşıyır. Bu, Slovakiyanın Azərbaycanın ərazi bütövlüyünə və Qarabağda aparılan bərpa-quruculuq prosesinə verdiyi dəstəyin növbəti təsdiqi olmaqla yanaşı, tərəflər arasında formalaşmış yüksək etimadın göstəricisidir.**

**Milli Məclisin deputatı Könül NURULLAYEVA** qəzetimizə açıqlamasında deyib ki, Şuşada mətbuata bəyanatlarla çıxış edən prezidentlər ikitərəfli münasibətlərin strateji tərəfdaşlıq məzmunu qazandığını vurğulayıblar: "Dövlət başçıları siyasi dialoq, iqtisadi əməkdaşlıq, enerji təhlükəsizliyi, müdafiə sənayesi, humanitar əlaqələr, nəqliyyat və logistika sahəsi ilə bağlı geniş gündəlik üzrə fikir mübadiləsi apardılar. Prezident İlham Əliyev qeyd etdi ki, son illər Bakı ilə Bratislava arasında siyasi təmaslar intensiv xarakter alıb. 2024-cü ildə Azərbaycan Prezidentinin Slovakiyaya rəsmi səfəri zamanı imzalanmış Strateji tərəfdaşlığa dair Birgə Bəyannamə də münasibətlərin inkişafında yeni mərhələ açıb. Bu sənəd artıq real nəticələr verməkdədir, qarşılıqlı səfərlərin intensivləşməsi, birgə layihələrin həyata keçirilməsi bunun bariz nümunəsidir".

Deputat qeyd edib ki, dövlət başçısı Slovakiyanın Qarabağın yenidən qurulmasına verdiyi töhfəni yüksək qiymətləndirib. Slovakiya şirkətlərinin Ağdamın Baş Qərvənd kəndində həyata keçirdiyi "ağıllı kənd" layihəsi dost ölkənin Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi bərpa prosesinə verdiyi praktiki dəstəyin ifadəsidir. Prezidentlər sözügedən layihə ilə yerində tanış oldular. Bu da əməkdaşlığa verilən önəmin göstəricisidir. "Slovakiya Prezidenti Qarabağda qısa müddət ərzində həyata keçirilən genişmiqyaslı quruculuq işlərini yüksək qiymətləndirdi. O, ölkəsini təmsil edən şirkətlərin Qarabağda həyata keçirilən layihələrdə iştirakından qürur duyduğunu bildirərək, gələcəkdə bu əməkdaşlığın daha da genişlənəcəyinə əminliyini ifadə etdi. Liderlərin bəyanatından da aydın oldu ki, Azərbaycan ilə Slovakiya arasında imzalanmış strateji tərəfdaşlıq sənədi formal xarakter daşımır. İki ölkə arasında münasibətlər konkret layihələr, qarşılıqlı etimad və ortaq maraqlar üzərində qurulub. Bratislava Bakının regionda sabitliyin qorunmasında, Şərqlə Qərbi birləşdirən nəqliyyat-logistika marşrutlarının inkişafında rolunu xüsusi qiymtləndirir", - deyə o əlavə edib.

K.Nurullayeva bildirib ki, səfər zamanı enerji əməkdaşlığı da əsas müzakirə mövzularından biri olub. Slovakiya Avropada enerji böhranı dövründə Azərbaycanın təbii qaz tədarükü ilə bağlı operativ mövqeyini yüksək qiymətləndirir. İki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi də səfərin əsas istiqamətlərindən biridir. Bakıda keçiriləcək Azərbaycan-Slovakiya Biznes-Forumu yeni investisiya layihələrinin müəyyənləşdirilməsi və işgüzar dairələr arasında əlaqələrin gücləndirilməsi baxımından mühüm platforma olacaq. Hər iki tərəf münasibətlərin yalnız ticarət əlaqələri ilə məhdudlaşmamasını, birgə istehsal, texnologiya transferi və qarşılıqlı investisiya layihələrinin həyata keçirilməsini prioritet hesab etdiyini bildirdi. Təhlükəsizlik və müdafiə sahəsində əməkdaşlıq da görüşün mühüm nəticələrindən biri kimi diqqət çəkdi. Slovakiya şirkətləri bu ilin sentyabrında Bakıda keçiriləcək beynəlxalq müdafiə sərgisində iştirak edəcəklər. Müdafiə sənayesi sahəsində əməkdaşlığın genişləndirilməsi üçün böyük potensial mövcuddur.

Deputat vurğulayıb ki, beynəlxalq təhlükəsizlik məsələlərinə gəlincə, Prezident İlham Əliyevin dialoq və sabitlik naminə göstərdiyi səylər rəsmi Bratislava tərəfindən təqdir olunur: "Şuşada keçirilən görüş və mətbuata verilən bəyanatlar göstərdi ki, qarşılıqlı siyasi etimad, iqtisadi əməkdaşlığın genişlənməsi, enerji təhlükəsizliyi, nəqliyyat-logistika, müdafiə sənayesi və humanitar əlaqələr üzrə əldə olunan razılaşmalar strateji tərəfdaşlığın praktiki məzmununu daha da zənginləşdirir. Prezident İlham Əliyevin də vurğuladığı kimi, Azərbaycan və Slovakiya konkret nəticələrə hesablanmış əməkdaşlığın tərəfdarıdırlar".

*Ə.QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## Quruculuq və təhlükəsizliyin vəhdəti regionda davamlı sülhün yaranmasına təminatdır

**Ərazi bütövlüyümüzün və suverenliyimizin təmin olunması ilə müstəqil Azərbaycanın tarixində yeni bir mərhələ başlayıb. Yeni dövr isə yeni çağırışlar deməkdir. Yeni strateji mərhələdə Azərbaycan dövlətinin gündəliyində dayanan əsas prioritetlərdən biri işğaldan azad edilmiş ərazilərə Böyük qayıdışın təmin olunmasıdır.**

**Milli Məclisin deputatı Sevinc FƏTƏLİYEVA** qəzetimizə açıqlamasında deyib ki, güclü Azərbaycan dövləti keçmiş qaçqın və məcburi köçkün vətəndaşlarımızın işğaldan azad olunmuş ərazilərə qayıdışını layiqli şəkildə təmin etmək əzmini nümayiş etdirir. Prezident İlham Əliyevin 22 iyul 2022-ci ildə imzaladığı müvafiq sərəncamla təsdiqlənən "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda Böyük qayıdış üzrə strateji çərçivə müəyyənləşdirilib. Sənəddə vurğulanır ki, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış məqsədinin reallaşdırılması üçün əhalinin dayanıqlı məskunlaşması təmin olunacaq. Əhalinin dayanıqlı məskunlaşması ərazilərdə planlaşdırılan zəruri ilkin şərtlərin yaradılması ilə dəstəklənəcək. Ötən illər ərzində görülən işlər dövlətimizin bu istiqamətdə siyasi iradəsini nümayiş etdirir. Eləcə də Böyük Qayıdış üzrə I Dövlət Proqramı da uğurla icra olunur.

Deputatın sözlərinə görə, Prezident İlham Əliyevin işğaldan azad edilmiş ərazilərə mütəmadi səfərləri artıq dövlət idarəçiliyinin formalaşmış siyasi ənənəsinə çevrilib: "Bu səfərlər yalnız yeni infrastruktur layihələrinin istifadəyə verilməsi və ya tikinti işlərinin gedişi ilə tanışlıq məqsədi daşımır. Hər bir səfər Azərbaycanın postmünaqişə inkişaf strategiyasının əsas istiqamətlərini, dövlətin uzunmüddətli prioritetlərini və regional təhlükəsizlik konsepsiyasını özündə əks etdirən mühüm siyasi mesajlar verir. Prezidentin Şuşa, Xocavənd və Laçına son səfəri də bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Yeni sosial və turizm obyektlərinin, enerji layihələrinin istifadəyə verilməsi, yaşayış məntəqələrində aparılan bərpa işləri ilə tanışlıq, Böyük qayıdış çərçivəsində doğma yurdlarına qayıdan sakinlərlə görüşlər bir daha göstərdi ki, Qarabağ və Şərqi Zəngəzurun inkişafı vahid dövlət proqramının ardıcıl mərhələləridir. Qarabağ artıq bərpaolunan deyil, inkişaf edən regiondur. Şuşada yeni turizm infrastrukturu, Laçında enerji və kommunal layihələr, Xocavənddə yaşayış məntəqələrinin bərpası dövlətin strateji məqsədinin bu əraziləri ölkənin iqtisadi inkişaf mərkəzlərindən birinə çevirmək olduğunu göstərir. Burada "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları, "yaşıl enerji" təşəbbüsləri və müasir şəhərsalma prinsipləri tətbiq edilir".

Böyük qayıdış proqramının icrasının artıq praktik mərhələyə keçdiyini deyən S.Fətəliyeva qeyd edib ki, yeni evlər, məktəblər, bağçalar, səhiyyə və sosial xidmətlər insanların doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə qayıdışını təmin edir. Prezidentin sakinlərlə görüşləri dövlət siyasətinin mərkəzində insan amilinin dayandığını bir daha nümayiş etdirir.

Deputat qeyd edib ki, Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılan möhtəşəm işlər Azərbaycanın güclü dövlət olduğunu bir daha təsdiqləyir: "Bu fakt göstərir ki, bundan sonra heç bir qüvvə dövlətimizə qarşı hansısa iddialarla çıxış edə bilməz. Bu baxımdan Xocavənddə sakinlərlə görüş zamanı Prezident İlham Əliyevin "İnanıram ki, daha lazım olmayacaq. Amma lazım olanda hamı bilməlidir ki, "Dəmir yumruq" yerindədir və yerində olacaq" fikri mühüm siyasi mesaj kimi qiymətləndirilməlidir. Bu bəyanat müharibə çağırışı deyil, Azərbaycanın sülhə sadiqliyini qorumaqla yanaşı, milli təhlükəsizliyini və suverenliyini qətiyyətlə müdafiə etmək əzmini ifadə edir".

S.Fətəliyeva bildirib ki, son illərin təcrübəsi davamlı sülhün yalnız etibarlı təhlükəsizlik təminatları ilə mümkün olduğunu göstərir. Məhz buna görə də iqtisadi inkişaf, quruculuq və güclü müdafiə potensialı Azərbaycanın postmünaqişə inkişaf modelinin ayrılmaz hissələridir. Prezident İlham Əliyevin növbəti səfəri bir daha təsdiqlədi ki, Qarabağ artıq keçmiş münaqişənin simvolu deyil. Bu gün region Azərbaycanın modernləşmə siyasətinin, Böyük qayıdış proqramının icrasının və uzunmüddətli inkişaf strategiyasının əsas platformasına çevrilir. Quruculuq və təhlükəsizliyin vəhdəti isə regionda davamlı sülhün və sabitliyin əsas təminatıdır.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

## "Prezident İlham Əliyevin BTQ ilə bağlı fikirləri bizim üçün ən yüksək etimaddır"

**"Şuşa Qlobal Media Forumunun dördüncü dəfə keçirilməsi göstərir ki, xarici media subyektləri ölkəmizi beynəlxalq informasiya mübadiləsinin ən mühüm platformalarından biri kimi qəbul edir. Hər il bu forumda nüfuzlu informasiya agentliklərinin nümayəndələri iştirak edərək media qarşısında duran aktual çağırışları müzakirə edir, fikir və təcrübə mübadiləsi aparırlar. Bu, Azərbaycanın qlobal media məkanına verdiyi mühüm töhfələrdən biridir".**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında **Bakı Təşəbbüs Qrupunun İcraçı direktoru Abbas ABBASOV** səsləndirib.

O bildirib ki, Bakı Təşəbbüs Qrupu üçün xüsusi əhəmiyyət kəsb edən məqamlardan biri Prezidentin Şuşa Qlobal Media Forumu çərçivəsində keçirilən media brifinqində xarici media nümayəndələrinin suallarını cavablandırarkən təşkilatın fəaliyyətini xüsusi qeyd etməsi olub.

"Konqo Demokratik Respublikasını təmsil edən jurnalistin medianın kolonializmlə mübarizədəki rolu ilə bağlı sualını cavablandıran Prezident İlham Əliyev vurğulayıb ki, kolonializmlə bağlı legitim mübarizəyə dair geniş məlumatların və hüquqi çərçivədə atılan addımların beynəlxalq ictimaiyyətə çatdırılmasında ilk təşəbbüs göstərən təşkilatlardan biri məhz Bakı Təşəbbüs Qrupudur. Dövlətimizin başçısı təşkilatın beynəlxalq qeyri-hökumət təşkilatı kimi səmərəli fəaliyyət göstərdiyini də qeyd edib.

Həm Bakı Təşəbbüs Qrupu, həm də dekolonizasiya prosesinə qoşulan bütün tərəflər adından Prezidentə minnətdarlığımı bildirirəm. Bizim üçün fəaliyyətimizin bu səviyyədə qiymətləndirilməsi ən yüksək etimadın ifadəsidir", - deyə A.Abbasov əlavə edib.

4TH SHUSHA GLOBAL MEDIA FORUM

# IV Şuşa Qlobal Media Forumu

**Regional sabitliyin əsas təminatçısına çevrilən Azərbaycan həm də qlobal dialoq mərkəzi kimi çıxış edir. Bu baxımdan xüsusi əhəmiyyət kəsb edən IV Şuşa Qlobal Media Forumu ölkəmizin qlobal informasiya məkanında artan rolunu bariz şəkildə nümayiş etdirir. Şuşadan dünyaya ünvanlanan mesajlar bir daha təsdiqləyir ki, Azərbaycan dünya gündəminin formalaşmasında söz sahibi olan, əməkdaşlığa və sabitliyə real töhfələr verən qüdrətli dövlətdir.**



## Müstəqil xarici siyasətin dəyişməz prinsipləri

### Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda beynəlxalq tərəfdaşlarla münasibətlərin formulunu bəyan etdi: əlaqələr qarşılıqlı hörmət çərçivəsində qurulmalıdır

Beynəlxalq münasibətlər sistemində dövlətlərin nüfuzu onların nümayiş etdirdikləri siyasi iradə, etibarlılıq və prinsipiallıqla ölçülür. Bu mənada Azərbaycanın milli maraqlara söykənən müstəqil xarici siyasi kursu, verdiyi sözə sadiqliyi və praqmatik diplomatiyası ölkəmizi qlobal arenada etibarlı tərəfdaş kimi mövqeləndirib. Enerji təhlükəsizliyi, beynəlxalq nəqliyyat dəhlizlərinin şaxələndirilməsi və regional əməkdaşlıq platformalarının qurulması istiqamətində Bakının atdığı addımlar məhz bu yüksək etimadın real təzahürüdür. Azərbaycan milli maraqlarına söykənən müstəqil, bərabərhüquqlu və praqmatik kursunu qətiyyətlə davam etdirir.

Rəsmi Bakı bütün tərəfdaşları ilə, o cümlədən Avropa ölkələri və beynəlxalq təsisatlarla münasibətlərdə qarşılıqlı hörmətə, daxili işlərə qarışmamaq prinsipinə və bərabərhüquqlu əməkdaşlığa xüsusi önəm verir. Bakının Avropa ölkələri ilə münasibətləri qarşılıqlı iqtisadi-strateji maraqlardan, xüsusilə enerji təhlükəsizliyi və nəqliyyat logistikasından qaynaqlanır. Azərbaycan Avropa İttifaqına üzv dövlətlərin üçdəbiri ilə strateji tərəfdaşlıq sazişlərinə malikdir. Bu, Bakının Avropa ilə əlaqələrdə daha praqmatik və effektiv olan ikitərəfli münasibətlər formatına üstünlük verdiyini göstərir.

Son aylarda Avropa İttifaqı ölkələri ilə Azərbaycan arasında əlaqələr yüksələn xətlə inkişaf edir. Lakin bu, hər zaman belə olmayıb. Əfsuslar olsun ki, bəzi qərəzli qrupların və erməni lobbisinin Avropa İttifaqının qərar qəbuletmə mexanizmlərinə təsir göstərməsi Aİ-nin regional siyasətində neytrallıq balansını pozub. Avropa İttifaqının bəzi daxili strukturlarında, xüsusilə Avropa Şurası Parlament Assambleyası və Avropa Parlamentində kök salmış anti-Azərbaycan şəbəkəsinin fəaliyyəti bu əməkdaşlığa ciddi zərbələr vurmaqdadır. Bu şəbəkənin fəaliyyəti uzun illər Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi olmuş Cozep Borelin qərəzli yanaşmasında özünü qabarıq göstərirdi. Beynəlxalq hüququ siyasi manipulyasiya vasitəsinə çevirən, korrupsiya qalmaqallarında adı hallanan Luis Moreno Okampo kimi şəxslərlə Borelin qurduğu yaxın təmaslar Avropa diplomatiyasının obyektivliyinə böyük kölgə salırdı.

Buna baxmayaraq, rəsmi Bakı konstruktiv dialoq kanallarını hər zaman açıq saxlayıb. Avropa İttifaqının yeni rəhbərliyi ilə münasibətlərin sağlam təməllər üzərində qurulması da bunun isbatıdır. Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın, Aİ-nin xarici siyasət və təhlükəsizlik məsələləri üzrə yeni ali nümayəndəsi Kaya Kallasın, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Azərbaycana səfərləri göstərdi ki, Aİ-nin rasional rəhbərliyi Azərbaycanın qlobal strateji çəkisini yaxşı anlayır və əməkdaşlığı davam etdirməyin qitə üçün faydasını dərk edir.

Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunda çıxışı zamanı Avropa təsisatları ilə münasibətləri dəyərləndirərək, sabiq rəhbər Borelin fəaliyyəti və bəzi korrupsiyalaşmış şəxslərlə əlaqələri ucbatından Avropa Komissiyası ilə əlaqələrin çətin dövrlərdən keçdiyini vurğulayıb. Dövlətimizin başçısı hazırda bu qərəzli qrupun fəaliyyətinə son qoyulduğunu, yeni rəhbərliyin Bakıya ardıcıl səfərlərinin ikitərəfli əməkdaşlığın gələcəyi üçün qarşılıqlı maraqlardan xəbər verdiyini diqqətə çatdırıb: "Yeni komissiya ilə münasibətlərimiz yaxşılaşmağa başladı. Bu, xüsusən də əlaqələrin yenidən baxılması üçün qarşılıqlı böyük marağı gördüyümüzdən sonra baş verdi və biz bunları dəstəklədik. Sizə sadəcə deyə bilərəm ki, bu ilin bir neçə ayı ərzində Brüsseldən bir sıra mühüm səfər oldu. Martda Avropa İttifaqı Şurasının prezidenti cənab Koşta, mayda Avropa diplomatiyasının rəhbəri xanım Kallas və iyulda Avropa Komissiyasının prezidenti xanım Ursula fon der Lyayen Azərbaycana gəldilər".

Lakin eyni sağlam yanaşmanı AŞPA və Avropa Parlamenti (AP) kimi platformalara şamil etmək mümkün deyil. Bu qurumlar uzun illərdir ki, anti-Azərbaycan şəbəkəsinin hazırladığı ssenarilər əsasında ölkəmizə qarşı hücumların təşkil olunduğu tribunalara çevriliblər. Xüsusilə AŞPA-da Azərbaycana qarşı qəbul edilən qətnamələrin, nümayəndə heyətimizin səsvermə hüququnun məhdudlaşdırılmasının pərdəarxası məqamları hər kəsə bəllidir. Avropalı bəzi siyasətçilər tərəfindən "insan hüquqları və demokratiya" bəhanəsi ilə pərdələnən bu addımların real səbəbi tamamilə fərqlidir. Bu qurumlarda Azərbaycana qarşı qəbul edilən qətnamələr sistemli şəkildə koordinasiya olunan anti-Azərbaycan şəbəkəsinin fəaliyyətinin məhsuludur. Səbəbi isə odur ki, məlum dairələr regionda yaranmış yeni geosiyasi reallıqları və ölkəmizin tarixi qələbəsini həzm edə bilmirlər.

Azərbaycan Prezidenti əməkdaşlığın yalnız qarşılıqlı hörmət çərçivəsində mümkünlüyünü, münasibətlərin normallaşması üçün ilk addımın qarşı tərəfdən atılmalı olduğunu qətiyyətlə tələb edib: "Əlaqələri biz pozmamışıq, onlar pozublar. Onlar bizi hər hansı legitim əsas olmadan səsvermə hüququndan məhrum etdilər. Belə olan halda nə edilməlidir? Onlar Azərbaycan nümayəndə heyətinin səsvermə hüququnu bərpa etməlidirlər və ondan sonra Azərbaycanın nümayəndə heyəti qayıdacaq".

Ölkəmizin AŞPA-da fəaliyyətini dondurması, Avropa Şurasına üzvlükdən tamamilə çıxmağı nəzərdən keçirməsi əsaslı və legitim addımdır. Çünki heç bir beynəlxalq təsisat üzv dövlətə təzyiq rıçağı olmamalı, milli suverenliyi kölgə altına salmamalıdır. Münasibətlərin gələcək perspektivində isə rəsmi Bakı dialoqa hazırdır, lakin dövlətimizin başçısının da qeyd etdiyi kimi, bu, yalnız bərabərhüquqlu müstəvidə baş tuta bilər. Azərbaycan öz yolunu müstəqil şəkildə, heç bir təzyiqə boyun əymədən davam etdirəcək qüdrətə və iradəyə malikdir.

Nəticə etibarilə rəsmi Bakının Avropa təsisatları ilə münasibətlərdə nümayiş etdirdiyi qətiyyətli və prinsipial mövqe Azərbaycanın müasir xarici siyasət fəlsəfəsinin əsas düsturunu təşkil edir. Şuşadan ucalan sülh, dialoq və əməkdaşlıq çağırışları ilə yanaşı, ölkəmizin suverenliyinə yönələn təzyiqlərə qarşı verilən diplomatik cavablar dövlətimizin heç bir təzyiqi qəbul etməyəcəyini bir daha bütün dünyaya nümayiş etdirir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

## Azərbaycanın gələcəyə baxışını beynəlxalq ictimaiyyətə təqdim edən platforma

**Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumundakı çıxışı Azərbaycanın xarici siyasətinin cari prioritetlərini və ölkəmizin beynəlxalq sistemdə özünü necə mövqeləndirdiyini əks etdirən strateji bir hadisə idi. Çıxışın ümumi məzmunu göstərir ki, Azərbaycan artıq yalnız regional proseslərdə iştirak edən dövlət deyil, eyni zamanda beynəlxalq gündəliyin formalaşmasına töhfə verən, müxtəlif platformalarda dialoqu təşviq edən və qlobal çağırışlara münasibət bildirən fəal aktor kimi söz sahibidir.**

**Milli Məclisin deputatı Pərvanə VƏLİYEVA** qəzetimizə açıqlamasında deyib ki, Prezident İlham Əliyevin diqqət çəkdiyi əsas məqamlardan biri Azərbaycanın "orta güc dövləti" kimi artan roluna dair yanaşması idi. Dövlət başçısı bu anlayışı yalnız iqtisadi və ya hərbi imkanlarla məhdudlaşdırmadı. Əksinə, vurğuladı ki, müasir beynəlxalq münasibətlərdə orta güc dövləti milli maraqlarını müstəqil şəkildə qorumağı, regional proseslərə təsir göstərməyi, tərəfdaşları bir araya gətirməyi və beynəlxalq məsuliyyət daşımağı bacaran ölkədir. "Çıxışda Qarabağ mövzusu da yeni prizmadan təqdim olundu. Əgər əvvəlki illərdə beynəlxalq auditoriya qarşısında əsas diqqət işğalın nəticələrinə yönəlirdisə, bu dəfə Prezident İlham Əliyev daha çox bərpa və quruculuq prosesinə diqqət çəkdi. Ölkə rəhbəri qeyd etdi ki, forum iştirakçıları əvvəlki səfərlərində xarabalıqları görürdülərsə, bu gün artıq yeni şəhərlərin salınmasının, yaşayış məntəqələrinin tikilməsinin və insanların doğma yurdlarına ləyaqətli qayıdışının şahidi olurlar. Bununla Azərbaycan postmünaqişə dövrünün əsas gündəliyinin təhlükəsizlik deyil, inkişaf, reinteqrasiya və dayanıqlı quruculuq olduğunu nümayiş etdirməyə çalışır", - deyə o əlavə edib.

Deputat xatırladıb ki, Azərbaycan Prezidentinin çıxışında nəqliyyat və bağlantı məsələləri də xüsusi yer tutdu. Dövlət başçısı bildirdi ki, son onillikdə yaradılmış infrastruktur və həyata keçirilən layihələr Azərbaycanın Avrasiya məkanında mühüm logistika mərkəzinə çevrilməsinə imkan verib. Qlobal geosiyasi gərginliklər və ənənəvi ticarət marşrutlarında yaranan risklər fonunda Orta dəhlizin əhəmiyyəti daha da artır. Bu kontekstdə Azərbaycanın yalnız coğrafi mövqeyindən deyil, uzunmüddətli strateji planlaşdırmadan faydalanaraq regional tranzit və ticarət əlaqələrinin əsas iştirakçılarından birinə çevrildiyi mesajı verildi.

Enerji təhlükəsizliyinin çıxışın əsas istiqamətlərindən biri olduğunu bildirərək P.Vəliyeva buna da diqqət çəkdi ki, dövlət başçısı Azərbaycanın Avropanın etibarlı enerji tərəfdaşı kimi mövqeyinin daha da gücləndiyini, qaz ixracının coğrafiyasının genişləndiyini və bərpaolunan enerji layihələrinin sürətlə inkişaf etdiyini deyib: "Bununla yanaşı, dövlət başçısı enerji əməkdaşlığının uzunmüddətli müqavilələr və qarşılıqlı etimad üzərində qurulmasının vacibliyini vurğulayaraq enerji təhlükəsizliyinin artıq təkcə iqtisadi deyil, həm də geosiyasi məsələ olduğunu diqqətə çatdırdı. Çıxışın digər mühüm istiqaməti Azərbaycanın balanslaşdırılmış xarici siyasət kursu ilə bağlı idi. Prezident İlham Əliyev Türkiyə ilə müttəfiqlik münasibətlərindən, ABŞ ilə strateji tərəfdaşlığın genişlənməsindən, Mərkəzi Asiya ölkələri ilə əlaqələrin dərinləşməsindən və islam dünyasında həmrəyliyin vacibliyindən bəhs etdi. Bu yanaşma göstərir ki, Azərbaycan beynəlxalq münasibətlərdə çoxtərəfli əməkdaşlıq və qarşılıqlı faydaya əsaslanan siyasəti prioritet hesab edir".

Deputat vurğulayıb ki, Prezident İlham Əliyev həmçinin rəqəmsal transformasiya və süni intellekti ölkənin gələcək inkişaf strategiyasının mühüm istiqaməti kimi təqdim edib. Süni intellekt sahəsində milli strategiyanın qəbul edilməsi və bu istiqamətdə institusional mexanizmlərin yaradılması Azərbaycanın iqtisadiyyatının şaxələndirilməsi və innovasiya əsaslı inkişaf modelinə keçid niyyətini göstərən mühüm mesajlardan biri idi. Bu da, təbii ki, Azərbaycanın gələcəyini yalnız enerji resursları üzərində deyil, bilik, texnologiya və innovasiya üzərində qurmaq istəyini diqqətə çatdırdı. "Çıxış boyunca diqqətçəkən digər əsas xətt isə sülh gündəliyi oldu. Dövlətimizin başçısı həm Cənubi Qafqazda, həm də Yaxın Şərqdə gedən proseslərə toxunaraq vurğuladı ki, davamlı inkişafın əsas şərti beynəlxalq hüquqa əsaslanan ədalətli və dayanıqlı sülhdür. Bu yanaşma forumun əsas mövzusu - "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" ilə də tam uzlaşır. Bu gün Azərbaycan təkcə regional təhlükəsizlik məsələlərinin iştirakçısı deyil, həm də dialoqu və qarşılıqlı etimadı təşviq edən ölkə kimi qiymətləndirilir", - deyə o bildirib.

P.Vəliyeva qeyd edib ki, ümumilikdə Prezident İlham Əliyevin çıxışı Azərbaycanın xarici siyasətində yeni mərhələnin konturlarını nümayiş etdirdi. Əsas mesaj ondan ibarət idi ki, ölkəmiz postmünaqişə dövrünü yeni inkişaf mərhələsinə çevirib, regional sabitlik, enerji və nəqliyyat təhlükəsizliyi, rəqəmsal transformasiya və beynəlxalq əməkdaşlıq sahələrində daha fəal rol oynamağa hazırdır. Bu baxımdan Şuşa Qlobal Media Forumu yalnız media nümayəndələrinin görüşü deyil, həm də Azərbaycanın beynəlxalq mövqeyini, prioritetlərini və gələcəyə baxışını beynəlxalq ictimaiyyətə təqdim edən mühüm platforma kimi çıxış edir.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Siyasi fikir, diplomatik dialoq və qlobal media mərkəzi

**Şuşa bu gün artıq təkcə Azərbaycanın mədəniyyət paytaxtı kimi deyil, regionun və dünyanın diqqətlə izlədiyi siyasi fikir, diplomatik dialoq və qlobal media mərkəzi kimi tanınır. IV Şuşa Qlobal Media Forumunda Prezident İlham Əliyevin çıxışı da bu reallığın növbəti əyani təsdiqinə çevrildi. "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusuna həsr olunmuş bu mötəbər tədbirdə dövlət başçısı bir daha aydın nümayiş etdirdi ki, Azərbaycan artıq prosesləri kənardan izləyən deyil, regionda hadisələrin istiqamətini və məcrasını birbaşa müəyyənləşdirən qüdrətli dövlətdir.**

**Milli Məclisin deputatı Kamran BAYRAMOV** qəzetimizə açıqlamasında deyib ki, Vətən müharibəsində qazanılmış tarixi zəfər və 2023-cü ildə həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində ölkəmizin suverenliyinin tam bərpa olunması Cənubi Qafqazda onilliklər boyu mövcud olmuş ədalətsiz status-kvonu kökündən dəyişib. Bu gün regionun yeni siyasi xəritəsini və inkişaf dinamikasını müəyyən edən əsas amil məhz beynəlxalq hüquqa söykənən Azərbaycan reallığıdır. Prezident İlham Əliyevin forum çərçivəsində bəyan etdiyi "Biz Cənubi Qafqazda davamlı sülhün tərəfdarıyıq və hesab edirik ki, bunun alternativi yoxdur" tezisi Azərbaycanın dəyişməz və prinsipial siyasi kursunun ana xəttini təşkil edir. "Vətən müharibəsini zəfərlə başa çatdıran ölkəmiz hazırda regionda daxili sabitliyin və iqtisadi tərəqqinin təminatçısı kimi çıxış edərək sülh müqaviləsinin imzalanması yönündə əsas təşəbbüskar tərəfdir. Rəsmi Bakı regional kommunikasiyaların açılmasını, genişmiqyaslı iqtisadi əməkdaşlığın bərpasını və Cənubi Qafqazın təhlükəsizlik məkanına çevrilməsini tam dəstəkləyir. Lakin bu sülh yalnız və yalnız qarşılıqlı hörmət, beynəlxalq hüququn ali prinsiplərinə əməl edilməsi və mövcud yeni reallıqların qarşı tərəfdə qəbul olunması üzərində bərqərar ola bilər. Bu baxımdan Ermənistanın revanşist xəyallardan tamamilə imtina etməsi regionun dinc və parlaq gələcəyi üçün ən vacib şərtlərdən biri olaraq qalır", - deyə o bildirib.

Prezident İlham Əliyevin Media Forumunda çıxışında ön plana çıxardığı əsas məsələlərdən birinin məhz milli təhlükəsizlik mövzusu olduğunu xatırladan deputat əlavə edib ki, dövlət başçısının vurğuladığı kimi, xalqımızın hüquqlarının, milli kimliyinin və dövlət müstəqilliyinin qorunması daim diqqət mərkəzində saxlanılmalıdır. Bu yanaşma müasir dövrdə Azərbaycan dövlətçiliyinin əsas prinsiplərindən biri kimi çıxış edir. Çünki XXI əsrin çağırışları göstərir ki, təhlükələr artıq yalnız hərbi sahə ilə məhdudlaşmır, həmçinin siyasi, iqtisadi, informasiya və ideoloji müstəvilərdə də özünü büruzə verir. Son illər baş verən hadisələr də təsdiqləyir ki, ölkəmizə qarşı həyata keçirilən siyasi, diplomatik və informasiya xarakterli təzyiqlər Azərbaycanın müstəqil və prinsipial siyasət kursunu dəyişdirə bilməyib.

K.Bayramov qeyd edib ki, Prezident İlham Əliyev çıxışında Zəngəzur dəhlizinin (TRIPP) əhəmiyyətini də xüsusi vurğulayıb. Bu layihə yalnız Azərbaycanın əsas hissəsini Naxçıvanla birləşdirən nəqliyyat xətti deyil, həm də türk dünyasının iqtisadi əlaqələrini gücləndirən, Orta dəhlizin imkanlarını genişləndirən və Avrasiyanın yeni logistika xəritəsinin formalaşmasına töhfə verən strateji təşəbbüsdür. Layihənin reallaşması regional iqtisadi inteqrasiyanı sürətləndirəcək, ticarət dövriyyəsini artıracaq və Cənubi Qafqazın geostrateji əhəmiyyətini daha da yüksəldəcək. Azərbaycanın bu məsələdəki mövqeyi dəyişməzdir: qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq, regional sabitlik və davamlı inkişaf.

Deputat deyib ki, forum çərçivəsində səsləndirilən fikirlər Azərbaycanın xarici siyasətində ardıcıllığın və prinsipiallığın qorunduğunu bir daha nümayiş etdirdi: "Prezident İlham Əliyev dost və qardaş dövlətlərlə münasibətlərin ölkəmizin xarici siyasət kursunun prioritetlərindən biri olduğunu qeyd etdi. Türkiyə ilə müttəfiqlik əlaqələri artıq regional təhlükəsizlik və əməkdaşlıq modelinə çevrilib. "Bir millət, iki dövlət" prinsipi bu gün siyasi, iqtisadi və hərbi sahələrdəki uğurlu tərəfdaşlıqla daha da möhkəmlənir. Pakistan, Mərkəzi Asiya ölkələri və digər strateji tərəfdaşlarla münasibətlərin inkişafı Azərbaycanın beynəlxalq mövqeyinin və nüfuzunun getdikcə gücləndiyini bir daha nümayiş etdirir. Prezident İlham Əliyev çıxışında ABŞ Prezidenti Donald Trampla münasibətlərə də toxunaraq, dövlətlər arasında qarşılıqlı hörmətə və praqmatik əməkdaşlığa əsaslanan dialoqun əhəmiyyətini vurğuladı. Bu yanaşma Azərbaycanın xarici siyasətindəki dəyişməz prinsipin bir daha təsdiqidir. Ölkəmiz bütün ölkələrlə bərabərhüquqlu münasibətlərin tərəfdarıdır və milli maraqların hər zaman prioritet olduğunu qətiyyətlə nümayiş etdirir".

K.Bayramov qeyd edib ki, forumda informasiya təhlükəsizliyi məsələsi də geniş şəkildə müzakirə olunub. Vətən müharibəsi bir daha sübut etdi ki, müasir dövrdə qələbə yalnız döyüş meydanında deyil, həm də informasiya məkanında qazanılır. Həqiqətlərin beynəlxalq ictimaiyyətə düzgün çatdırılması və dezinformasiyalara qarşı ardıcıl mübarizə milli maraqların müdafiəsinin mühüm istiqamətlərindən biridir. Qarabağ həqiqətlərinin illərlə dünya birliyinə çatdırılması istiqamətində görülən işlər nəticəsində bu gün Azərbaycanın mövqeyi beynəlxalq səviyyədə daha obyektiv qəbul olunur. Bu baxımdan Şuşada Qlobal Media Forumunun keçirilməsi xüsusi rəmzi məna daşıyır. Vaxtilə işğalın göstəricisi olan Şuşa artıq həqiqətlərin səsləndiyi və beynəlxalq dialoqun aparıldığı nüfuzlu platformaya çevrilib. Prezident İlham Əliyevin çıxışında səsləndirdiyi "Azərbaycan öz sözünün sahibidir. Biz nə demişiksə, onu da etmişik" fikri son illərdə ölkəmizin keçdiyi inkişaf yolunu və həyata keçirdiyi siyasəti ən dolğun şəkildə ifadə edir.

Deputat vurğulayıb ki, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini tam təmin etməklə yanaşı, azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və yenidənqurma işlərini də uğurla həyata keçirir: "Qarabağ və Şərqi Zəngəzurda inşa edilən müasir şəhərlər və kəndlər, beynəlxalq hava limanları, avtomobil və dəmir yolları, enerji infrastrukturu, təhsil və səhiyyə müəssisələri zəfərin davamlı inkişaf modelinə çevrildiyini nümayiş etdirir. Şuşadan verilən mesajlar bir daha təsdiqlədi ki, Azərbaycan bu gün öz gələcəyini müstəqil şəkildə müəyyənləşdirən, milli maraqlarını qətiyyətlə müdafiə edən, etibarlı tərəfdaşlıq münasibətləri quran və regionun inkişaf istiqamətlərinə təsir göstərən aparıcı dövlətdir. Bakı sülh və əməkdaşlıq təşəbbüslərini dəstəkləyir, regionda sabitliyin təmin olunmasını prioritet hesab edir. Bununla yanaşı, dövlətimizin suverenliyi, milli maraqları və müstəqilliyi ilə bağlı heç bir güzəştin mümkün olmadığı barədə qəti mövqeyini də ardıcıl şəkildə nümayiş etdirir".

K.Bayramov bildirib ki, Prezident İlham Əliyevin Şuşa Qlobal Media Forumunda verdiyi mesajlar Azərbaycanın müasir dövlətçilik fəlsəfəsinin əsas istiqamətlərini bir daha aydın nümayiş etdirir. "Biz ancaq özümüzə güvənə bilərik" tezisi ölkənin müstəqil siyasət yürütmək əzmini, milli birliyə söykənən inkişaf modelini və dövlət mənafelərinin qətiyyətlə qorunmasını özündə ehtiva edir. Eyni zamanda forum Azərbaycanın beynəlxalq informasiya məkanında daha fəal mövqe tutduğunu, həqiqətlərin dünya ictimaiyyətinə birbaşa çatdırılması istiqamətində ardıcıl və şəffaf siyasət həyata keçirdiyini göstərdi. Şuşadan verilən mesajlar bir daha təsdiqlədi ki, rəsmi Bakı milli maraqlara əsaslanan suveren kursunu bundan sonra da inamla davam etdirəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

4TH SHUSHA GLOBAL MEDIA FORUM

# IV Şuşa Qlobal Media Forumu

**Azərbaycanın mədəniyyət paytaxtı Şuşada keçirilən IV Şuşa Qlobal Media Forumu bir daha nümayiş etdirdi ki, bu şəhər artıq tarixi Zəfərimizin simvolu olmaqla yanaşı, həm də qlobal siyasi, informasiya və media dialoqunun mühüm mərkəzlərindən birinə çevrilib. Bunu növbəti dəfə sübut edən "Sülhün təşviqində medianın missiyası: həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusuna həsr olunmuş IV Şuşa Qlobal Media Forumu dünyanın müxtəlif regionlarından media rəhbərlərini, beynəlxalq təşkilatların nümayəndələrini, analitikləri və ekspertləri yenə bir araya gətirmişdi.**



## XXI əsrin çağırışlarına Şuşadan verilən cavab

### Həqiqətə söykənən informasiya siyasəti, əməkdaşlıq, etimad və sülh

Forumda 53 ölkədən 160 nümayəndə, 30 beynəlxalq xəbər agentliyi, 60-dan artıq media qurumu və 10 beynəlxalq təşkilat iştirak edirdi. Son dörd ildə isə bu platforma 81 ölkədən 600-ə yaxın media nümayəndəsini qəbul edib. Bu statistika Şuşa Forumunun beynəlxalq media təqvimində artıq nə qədər mühüm və özünəməxsus yer tutduğunu göstərir.

Forumun ən mühüm hissəsi Azərbaycan Prezidenti İlham Əliyevin dünyanın aparıcı media nümayəndələrinin suallarını açıq formatda cavablandırması oldu. Bir neçə saat davam edən dialoq zamanı dövlətimizin başçısı Azərbaycanın xarici siyasəti, regional təhlükəsizlik, enerji diplomatiyası, ABŞ, Avropa İttifaqı, Türkiyə, Yaxın Şərq, Orta dəhliz, süni intellekt, media, qlobal geosiyasi proseslər və s. barədə ətraflı fikirlərini bölüşdü.

### Həqiqətin nümayiş etdirildiyi beynəlxalq tribuna

Prezident İlham Əliyev forumun əhəmiyyətini izah edərkən qeyd etdi ki, əsas məqsəd müxtəlif ölkələrdən gələn media nümayəndələrinin Qarabağda aparılan bərpa-quruculuq işlərini öz gözləri ilə görməsi, reallığı olduğu kimi dünyaya çatdırmasıdır. Əgər ilk forumlarda iştirak edən qonaqlar dağıdılmış şəhərlərlə tanış olurdularsa, bu gün artıq yeni yaşayış məhəllələrini, məktəbləri, yolları və doğma torpaqlarına qayıdan sakinləri görürlər. Bu, Azərbaycanın uzun illər ərzində qarşılaşdığı dezinformasiyaya ən tutarlı cavablardandır. Qarabağ haqqında həqiqət artıq təkcə Azərbaycanın təqdim etdiyi məlumatlarla deyil, dünyanın nüfuzlu media qurumlarının öz müşahidələri ilə beynəlxalq auditoriyaya çatdırılır.

Forumda verilən ilk suallardan biri Azərbaycanın Avrasiya nəqliyyat sistemində rolu barədə oldu. Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan son onillikdə məqsədyönlü şəkildə fiziki infrastruktur yaradıb, qonşularla etibarlı münasibətlər qurub və bunun nəticəsində Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən əsas tranzit mərkəzlərindən birinə çevrilib.

Bu gün Yaxın Şərqdə və digər regionlarda baş verən böhranlar fonunda Azərbaycanın coğrafi mövqeyi strateji xarakter alıb. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının genişləndirilməsi, gəmiqayırma sənayesinin inkişafı, Orta dəhlizin gücləndirilməsi və Mərkəzi Asiya ilə Avropa arasında əlaqələrin genişlənməsi ölkəmizin beynəlxalq əhəmiyyətini daha da artırır.

Azərbaycan Prezidenti bildirdi ki, hazırda biz öz imkanlarımızı artırırıq: "Dəniz ticarət limanımıza gəldikdə, hazırda o, 15 milyon ton imkanı ilə Xəzərdə ən iri limandır və onun həcmi 25 milyon tonu təmin etmək üçün artırılacaq. Hazırda biz Avropaya və geriyə yükləri daşımaq üçün öz gəmiqayırma zavodumuzda 10 gəmini tikirik. Mərkəzi Asiya ölkələri və Avropa Komissiyası ilə sıx münasibətlərimiz hər iki istiqamətin mərkəzində dayanır və bu, həqiqətən böyük üstünlük yaradır. Əlbəttə, Azərbaycanın hər zaman əməkdaşlığa, qonşularımızı narahat edən məsələlərin həllinə yönələn siyasəti narahatlıqlarımızı aradan qaldırmağa və mühit yaratmağa imkan verir".

Bu yanaşma Azərbaycanın artıq yalnız enerji ixrac edən dövlət deyil, həm də Avrasiyanın logistika və kommunikasiya qovşaqlarından biri kimi çıxış etdiyini göstərir.

### Regional sabitliyin əsas dayağı

Azərbaycan-Türkiyə münasibətlərinə dair suala cavabında Azərbaycan Prezidenti ölkələrimiz arasındakı münasibətləri dünyada analoqu olmayan əməkdaşlıq modeli kimi xarakterizə etdi. 2021-ci il iyunun 15-də Azərbaycanla Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsi münasibətləri keyfiyyətcə yeni mərhələyə - müttəfiqlik səviyyəsinə yüksəldib. Türkiyə və Azərbaycan bu gün yalnız dost və qardaş deyil, həm də bir-birinin təhlükəsizliyinə zəmanət verən strateji müttəfiqlərdir. Prezident bu modeli region ölkələri üçün nümunə kimi qiymətləndirdi. "Biz bir yerdə olanda daha güclüyük. Bu, həmçinin regional sabitliyin və əməkdaşlığın, o cümlədən indicə qeyd etdiyim bağlantılar məsələsinin mühüm meyarıdır. Bu, təhlükəsizliyin mühüm meyarıdır..."

Forumda Avropa İttifaqı ilə münasibətlər də geniş müzakirə olundu. Prezident İlham Əliyev bildirdi ki, əvvəlki Avropa Komissiyası dövründə münasibətlərdə müəyyən problemlər yaşansa da, təzə rəhbərliklə əməkdaşlıq yeni mərhələyə qədəm qoyub. Bu il Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın, Avropa İttifaqının xarici siyasət rəhbəri Kaya Kallasın və Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin Azərbaycana səfərləri bunun göstəricisidir.

Eyni zamanda Prezident Avropa Şurası Parlament Assambleyası ilə bağlı Azərbaycanın mövqeyini ətraflı izah etdi. Vurğuladı ki, Azərbaycanın nümayəndə heyətinə qarşı tətbiq olunan məhdudiyyətlər ədalətsiz idi və münasibətlərin normallaşması üçün ilk addımı məhz həmin təşkilat atmalıdır: "İki ildən artıqdır ki, ayrı-seçkiliyə məruz qalırıq. Sizə açıq deyə bilərəm ki, biz hökumətimizdə AŞPA-da üzvlüyümüzün nəinki dondurulmasını, həmin təsisatdan tam çıxmağı da ciddi şəkildə nəzərdən keçiririk. Yəni bütövlükdə Avropa Şurasından çıxmağımızı nəzərdə tuturuq.

Lakin Avropa Şurasının baş katibi cənab Alen Berse mənə yaxınlaşaraq bunu etməməyi xahiş etdi ki, vəziyyətin yaxşılaşdırılması üçün çıxış yolu tapılsın və mən bunu hələlik dayandırdım. Lakin əfsuslar ki, həmin vaxtdan etibarən heç nə baş vermir".

Cənab İlham Əliyev söylədi ki, AŞPA-dan Azərbaycana qarşı çox müəmmalı və ultimatum formasında bəzi tələblər var ki, onlar tamamilə qəbuledilməzdir. "Əlaqələri biz pozmamışıq, onlar pozublar. Onlar bizi hər hansı legitim əsas olmadan səsvermə hüququndan məhrum etdilər. Belə olan halda nə edilməlidir? Onlar Azərbaycan nümayəndə heyətinin səsvermə hüququnu bərpa etməlidirlər və ondan sonra Azərbaycanın nümayəndə heyəti qayıdacaq. Bu, dəqiqliklə dediyim kimi olmalıdır, əksinə olmalı deyil!"

Dövlətimizin başçısı onu da qeyd etdi ki, biz onlara qarşı heç bir səhv addım atmamışıq. Həmin ədalətsiz hərəkəti onlar ediblər və buna görə onlar da cəsarət tapıb geriyə çəkilməlidirlər, böyük səhvə yol verdiklərini etiraf etməlidirlər. "Bilirsiniz, mən məsələ ilə bağlı öz fikrimi dəfələrlə bildirmişəm. Əgər Azərbaycan Avropa Şurasını tam tərk edərsə, ölkədə bunu hətta heç kəs hiss etməyəcək. Yəni orada olmaq və ya olmamaq çox şeyi dəyişmir", - deyə Prezident İlham Əliyev bildirdi.

### ABŞ ilə münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib

Forumun ən diqqətçəkən mövzularından biri isə Azərbaycan-ABŞ münasibətləri ilə bağlı oldu. Cənab İlham Əliyev 907-ci düzəlişin artıq tamamilə köhnəldiyini bildirərək onun tam ləğvinin vacibliyini vurğuladı. Dövlətimizin başçısı qeyd etdi ki, Azərbaycan artıq Ermənistanla bütün tranzit məhdudiyyətlərini aradan qaldırıb, hətta bu ölkəyə enerji məhsullarının ixracına başlayıb və belə şəraitdə həmin düzəlişin saxlanılması məntiqsizdir.

Prezident ABŞ lideri Donald Tramp administrasiyası ilə münasibətləri tarixdə ən yüksək səviyyə kimi qiymətləndirdi. Azərbaycanla ABŞ arasında Strateji Tərəfdaşlıq Bəyannaməsinin imzalanması, iqtisadiyyat, rəqəmsal transformasiya, enerji təhlükəsizliyi və müdafiə sahələrində yaradılan birgə işçi qrupları iki ölkə arasında münasibətlərin yeni mərhələsini formalaşdırır. Bu gün Azərbaycan strateji tərəfdaşlıq haqqında Bəyanatın bütün müddəalarının icrası üzərində fəal işləyir.

Hazırda Azərbaycan "orta güc" mövqeyinə malikdir və belə bir anlayış yalnız iqtisadi göstəricilərlə məhdudlaşmır. Bura milli maraqları qorumaq, hərbi gücə malik olmaq, regional proseslərə təsir göstərmək, beynəlxalq gündəliyin formalaşmasına töhfə vermək, məsuliyyətli siyasət yürütmək daxildir. Azərbaycanın həm hərbi, həm diplomatik, həm də siyasi imkanları artıq bu statusu əsaslandırır. Dövlətimizin başçısı dedi: "Müdafiə qabiliyyəti, özü də təkcə hərbi paradda deyil, döyüş meydanında göstərilmiş həmin qabiliyyət vacibdir. Əlbəttə, fikrimcə, mühüm meyarlardan biri hüdudlarınızdan kənarda baş verən hadisələrə təkcə bir sözünüzlə və ya bəyanatınızla təsir göstərmək qabiliyyəti də olmalıdır. Azərbaycan bunu dəfələrlə nümayiş etdirib. Eyni zamanda bu terminologiyaya aid edilə biləcək meyarlardan biri də məsuliyyətdir. Ölkənizin daxilində və müəyyən dərəcədə bütöv regionda baş verənlərə görə olan məsuliyyətdir".

Verilən suallarda enerji təhlükəsizliyi məsələləri də xüsusi yer tutdu. Cənab İlham Əliyev bildirdi ki, Azərbaycan artıq boru kəmərləri vasitəsilə 16 ölkəyə qaz ixrac edir və onların 14-ü Avropa dövlətidir. Almaniya və Avstriyanın da bu sıraya qoşulması Azərbaycanın Avropanın enerji təhlükəsizliyində rolunu daha da artırır. Bundan əlavə, 2032-ci ilə qədər ölkədə 8 giqavat bərpaolunan enerji istehsalı planlaşdırılır. Bu isə daxili qaz istehlakını azaltmaqla ixrac imkanlarını daha da genişləndirəcək. Sual-cavabda həmçinin Avropa ilə uzunmüddətli müqavilələrin və yeni qaz nəqli infrastrukturunun yaradılmasının vacibliyi vurğulandı.

### Regional sülh və əməkdaşlıq Azərbaycanın əsas çağırışlarıdır

Tədbir zamanı Azərbaycan Prezidenti ölkəmizin bütün qonşularla sülh şəraitində yaşamaq istəyini bildirdi. Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan 30 il müharibə yaşamış ölkə kimi sülhün qiymətini yaxşı bilir. Onun sözlərinə görə, istənilən münaqişənin həlli beynəlxalq hüquqa əsaslanmalıdır və silahlı qarşıdurmalar vaxtında dayandırılmalıdır.

Prezident İlham Əliyevin forumda Azərbaycan xalqına müraciətləri də səsləndi. Dövlətimizin başçısı dedi ki, işğal dövründə müraciətim keçmiş köçkünlərlə çoxsaylı görüşlər əsnasında ondan ibarət idi ki, onlar ümidlərini itirməsinlər: "Bizim xalqımız həm işğal görüb, həm dağıntılar görüb, həm Zəfər görüb, həm də bu gün bu bərpa və dirçəliş dövrünü həm görür, həm də bunun iştirakçısıdır. Ona görə bu sözlərim gələcək nəsillərə, gənc nəslədir ki, Azərbaycan xalqı əbədi, yəni qürurlu xalq kimi, qalib xalq kimi yaşasın, milli kimlik hər şeydən üstün olmalıdır, milli ləyaqət hər şeydən üstün olmalıdır. Məğlub ola bilərsən, - indi olur belə hadisələr, - amma gərək heç vaxt əyilməyəsən, sınmayasan. Heç vaxt işğalçı ilə razılaşmayasan, işğalçının diktəsi ilə oturub-durmamalısan. Lazım olsa, ölsən də belə gərək ləyaqətlə yaşayasan və öz övladlarına, nəvələrinə, nəticələrinə bunu aşılayasan", - deyə Prezident İlham Əliyev vurğuladı.

Forumun əsas mövzusu olan medianın rolu da ölkə liderinin suallara cavablarında xüsusi yer tutdu. Dövlətimizin başçısı bildirdi ki, informasiya müharibələrinin geniş vüsət aldığı dövrdə media yalnız xəbərləri çatdırmaqla kifayətlənməməli, həqiqətin bərpasına, etimadın yaradılmasına və xalqlar arasında dialoqun inkişafına xidmət etməlidir. Bu baxımdan Şuşa Qlobal Media Forumu müxtəlif baxışların müzakirə olunduğu, qarşılıqlı etimadın möhkəmləndiyi, ən mühümü isə həqiqətlərin axtarıldığı beynəlxalq platforma kimi də son dərəcə əhəmiyyətlidir.

Prezident İlham Əliyevin IV Şuşa Qlobal Media Forumu çərçivəsində suallara verdiyi əhatəli cavablar Azərbaycanın xarici siyasət prioritetlərini, regional liderlik iddialarını, enerji və nəqliyyat strategiyasını, sülh gündəliyini və beynəlxalq münasibətlərə baxışını bir daha aydın şəkildə ortaya qoydu. Ölkə rəhbərinin irəli sürdüyü tezislər göstərdi ki, Azərbaycan yeni geosiyasi reallıqlarda təkcə regionun deyil, Avrasiya məkanının əsas aktorlarından biri kimi çıxış edir.

Şuşadan dünyaya ünvanlanan mesaj aydındır: həqiqətə söykənən informasiya siyasəti, beynəlxalq əməkdaşlıq, qarşılıqlı etimad və sülh XXI əsrin ən mühüm çağırışlarına veriləcək ən doğru cavabdır. Məhz buna görə IV Şuşa Qlobal Media Forumu Azərbaycanın qlobal dialoq və əməkdaşlıq strategiyasının növbəti mühüm mərhələsi kimi tarixə düşəcək.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

## Azərbaycan qlobal enerji təhlükəsizliyinin təminatında mühüm iştirakçıdır

**Şuşada keçirilən IV Qlobal Media Forumu "Sülhün təşviqində medianın missiyası: Həqiqətin bərpası və etimadın yenidən qurulması" mövzusuna həsr olunsa da, tədbirdə iqtisadi məsələlərdən də ətraflı bəhs edilmişdir. Prezident İlham Əliyevə verilən suallar iqtisadiyyatın bir sıra sahələrinə aid olmuş və toxunulan mövzu cavablarda öz geniş əksini tapmışdır.**

Ölkəmizin beynəlxalq nəqliyyat dəhlizlərindəki rolu, Qarabağda və Şərqi Zəngəzurda gedən geniş quruculuq, rəqəmsal transformasiyanın və süni intellektin inkişafı... Bunlar ətrafında söhbət gedən mövzuların yalnız bir qismidir. Eyni zamanda forum boyu əsas mövzulardan biri enerji sektoruna aid olmuşdur. Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayenin və Avropa İttifaqı Şurasının prezidenti Antonio Koştanın ölkəmizə son səfərlərinin hələ də diqqət mərkəzində olduğu bildirilmişdir.

"Euronews" telekanalının Yaxın Şərq, Mərkəzi Asiya və Cənubi Qafqaz üzrə idarəedici redaktoru Ceyn Vizerspun Azərbaycanın artıq 16 ölkəyə qaz tədarük etdiyini, onlardan 14-nün Avropa ölkəsi olduğunu vurğulamışdır.

Cari ildən etibarən Almaniya və Avstriyaya qaz ixracına başladığımız və bunun qlobal, xüsusilə də Avropa qaz bazarında mövqeyimizi genişləndirməyə yönəlmiş ümumi strategiyamızın tərkib hissəsi olduğu nəzərə çatdırılmışdır. Dövlətimizin başçısı qeyd etmişdir ki, Avropa bazarı yüksək qiymətlərin formalaşdığı, bizim üçün premium hesab edilən bazardır. Buna görə də ixrac imkanlarımızı daha da genişləndirməkdə olduqca maraqlıyıq. Hazırda Azərbaycan boru kəmərləri vasitəsilə 16 ölkəyə qaz tədarük edir və boru kəməri ilə qaz ixracının coğrafi əhatəsinə görə dünyada birinci yerdədir.

Prezidentimiz qaz ixracından danışarkən mühüm bir məsələyə də toxunmuşdur. Bu da ixrac infrastrukturunun genişləndirilməsi məsələsidir: "Rusiya-Ukrayna müharibəsi başlayandan sonra Azərbaycan qazına tələbat kəskin şəkildə artdı. Avropa Komissiyası bizə müraciət edərək hasilatı mümkün qədər tez artırmaq üçün əlimizdən gələni etməyimizi xahiş etdi və biz bunu etdik. Yeri gəlmişkən, Avropa Komissiyasının prezidentinin Azərbaycana son səfəri zamanı da qeyd olundu ki, 2022-ci ildən bəri Avropa İttifaqına qaz tədarükümüzü 65 faiz artırmışıq və bu göstərici gələcəkdə də artacaq. Buna görə də mövcud qaz nəqli infrastrukturunun genişləndirilməsi zəruridir. Lakin bu istiqamətdə əsas maneə Avropa İttifaqının "yaşıl gündəliy"idir. Avropa maliyyə institutları faydalı qazıntı yanacaq layihələrinin maliyyələşdirilməsində maraqlı deyillər. Bu baxımdan əsas sual ondan ibarətdir ki, boru kəmərlərinin ötürmə qabiliyyətinin artırılması üçün zəruri maliyyə vəsaiti haradan cəlb edilməlidir".

Digər vacib bir məsələ də uzunmüddətli müqavilələrin bağlanmasıdır. Prezident İlham Əliyev: "Bizim uzunmüddətli müqavilələrə ehtiyacımız var. Çünki hasilatı əhəmiyyətli dərəcədə artırmaq üçün irihəcmli investisiyalar tələb olunur. Əgər müəyyən vaxtdan sonra bizə "təşəkkür edirik, artıq qazınıza ehtiyacımız yoxdur" deyilərsə, onda biz nə edəcəyik?", - deyə bəyan etmişdir.

İndi Azərbaycan heç nəzərdə tutmadığı bir bazara - Suriyaya qaz ixracına başlayıb. Oradan yüksək tələbatın mövcud olduğu qonşu bazarlara çıxış imkanları da var.

Ölkəmizdə bərpaolunan enerji sahəsində də genişmiqyaslı işlər həyata keçirilir. Bu enerji mənbələri artıq xeyli həcmdə qaza qənaət etməyə imkan verir və gələcəkdə həmin göstərici daha da artacaq. Belə ki, 2032-ci ilədək bərpaolunan enerji mənbələri üzrə 8 giqavat generasiya gücünə çatmaq hədəflənib. Bu isə hazırda elektrik enerjisinin istehsalında istifadə edilən bir neçə milyard kubmetr qaza qənaət etməyə imkan verəcək.

Ümumiyyətlə isə gündəlikdə kifayət qədər geniş məsələlər durur. Bunları sıralamaq çətindir, çünki hər biri vacibdir. İstər işğaldan azad edilmiş ərazilərimizin bərpası və yenidən qurulmasının başa çatdırılması olsun, istərsə də yeni nəqliyyat marşrutlarının və bağlantı imkanlarının formalaşması, rəqəmsal transformasiyanın və süni intellektin inkişafı...

"Şübhəsiz ki, enerji təhlükəsizliyi bundan sonra da qlobal gündəliyin əsas mövzularından biri olaraq qalacaq", - deyə dövlətimizin başçısı bildirmişdir.

Ölkəmizdə bu sahədə artıq böyük işlər görülüb və işlər yekunlaşıb. Lakin qeyd etdiyim kimi, həm ənənəvi enerji resurslarımıza, həm də bərpaolunan enerji mənbələrinə tələbat artmaqda davam edəcək. Bizim bərpaolunan enerji sahəsində çox böyük potensialımız var. Təkcə Qarabağda ümumi gücü 340 meqavat olan su-elektrik stansiyaları artıq istifadəyə verilib. Bundan əlavə, növbəti bir il ərzində 340 meqavat gücündə günəş-elektrik stansiyalarının tikintisi də başa çatdırılacaq. Buna görə, elektrik enerjisinin Avropa bazarına ixracı gündəliyimizin əsas istiqamətlərindən biridir. Çünki Avropa bazarının əlavə enerji resurslarına ehtiyacı var və bizim əlavə imkanlarımız var".

"Yaşıl enerji"nin ixracı barədə söz düşəndə 2024-cü ildə Bakıda imzalanmış müqavilə xatırlanmışdır. Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri Xəzər dənizinin dibi ilə enerji kabelinin çəkilməsinə dair həmin müqaviləni COP29-un davam etdiyi günlərdə imzalamışdılar. Artıq layihənin texniki-iqtisadi əsaslandırması hazırlanır.

Yeri gəlmişkən, Qazaxıstanın nümayəndəsinin sualını cavablandırarkən Prezident İlham Əliyev bildirmişdir ki, bu ölkə ilə Azərbaycanı, həmçinin geniş coğrafi ərazini birləşdirəcək və rəqəmsallaşma, süni intellekt, verilənlər bazaları və sairə ilə bağlı proseslərin inkişafında mühüm rol oynayacaq fiber-optik kabelin tikintisi üzərində ikitərəfli əməkdaşlıq edirik. Qazaxıstandan müəyyən həcmdə neft Azərbaycan ərazisindən nəql olunmağa başlayıb.

Şuşa Qlobal Media Forumunun iştirakçıları ölkəmizin iqtisadi inkişafını əyani görmək imkanı da qazanırlar. Onlar bunu məmnuniyyətlə dilə də gətirirlər. Rumıniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvü, hüquqşünas və senator Kristian Auqustin Nikolesku Taqalisin sözləri onların bir çoxunun fikirlərinin demək olar ki, eynidir: "Azərbaycana üçüncü dəfədir səfər edirəm və ötən il eyni vaxtda mənə gözəl ölkənizin ən yüksək və ən gözəl dağ zirvəsinə - Heydər Zirvəsinə qalxmaq nəsib oldu. Nəinki Azərbaycanın təbii gözəlliyi, həmçinin ölkənizin innovasiya, rəqəmsal idarəçilik və bərpaolunan enerji kimi bir çox sahədə əldə etdiyi gözəl tərəqqi mənə xoş təəssürat bağışlayır. Son illər ərzində Azərbaycan regional və beynəlxalq səviyyədə öz strateji mövqeyini inkişaf etdirmək, onu gücləndirmək kimi maraqlı prosesdən keçdi".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Mənəvi qayıdışdan Böyük qayıdışa

**Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasi rəhbərliyə gəlişindən ötən 57 ilə bu gündən yanaşdıqda, həmin dövrdə həyata keçirilən tədbirlərin sovet idarəçilik çərçivəsini aşaraq, gələcək müstəqil dövlətin ideoloji, iqtisadi və mənəvi sütunlarının inşasına yönəldiyi aydın görünməkdədir.**

Özlüyündə bu fəaliyyət milli-mənəvi dəyərlərin qorunmasından başlayaraq, insan kapitalının formalaşdırılmasına, nəhayət, müstəqilliyin iqtisadi və hərbi-siyasi zemininin yaradılmasına qədər hər bir addımı məqsədyönlü və sistemli şəkildə bir-birinə bağlanan strateji halqalardan ibarət olmuşdur.

Totalitar ideologiyanın milli kimlikləri assimilyasiyaya məruz qoyduğu ən mürəkkəb dövrlərdə Heydər Əliyev xalqın tarixi yaddaşını özünə qaytarmaq üçün bənzərsiz siyasi iradə nümayiş etdirmişdir. O, dərindən dərk edirdi ki, Azərbaycanın siyasi gələcəyinin uğurunun mütləq şərti ilk növbədə dilin, mədəniyyətin və tarixi irsin toxunulmazlığının təmin olunması ilə bağlıdır.

Odur ki, Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyaya daxil edilməsinin milli şüurun oyanışına güclü təkan verdiyini bu gün hər kəs vurğulamaqdadır.

Milli ədəbi irsimizin görkəmli mütəfəkkirlərinin beynəlxalq səviyyədə təbliği, paytaxtın mərkəzində onlara abidələrin ucaldılması və repressiya qurbanı olanlarının isə tam reabilitasiyasına yönəlmiş tədbirlər milli ləyaqətin bərpası və cəmiyyəti öz tarixi köklərinə bağlayan vacib ideoloji "Qayıdış" aktları idi.

Dahi Liderimiz öz tarixi kimliyini dərk edən xalqa milli suverenliyini təmin etmək üçün savadlı, geniş dünyagörüşlü kadrların yetişdirilməsinin lazım olduğunu nəzərə alaraq diqqətini insan kapitalının inkişafına yönəltdi və gələcək müstəqil dövlətin intellektual potensialının güclü bünövrəsini formalaşdırdı.

Cəmiyyətin bütün sferaları üçün mühəndislər, həkimlər, hüquqşünaslar və idarəçilər ordusunun yetişdirilməsi respublikanın kadr ehtiyatını görünməmiş səviyyəyə qaldırdı. Onun tərəfindən intensiv və şaxələnmiş halda reallaşdırılan "təhsil strategiyası"nın ən mühüm və müstəqilliyə hesablanmış ən cəsarətli istiqaməti isə hərbi kadrların hazırlığı oldu.

İllər sonra müstəqil Azərbaycanın Milli Ordusunun onurğa sütununu təşkil edəcək peşəkar zabit korpusunun yaranması üçün strateji addımlar atıldı.

Milli qüruru bərpa edilmiş, intellektual zəmini möhkəmləndirilmiş xalqın tam müstəqilliyi üçün vacib olan digər halqa isə güclü iqtisadi təməl idi. Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən irimiqyaslı iqtisadi islahatlar sayəsində Azərbaycan qısa müddətdə qabaqcıl sənaye və texnologiya mərkəzinə çevrildi. Yaradılan bu nəhəng iqtisadi potensial və modernləşdirilmiş infrastruktur SSRİ dağıldıqdan sonra respublikanın öz ayaqları üzərində dura bilməsi, bərpa edilən müstəqilliyin qorunub saxlanması üçün həyati əhəmiyyət daşıyan xilasedici maddi bazanı təmin edəcəkdi...

Bütün bu çoxşaxəli və uzaqgörən hazırlıq prosesinin arxasında, əslində, Azərbaycanı gözləyən tarixi sınaqlara, xüsusilə də sovet rejiminin gələcək üçün məqsədyönlü şəkildə bünövrəsini qoyduğu "Qarabağ düyünü"nə qarşı milli müqavimət immunitetinin yaradılması dayanırdı. Heydər Əliyev hələ o vaxtdan ölkəmizə yönələcək məkrli cəhdləri, ərazi bütövlüyümüzə qarşı hazırlanan geosiyasi tələləri görür və xalqı bu həlledici savaşa həm mənəvi, həm iqtisadi, həm də hərbi cəhətdən hazırlayırdı.

Təsadüfi deyildir ki, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarının müharibə meydanlarındakı misilsiz fədakarlığı, İlham Əliyevin Ali Baş Komandanlığı dövründə yaradılmış müasir ordu bölmələrinin qəhrəmanlığı və öz sərvətlərimiz hesabına şaxələndirilmiş güclü iqtisadiyyatın təmin etdiyi hərbi qüdrət də məhz bu irsdən güc aldı. Bu sarsılmaz təməllər üzərində ucalan və Heydər Əliyev siyasi kursunu məharətlə davam etdirən Prezident İlham Əliyevin qətiyyəti sayəsində əsası onilliklər əvvəl qoyulmuş Qarabağ düyünü birdəfəlik kəsilib atıldı. Ölkəmizi daimi asılılıqda saxlamağa çalışan beynəlxalq şəbəkələrin planları tamamilə iflasa uğradıldı.

Bu gün İlham Əliyevin Slovakiya Prezidentini məhz Şuşada qarşılaması, ali səviyyəli beynəlxalq danışıqların Qarabağın tacında aparılması, sadəcə, bir diplomatik protokol hadisəsi olmayıb, Heydər Əliyevin 57 il əvvəl cızdığı böyük xilaskarlıq və dövlətçilik missiyasının hazırkı dünya nizamsızlığı və ziddiyyətli qlobal şərtləri şəraitində qətiyyət və inamla davam etdirilməsinin əyani təntənəsidir.

Bir vaxtlar imperiya mərkəzlərində Azərbaycanı zəif salmaq, suverenliyini buxovlamaq üçün qurulan Qarabağ tələsi darmadağın edilmiş, Şuşa isə işğalın xarabalıqlarından qurtularaq Avropa dövlət başçılarının qəbul edildiyi, qlobal siyasətin müzakirə edildiyi diplomatik qüdrət mərkəzinə çevrilmişdir.

Beləliklə, 1969-cu ildən başlanan, mürəkkəb siyasi labirintlərdən və təzyiqlərdən keçərək bu gün Şuşa zirvəsinə yüksələn bu şərəfli dövlətçilik yolu bütün dünyaya sübut edir ki, tarixi yaddaşına, yüksək insan kapitalına və qətiyyətli siyasi iradəyə söykənən Azərbaycan xalqının müstəqilliyini və ərazi bütövlüyünü heç bir qüvvə sarsıda bilməz.

Ötən əsrin ikinci yarısından Heydər Əliyevin bünövrəsini qoyduğu o "Mənəvi qayıdış" prosesi bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Şuşada və azad edilmiş bütün ərazilərimizdə gerçəkləşən "Böyük qayıdış"la tarixi bir vəhdət təşkil edir. Əgər illər öncə xalqın öz tarixi köklərinə, ana dilinə və milli qüruruna ideoloji qayıdışı qətiyyətlə təmin edilməsəydi, bu gün doğma yurdlarımıza - Qarabağa və Şərqi Zəngəzura müzəffər, əbədi qayıdışımız bəlkə də mümkün olmazdı.

Cəmiyyətin mənəvi və intellektual bərpasından ərazi bütövlüyümüzün bərpasına qədər uzanan bu şanlı ardıcıllıq sübut edir ki, "Mənəvi qayıdış"la təməli qoyulan yenilməz milli ruh "Böyük qayıdış"la özünün ən yüksək zirvəsinə çatmışdır.

Bu gün Şuşada dalğalanan bayrağımız, yenidən qurulan şəhər və kəndlərimiz, eləcə də oradan dünyaya verilən qlobal diplomatik mesajlar məhz bu iki böyük qayıdışın möhtəşəm rəmzi, həm də əbədi təminatıdır.

***Bahar MURADOVA,***
***Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri***

# 57 illik tarixin bir məqamı



## Bu, milli dirçəlişin başlanğıcıdır

**Bəzən təqvimdə adi bir gün kimi görünən bir tarix sonradan bütöv bir xalqın taleyini dəyişən dönüş nöqtəsinə çevrilir. Belə günlərdə baş verən hadisələr yalnız dövrün siyasi mənzərəsini dəyişmir, gələcək onilliklərin istiqamətini müəyyənləşdirir, millətin özünəinamını formalaşdırır, dövlətçilik düşüncəsinin əsasını yaradır.**

Azərbaycanın müasir tarixində 1969-cu il iyulun 14-ü məhz belə günlərdən biridir. Həmin gün Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin Plenumunda Heydər Əliyevin birinci katib seçilməsi ilk baxışda Sovet İttifaqının respublikalarından birində baş vermiş adi kadr dəyişikliyi təsiri bağışlaya bilərdi. Lakin zaman göstərdi ki, bu hadisə təkcə rəhbər dəyişikliyi deyildi, həm də Azərbaycanın inkişaf modelini dəyişən, milli düşüncəyə yeni nəfəs gətirən, gələcək müstəqil dövlətin iqtisadi, intellektual və idarəçilik əsaslarını formalaşdıran böyük tarixi dönüş nöqtəsi oldu. O dövrdə Azərbaycan keçmiş SSRİ-nin əsasən aqrar respublikalarından biri hesab olunurdu. Sənayenin inkişaf tempi zəif, müasir istehsal sahələri məhdud idi, yüksəkixtisaslı milli kadrların sayı isə respublikanın gələcək inkişafı üçün kifayət etmirdi. Mövcud potensialdan səmərəli istifadə olunmur, Azərbaycanın zəngin təbii və insan resursları ümumittifaq planlaşdırmasının kölgəsində qalırdı. Belə mürəkkəb şəraitdə respublika rəhbərliyinə gələn Heydər Əliyev hadisələrə təkcə sovet məmuru kimi deyil, milli maraqları dərindən anlayan azərbaycanlı dövlət xadimi kimi yanaşdı. Ümummilli Liderin həyata keçirdiyi siyasətin mərkəzində yalnız cari təsərrüfat məsələləri yox, xalqın gələcəyi dayanırdı. Məhz buna görə də fəaliyyətinin ilk günlərindən iqtisadi inkişafla yanaşı, milli özünüdərk, milli kadr hazırlığı, elmi potensialın gücləndirilməsi və Azərbaycanın gələcək dövlətçilik imkanlarının genişləndirilməsi paralel istiqamətlər kimi götürüldü.

Bu baxımdan 14 iyul 1969-cu il Azərbaycanın yeni inkişaf fəlsəfəsinin başlanğıcı kimi tarixə yazıldı. Bu tarixdən sonra respublikada həyata keçirilən islahatların əsas məqsədi təkcə həmin günün problemlərini həll etmək deyildi. Əsas məqsəd Azərbaycanın gələcəyini quracaq intellektual, iqtisadi və peşəkar dayaqları yaratmaq idi. Sonrakı illərdə baş verən hadisələr də göstərdi ki, bu siyasət təsadüfi qərarların deyil, uzaqgörən strateji baxışın nəticəsi olub.

Ümummilli Lider yaxşı anlayırdı ki, xalqın gələcəyini yalnız təbii sərvətlər deyil, savadlı insanlar, güclü elm, peşəkar idarəçilik və milli düşüncəyə malik kadrlar müəyyən edir. Ölkənin rəhbəri Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində rəhbər vəzifələrdə çalışdığı illərdə respublikanın ictimai-siyasi həyatını yaxından izləyir, milli maraqlara həssas yanaşması ilə seçilirdi. Tarixi araşdırmalarda qeyd olunur ki, həmin dövrdə Azərbaycan ziyalılarının, elm və mədəniyyət xadimlərinin fəaliyyətinə münasibətdə daha ölçülü və məsuliyyətli yanaşmanın formalaşmasında Ulu Öndərin idarəçilik üsulu mühüm rol oynayıb. Məhz buna görə də sonralar bir çox tanınmış ziyalı Heydər Əliyevin milli mədəniyyətə və Azərbaycan ziyalılarına göstərdiyi diqqəti xüsusi minnətdarlıqla xatırlayırdı. Bu, yalnız ayrı-ayrı insanlara qayğı deyildi, eyni zamanda milli intellektin qorunmasına yönəlmiş strateji baxış idi. Heydər Əliyev başa düşürdü ki, xalqın ziyalısı zəifləyərsə, gələcəyi də zəifləyər, elmi düşüncə susdurularsa, inkişaf dayanacaq, milli mədəniyyət sıxışdırılarsa, milli kimlik də zədələnəcək. Buna görə də Azərbaycan alimlərinin, yazıçılarının, müəllimlərinin, mühəndislərinin və yaradıcı insanların fəaliyyətinə verilən dəyər onun dövlət idarəçiliyinin mühüm istiqamətlərindən idi.

Heydər Əliyevin uzaqgörənliyi yalnız mövcud ziyalı nəslini qorumaq deyildi, həm də gələcəyin Azərbaycanını quracaq yeni nəslin yetişdirilməsini dövlət siyasətinin prioriteti hesab edirdi. Məhz buna görə də respublikanın istedadlı gənclərinin keçmiş SSRİ-nin Moskva, Sankt-Peterburq (Leninqrad), Kiyev, Minsk, Novosibirsk və digər elm mərkəzlərində yerləşən nüfuzlu ali məktəblərdə təhsil almasına xüsusi diqqət yetirilirdi. Hər il yüzlərlə azərbaycanlı gəncin ittifaqın qabaqcıl ali təhsil müəssisələrinə göndərilməsi təsadüfi kampaniya deyil, uzunmüddətli strateji proqram idi. Bu gənclər sonralar Azərbaycanın sənayesini, energetikasını, kənd təsərrüfatını, elmini, səhiyyəsini, hərbi quruculuğunu və dövlət idarəçiliyini formalaşdıran əsas milli kadr korpusuna çevrildilər.

1969-cu ildən etibarən respublikanın iqtisadi həyatında müşahidə olunan canlanma qısa müddətdə genişmiqyaslı inkişaf mərhələsinə çevrildi. İttifaqın mərkəzləşdirilmiş planlı iqtisadiyyatı şəraitində belə Azərbaycan sənaye potensialını artırmağa, yeni istehsal sahələri yaratmağa və iqtisadiyyatın strukturunu şaxələndirməyə nail oldu. Bir-birinin ardınca yeni zavodlar, fabriklər, istehsalat birlikləri istifadəyə verildi, mövcud müəssisələr müasir texnologiyalarla yenidən quruldu. Neft maşınqayırması sahəsində qazanılan uğurlar Azərbaycanın adını bütün sosialist düşərgəsində məşhurlaşdırdı. Azərbaycanda istehsal olunan neft avadanlıqları SSRİ-nin və sosialistyönümlü ölkələrin müxtəlif neft yataqlarında istifadə olunur, Azərbaycan mühəndislərinin hazırladığı texniki həllər ittifaq miqyasında yüksək qiymətləndirilirdi. Respublikada formalaşan güclü maşınqayırma məktəbi sonrakı illərdə də ölkənin sənaye potensialının əsas sütunlarından biri oldu.

Sumqayıt kimya sənayesi isə həmin dövrün ən iri sənaye komplekslərindən biri kimi fəaliyyət göstərirdi. Burada istehsal olunan məhsullar ittifaqın müxtəlif bölgələrinə göndərilir, Azərbaycan kimya sənayesi ümumittifaq iqtisadiyyatının mühüm halqalarından birinə çevrilmişdi. Metallurgiya, elektrotexnika, cihazqayırma, tikinti materialları sənayesi və digər istiqamətlərdə yaradılan yeni müəssisələr respublikanın iqtisadi simasını tamamilə dəyişdirmişdi.

Heydər Əliyev kənd təsərrüfatının inkişafını da strateji məsələ hesab edirdi. Azərbaycanda pambıqçılıq, üzümçülük, taxılçılıq, tütünçülük, baramaçılıq, meyvəçilik və heyvandarlıq sahələri dövlət dəstəyi hesabına sürətlə inkişaf etdirildi. Suvarma sistemləri genişləndirildi, kənd təsərrüfatının texnika ilə təminatında nəzərəçarpacaq mühüm irəliləyiş var idi. Kənd zəhmətkeşlərinin sosial rifahının yüksəldilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirildi. Bu siyasətin nəticəsində Azərbaycan bir sıra kənd təsərrüfatı məhsullarının istehsalına görə keçmiş Sovet İttifaqında qabaqcıl respublikalardan birinə çevrilmişdi.

Respublikamızın artan iqtisadi yüksəlişi şəhərlərin simasında da aydın görünürdü. Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Naxçıvan və digər şəhərlərdə yeni yaşayış massivləri salınır, çoxmərtəbəli yaşayış binaları, məktəblər, uşaq bağçaları, xəstəxanalar, mədəniyyət evləri, idman obyektləri tikilirdi. Minlərlə ailə yeni mənzillərlə təmin olunur, insanların həyat şəraiti ildən-ilə yaxşılaşırdı.

Bu gün geriyə baxanda aydın görünür ki, həmin illərdə yaradılan sənaye müəssisələri, formalaşdırılan mühəndislik məktəbi, yetişdirilən yüksəkixtisaslı mütəxəssislər və qurulan sosial infrastruktur sonradan müstəqil Azərbaycanın iqtisadi inkişafına xidmət edən möhkəm baza rolunu oynadı.

Ulu Öndər Heydər Əliyev iqtisadiyyata yalnız rəqəmlər toplusu kimi baxmırdı, həm də dövlət müstəqilliyinin ən mühüm dayağı hesab edirdi. Bu uzaqgörən baxış sonrakı tarixi proseslərdə öz təsdiqini tapdı. Məhz buna görə 1969-1982-ci illər Azərbaycan tarixində təkcə yüksək iqtisadi göstəricilər dövrü deyil, gələcək müstəqil dövlətin maddi, texnoloji və istehsal təməlinin formalaşdırıldığı böyük inkişaf mərhələsi kimi qiymətləndirilir.

Tarixə diqqətlə nəzər saldıqda bir həqiqət aydın görünür - böyük dövlətlər təsadüflərin deyil, uzaqgörən siyasətin və ardıcıl quruculuğun nəticəsində yaranır. Dövlətçilik bir gündə formalaşmır. Onun təməli illərlə atılır, iqtisadiyyatda, təhsildə, elmdə, idarəçilikdə və cəmiyyətin milli özünüdərkində yetişir.1969-cu il iyulun 14-dən sonra Azərbaycanda başlanan dəyişikliklərə də məhz bu prizmadan baxmaq lazımdır. Ümummilli Liderin rəhbərliyi dövründə respublikada aparılan siyasət yalnız cari təsərrüfat məsələlərinin həllinə yönəlməmişdi. İqtisadiyyatın şaxələndirilməsi, sənaye müəssisələrinin yaradılması, elmi potensialın gücləndirilməsi, milli kadrların hazırlanması, şəhərlərin abadlaşdırılması və sosial infrastrukturun genişləndirilməsi Azərbaycanın inkişaf imkanlarını əhəmiyyətli dərəcədə artırdı.

1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini bərpa edəndə ölkə ağır siyasi və iqtisadi sınaqlarla üz-üzə qaldı. Lakin əvvəlki onilliklərdə yaradılmış sənaye potensialı, yetişdirilmiş mütəxəssislər, formalaşmış idarəçilik təcrübəsi və elmi baza yeni dövlətin inkişafı üçün mühüm imkanlar yaratdı. Bu səbəbdən bir çox tədqiqatçı 1969-1982-ci illəri Azərbaycanın sonrakı dövlət quruculuğu tarixinin vacib mərhələlərindən biri kimi qiymətləndirir.

Bu gün 14 iyul tarixini xatırlayarkən söhbət təkcə bir siyasi qərardan getmir, Azərbaycanın inkişaf tarixində yeni mərhələnin başlanğıcından, milli potensialın səfərbər edilməsindən, dövlət idarəçiliyində peşəkarlığın və strateji düşüncənin ön plana çıxmasından gedir. Məhz buna görə 14 iyul Azərbaycan tarixində yalnız təqvimdə qeyd olunan bir gün deyil. O, milli inkişaf iradəsinin, strateji dövlət idarəçiliyinin və gələcəyə hesablanmış quruculuq siyasətinin rəmzlərindən biri kimi yaddaşlara həkk olunub.

Bu gün Azərbaycan tamamilə fərqli siyasi və iqtisadi reallıqda yaşayır. Müstəqil dövlət olaraq inkişaf yolunu müəyyən edir, beynəlxalq aləmdə mövqeyini möhkəmləndirir, yeni hədəflərə doğru inamla irəliləyir. Sözsüz ki, hər bir dövrün öz çağırışları və vəzifələri var. Lakin keçilən yolun başlanğıc nöqtələrini düzgün qiymətləndirmək gələcəyi daha sağlam əsaslar üzərində qurmağa kömək edir. Tarix heç vaxt keçmişdə qalmır. O, bu günün düşüncəsində yaşayır, sabahın qərarlarında davam edir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# "Heydər Əliyevin 90-cı illərdə qəbul etdiyi qərarlar Azərbaycanın müasir müstəqil xarici siyasətinin təməlini qoyub"

**"Ümummilli Lider Heydər Əliyevin 1993-cü ilin iyununda hakimiyyətə qayıdışı Azərbaycanın siyasi həyatında, sadəcə, dönüş nöqtəsi deyil, həm də ölkəni yaxınlaşmaqda olan dövlət böhranından xilas edən həlledici addım olub. Məhz 1993-1997-ci illərdə qəbul edilən qərarlar Azərbaycanın müasir müstəqil xarici siyasətinin əsasını təşkil edib".**

Bu fikirləri AZƏRTAC-a müsahibəsində **İtaliya-Azərbaycan Assosiasiyasının vitse-prezidenti, beynəlxalq ekspert Karlo MARİNO** səsləndirib.

Onun sözlərinə görə, həmin dövrün əhəmiyyətini düzgün qiymətləndirmək üçün Azərbaycanın 1992-1993-cü illərdə üzləşdiyi böhranların miqyasını nəzərə almaq lazımdır.

"Bu dövrün bugünkü müstəqil xarici siyasətə necə yol açdığını tam anlamaq üçün ilk növbədə 1992-1993-cü illərin taleyüklü böhranlarını qəbul etməliyik. Həmin böhranlara Qarabağda Azərbaycan ərazisinin 20 faizinin işğalı ilə nəticələnən dağıdıcı müharibə, bir milyondan çox insanın məcburi köçkün düşməsi, 1000 faizi ötən hiperinflyasiya, eləcə də Bakının özündə rəqabət aparan silahlı qruplaşmaların mövcudluğu daxil idi", - deyə ekspert bildirib.

Agentliyin həmsöhbəti vurğulayıb ki, Heydər Əliyevin ilk və ən mühüm qərarlarından biri dövlətin qanuni güc tətbiqi üzərində inhisarını bərpa etməsi olub.

"Hakimiyyətə gəldikdən sonra o, Surət Hüseynovun briqadası və müxtəlif silahlı birləşmələr də daxil olmaqla, nəzarətdən kənarda fəaliyyət göstərən hərbi qüvvələrlə üzləşdi. Bu problemi aradan qaldırmaq üçün nizamsız silahlı dəstələr ləğv edildi, hərbi rəhbərlikdə kadr dəyişiklikləri aparıldı və vahid mərkəzləşdirilmiş komandanlıq altında peşəkar milli ordu formalaşdırıldı", - deyə Karlo Marino qeyd edib.

O, həmçinin 1994-cü ildə atəşkəs rejiminin əldə olunmasının əhəmiyyətinə diqqət çəkib.

"1994-cü ilin sonunadək Heydər Əliyev Bişkek protokolu kimi tanınan kövrək atəşkəsə nail ola bildi. Bu, ərazilərin geri qaytarılmasını təmin etməsə də, sonrakı itkilərin qarşısını aldı. Aktiv döyüş əməliyyatlarının dayandırılması sonrakı bütün iqtisadi və diplomatik təşəbbüslərin həyata keçirilməsi üçün zəruri şərtə çevrildi", - deyə İtaliya-Azərbaycan Assosiasiyasının vitse-prezidenti vurğulayıb.

Ekspert 1994-cü il sentyabrın 20-də aparıcı beynəlxalq neft şirkətlərinin konsorsiumu ilə imzalanmış və "Əsrin müqaviləsi" kimi tanınan məhsul bölgüsü sazişinin əhəmiyyətini də xüsusi qeyd edib.



"İqtisadi baxımdan ən böyük dönüş yaradan qərar beynəlxalq neft şirkətlərinin konsorsiumu ilə 30 illik məhsul bölgüsü sazişinin imzalanması oldu. Heydər Əliyev yalnız Bakı-Novorossiysk sovet neft kəmərinə arxalanmaq əvəzinə Bakı-Tbilisi-Ceyhan neft kəməri başda olmaqla bir neçə boru kəməri layihəsinin həyata keçirilməsinə nail oldu", - deyə o bildirib.

Karlo Marinonun sözlərinə görə, çoxşaxəli enerji siyasəti dövlət institutlarının möhkəmlənməsinə, Qərb ölkələrinin Azərbaycanın sabitliyinə strateji marağının artmasına və xarici təzyiqlərdən asılılığın azalmasına imkan yaradıb. Bu isə "Azərbaycanı enerji resurslarının ixracı sahəsində həqiqi müstəqilliyə nail olmuş ilk postsovet respublikasına çevirib".

Siyasi islahatlardan danışan ekspert 1995-ci ildə referendum yolu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasının əhəmiyyətini də vurğulayıb.

"Konstitusiya hakimiyyət bölgüsünü hüquqi cəhətdən təsbit etdi. Lakin 1990-cı illərin mürəkkəb şəraitində daha vacib məqam ondan ibarət idi ki, sənəd respublikanın sərhədlərinin zorla dəyişdirilməsinə və ərazi bütövlüyünün pozulmasına yönələn hər hansı hərəkəti qadağan edirdi. Məhz bu konstitusion baza 1990-cı illərin əvvəllərindəki xaotik siyasi qarşıdurmalara son qoydu", - deyə o bildirib.

Agentliyin həmsöhbətinin fikrincə, ölkədaxili sabitliyin təmin olunması Azərbaycanın xarici investorlar və beynəlxalq ictimaiyyət üçün daha etibarlı tərəfdaşa çevrilməsinə şərait yaradıb.

"1993-1997-ci illərdə qəbul edilən qərarlar ölkənin müstəqil xarici siyasi kursunun təməlini formalaşdırdı. Onlar Azərbaycanın bu gün həyata keçirdiyi, nə Rusiyayönümlü, nə də Qərbyönümlü deyil, məhz Azərbaycanın milli maraqlarına söykənən müstəqil xarici siyasəti üçün institusional zəmin yaratdı", - deyə ekspert vurğulayıb.

Karlo Marino diqqətə çatdırıb ki, hazırda Azərbaycan ərazisində daimi xarici hərbi bazalar yoxdur.

"Bu, Bakının neft-qaz sektorundan əldə olunan gəlirlər hesabına öz müdafiəsini əsasən müstəqil şəkildə maliyyələşdirmək imkanına malik olması sayəsində mümkün olub. Heydər Əliyevin 1994-cü ildə eyni vaxtda bir neçə beynəlxalq konsorsiumla əməkdaşlıq etmək qərarı Azərbaycana maliyyə suverenliyi qazandırdı və zərurət yarandıqda həm Moskvaya, həm də Brüsselə "yox" demək imkanı verdi", - deyə ekspert fikrini yekunlaşdırıb.

# Azərbaycan-Slovakiya münasibətlərinin təməli - qarşılıqlı maraqlara xidmət edən iqtisadi əməkdaşlıq

**Azərbaycan və Slovakiya arasında iqtisadi əməkdaşlığın daha səmərəli əlaqələndirilməsi məqsədilə yaradılan İqtisadi Əməkdaşlıq üzrə Birgə İşçi Qrupu ikitərəfli münasibətlərin inkişafında mühüm rol oynayır. Qrup ticarət, investisiya, energetika, sənaye, nəqliyyat, kənd təsərrüfatı və digər iqtisadi sahələr üzrə əməkdaşlıq imkanlarını müzakirəyə çıxarır, birgə layihələrin həyata keçirilməsini və qarşılıqlı maraq doğuran məsələlər üzrə əlaqələndirməni təmin edir.**

Əməkdaşlığın sistemli şəkildə inkişaf etdirilməsi məqsədilə İşçi Qrupunun ilk iclası 2024-cü ilin sentyabrında Bakıda keçirilib. Bu görüş iqtisadi dialoqun rəsmi əməkdaşlıq çərçivəsində qurulduğunu və tərəflərin qarşılıqlı maraqlara söykənən münasibətləri genişləndirmək niyyətini bir daha nümayiş etdirib. Azərbaycan-Slovakiya iqtisadi münasibətlərinin mühüm istiqamətlərindən biri enerji sahəsində əməkdaşlıqdır. Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində artan rolu Slovakiya üçün də xüsusi əhəmiyyət kəsb edir. "Cənub qaz dəhlizi" vasitəsilə Avropa bazarlarına təbii qazın nəqli, eləcə də bərpaolunan enerji sahəsində həyata keçirilən layihələr iki ölkə arasında əməkdaşlığın yeni perspektivlərini formalaşdırır. Enerji sahəsində qarşılıqlı dialoq təkcə iqtisadi maraqlara deyil, həm də Avropanın enerji mənbələrinin şaxələndirilməsi strategiyasına töhfə verir.

İqtisadi tərəfdaşlığın inkişafında ticarət dövriyyəsinin genişlənməsi də mühüm rol oynayır. Hər iki ölkə arasında ticarət əlaqələrinin intensivləşməsi qarşılıqlı iqtisadi maraqların artdığını göstərir. Son illər tərəflər ticarət dövriyyəsinin artırılması, iqtisadi əlaqələrin şaxələndirilməsi və yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi istiqamətində ardıcıl fəaliyyət göstərirlər. Mövcud ticarət həcmi ölkələrin iqtisadi potensialını tam əks etdirməsə də, qarşılıqlı maraq və siyasi iradə bu göstəricinin gələcəkdə artacağını deməyə əsas verir. Bu gün neft-kimya, plastik və kimya sənayesi məhsulları, həmçinin neftdənkənar sahədə istehsal olunan bəzi mallar ixrac nomenklaturasında yer alır. Slovakiyadan Azərbaycana idxal edilən məhsullar isə əsasən yüksək texnologiyaya və sənaye istehsalına əsaslanır. Bunlara maşınqayırma məhsulları, avtomobil və avtomobil hissələri, sənaye avadanlıqları, elektrik cihazları, əczaçılıq məhsulları və digər emal sənayesi malları daxildir. Slovakiyanın Avropanın aparıcı avtomobil istehsalçılarından biri kimi qazandığı təcrübə bu sahədə əməkdaşlıq üçün əlavə imkanlar yaradır. Müasir texnologiyaların, innovativ istehsal üsullarının və sənaye təcrübəsinin Azərbaycana transferi ölkənin sənaye potensialının gücləndirilməsinə və iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılmasına mühüm töhfə verə bilər.

Qarabağın bərpası prosesi də Azərbaycan-Slovakiya iqtisadi əməkdaşlığına yeni məzmun qazandırır. Slovakiya şirkətlərinin yenidənqurma layihələrində iştirakı iki ölkə arasında iqtisadi tərəfdaşlığın praktik nəticələrini nümayiş etdirir. 2025-ci ilin sentyabrında Ağdam rayonunun Baş Qərvənd kəndində Slovakiyanın "Concago j.s.a" şirkəti və onun yerli tərəfdaşı "IMA ENERGY" MMC tərəfindən fərdi yaşayış evlərinin tikintisinə dair müqavilə imzalanıb və layihənin icrasına başlanılıb. Bu təşəbbüs təkcə infrastrukturun bərpasında deyil, həm də iş yerlərinin yaradılmasında, regionun sosial-iqtisadi inkişafının sürətləndirilməsində və Qarabağın yenidən qurulması prosesində mühüm rol oynayır. Layihə azad edilmiş ərazilərin bərpasında beynəlxalq tərəfdaşlığın əhəmiyyətini nümayiş etdirir və xarici investisiyaların regionun sosial-iqtisadi dirçəlişində mühüm yer tutduğunu göstərir. Üstəlik, bu əməkdaşlıq Slovakiya şirkətlərinin Azərbaycanın yenidənqurma prosesində iştirak imkanlarını genişləndirir, gələcəkdə tikinti, enerji və infrastruktur sahələrində yeni birgə layihələrin həyata keçirilməsi üçün əlverişli zəmin yaradır. Belə təşəbbüslər iki ölkə arasında iqtisadi əlaqələrin praktik məzmununu gücləndirməklə yanaşı, qarşılıqlı etimadın və uzunmüddətli tərəfdaşlığın möhkəmlənməsinə də xidmət edir.

Slovakiyanın Avropa İttifaqındakı mövqeyi və güclü sənaye potensialı da Azərbaycan üçün mühüm əməkdaşlıq imkanları yaradır. "Volkswagen", "Kia" və "Stellantis" kimi transmilli avtomobil istehsalçılarının bu ölkəyə yatırdığı sərmayələr Slovakiyanı Avropanın aparıcı sənaye mərkəzlərindən birinə çevirib. Adambaşına düşən avtomobil istehsalına görə dünyanın ön sıralarında yer alan Slovakiya innovativ texnologiyalar, müasir istehsal standartları və sənaye idarəçiliyi sahəsində zəngin təcrübəyə malikdir. Bu təcrübə Azərbaycanın sənaye və investisiya mühitinin inkişafı üçün də əhəmiyyətli imkanlar açır. Xarici investisiyalar təbii ki, yeni iş yerlərinin yaradılmasına, yerli sahibkarlığın inkişafına, texnologiya transferinə və müasir idarəetmə modelinin tətbiqinə şərait yaradır.

İqtisadi əlaqələrin inkişafı ilə yanaşı, Azərbaycan-Slovakiya münasibətlərinin möhkəmlənməsində siyasi dialoq və dövlət başçıları səviyyəsində keçirilən görüşlər də mühüm rol oynayır. Məhz qarşılıqlı etimad və strateji tərəfdaşlıq mühiti iki ölkə arasında əməkdaşlığın yeni istiqamətlər üzrə genişlənməsinə imkan yaradır. Bu baxımdan Slovakiya Respublikasının Prezidenti Peter Pelleqrinin Azərbaycana son səfəri iki ölkə münasibətlərində mühüm hadisə kimi qiymətləndirilə bilər. Prezident İlham Əliyev Slovakiya Prezidentini Şuşa şəhərində qəbul edib. Bu görüş Azərbaycan-Slovakiya əlaqələrinin yalnız paytaxtlar səviyyəsində deyil, həm də Azərbaycanın tarixi və mədəni əhəmiyyət daşıyan bölgələrində inkişaf etdirilən tərəfdaşlıq xarakterini nümayiş etdirib.

Görüş zamanı dövlət başçıları iki ölkə arasında siyasi, iqtisadi və humanitar əlaqələrin inkişaf perspektivlərini müzakirə ediblər. Prezidentlər Azərbaycan və Slovakiya arasında əməkdaşlığın müxtəlif sahələrdə genişləndirilməsi üçün böyük potensialın olduğunu vurğulayıblar. Xüsusilə enerji, nəqliyyat, sənaye, investisiya və bərpa-quruculuq layihələri sahəsində əməkdaşlığın artırılmasının vacibliyi qeyd olunub.

Mətbuata bəyanatları zamanı Prezident İlham Əliyev Azərbaycan ilə Slovakiya arasında münasibətlərin dostluq və qarşılıqlı hörmət prinsipləri əsasında inkişaf etdiyini bildirib. Dövlət başçısı iki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi, ticarət dövriyyəsinin artırılması və yeni investisiya layihələrinin həyata keçirilməsi üçün imkanların mövcud olduğunu diqqətə çatdırıb. Slovakiya Prezidenti Peter Pelleqrin çıxışında Azərbaycan ilə Slovakiya arasında enerji sahəsində əməkdaşlığın əhəmiyyətinə xüsusi toxunub. O, Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəni yüksək qiymətləndirərək deyib: "Cənab Prezident, mən həmçinin enerji böhranı zamanı Azərbaycanın operativ cavabına görə Sizə və Azərbaycana təşəkkürümü bildirmək istərdim. Həmin vaxt Siz öz hazırlığınızı və arzunuzu bildirdiniz ki, ölkəmizə təbii qaz təchiz olunsun. Bütün bunlar qazın Ukrayna vasitəsilə tranziti dayandırıldıqdan sonra boşluğun doldurulmasına böyük töhfə idi. Şadam ki, nazirlərimiz 2027-ci ildən sonra enerji təchizatı üçün sabit, uzunmüddətli həll variantının tapılmasında müzakirələri davam etdirəcəklər".

Bununla yanaşı, Slovakiya Prezidenti ölkələr arasında mövcud dostluq münasibətlərinin konkret layihələr və qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə daha da möhkəmləndirilməsinin vacibliyini vurğulayıb. O qeyd edib ki, Azərbaycan və Slovakiya arasında tərəfdaşlıq yalnız ticarət münasibətləri ilə məhdudlaşmamalı, sənaye, texnologiya və investisiya sahələrində birgə təşəbbüslərlə daha da inkişaf etdirilməlidir. Peter Pelleqrin fikrini belə ifadə edib: "Münasibətlərimiz yalnız birtərəfli ticarətə - bir tərəfin satdığına, digər tərəfin aldığına söykənməli deyil. Əksinə, biz mümkün qədər çox birgə layihələr istəyirik. Biz əməkdaşlığın qarşılıqlı şəkildə faydalı olacağı sahələrdə birgə işləmək istəyirik. Mümkün olan sahələrdə birgə istehsal etməyi, texnologiya transferini asanlaşdırmağı və hər iki ölkəyə fayda gətirəcək layihələrin həyata keçirilməsini arzulayırıq".

Bütün bunlar bir daha göstərir ki, Azərbaycan-Slovakiya münasibətləri yalnız iqtisadi maraqlara deyil, həm də qarşılıqlı siyasi etimada və uzunmüddətli tərəfdaşlıq prinsiplərinə əsaslanır. Dövlət başçıları arasında aparılan dialoq mövcud əməkdaşlıq imkanlarının daha da genişləndirilməsi və iki ölkə arasında əlaqələrin yeni mərhələyə yüksəldilməsi üçün mühüm zəmin yaradır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Elmə və iqtisadi tərəqqiyə həsr edilən ömür

**"Hər bir alim qiymətlidir. Hər bir alimin yaratdığı elmi əsərlər özünəməxsus qiymət alır. Ancaq nəzəriyyəni təcrübə ilə birləşdirən, nəzəri fikirlərini tətbiq edə bilən və onlardan əməli nəticə götürə bilən, cəmiyyətə, ölkəyə, xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur".**

**Heydər ƏLİYEV**

Danılmaz həqiqətdir ki, alim olmaq çətindir, çünki elmin yolları çox əzablı, çox keşməkeşlidir. İstehsalatda müxtəlif rəhbər vəzifələrdə çalışa-çalışa alim olmaq isə ikiqat, üçqat çətindir. Ona görə də bu qəbildən olan alimləri barmaqla saymaq olar. Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Bəyalı Ataşov da elmlə praktikanı məharətlə uzlaşdıran alimlərdəndir.

Bəyalı Xanalı oğlu Ataşov 16 iyul 1946-cı ildə anadan olmuş, 1964-cü ildə 34 saylı İmişli dəmir yolu orta məktəbini, 1970-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət İqtisad Universitetinin) Uçot-iqtisadiyyat fakültəsini "Mühasibat uçotu" ixtisası üzrə bitirmişdir.

1970-1975-ci illərdə (hərbi xidmətdə olduğu 1 il istisna olmaqla) yaşadıqları İmişli rayonu Həzi Aslanov adına kolxozda baş mühasib işləmiş, 1975-1987-ci illərdə respublikanın ovaxtki Ət və Süd Sənayesi Nazirliyinin qabaqcıl müəssisələrində direktor, baş direktor kimi rəhbər vəzifələrdə çalışmışdır.

1987-ci ilin mart ayından indiyədək Azərbaycan Mərkəzi Kooperativlər İttifaqı ("Azərittifaq") sistemində işləyir. Burada Ət tədarükü və satışı üzrə respublika kontorunda direktor, mərkəzi aparatın kənd təsərrüfatı məhsullarının tədarükü, emalı və satışı üzrə birlikdə baş direktor, xarici ticarət birliyində baş direktor, mərkəzi aparatın maliyyə-iqtisad idarəsində rəis vəzifələrinin öhdəsindən bacarıqla gəlmiş, eyni zamanda istehsalatdan ayrılmadan elmi-pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 2011-ci ilin avqust ayından indiyə kimi Azərbaycan Kooperasiya Universitetinin elm və innovasiyalar üzrə prorektorudur.

Zəngin maliyyə-uçot, istehsalat və təşkilati-idarəetmə təcrübəsinə malik olan, gənc yaşlarından elmi axtarışlara böyük maraq göstərən tədqiqatçı Bəyalı Ataşov 1989-cu ildə Gürcüstan Elmi-Tədqiqat İnstitutunda "Ət-süd altkompleksinin inkişafı və onun iqtisadi səmərəsinin yüksəldilməsi" mövzusunda namizədlik, 2002-ci ildə isə dissertantı olduğu Azərbaycan Dövlət İqtisad Universitetində "Azərbaycan Respublikası ərzaq kompleksinin formalaşmasının və inkişafının təşkilati-idarəetmə problemləri" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir. Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının müvafiq qərarları ilə ona vaxtında dosent və professor elmi adları verilmişdir.

Müstəqil Azərbaycanda ərzaq kompleksinin inkişafı və ərzaq təhlükəsizliyi problemlərini araşdıran ilk alim-tədqiqatçılardandır. Doktorluq dissertasiyasında irəli sürülmüş təklif və tövsiyələrdən vaxtilə beynəlxalq təşkilatların iştirakı ilə respublikamızın aqrar bölməsində həyata keçirilmiş "Kənd təsərrüfatında regional islahatlar", "Özəlləşdirilmiş kənd təsərrüfatı müəssisələrinin təşkili", "Kənd təsərrüfatının inkişafı və kreditləşdirilməsi" kimi pilot layihələrdə qismən istifadə edilmişdir.

Professor Bəyalı Ataşovun elmi-pedaqoji fəaliyyətinin ən məhsuldar çağı ölkəmizin müstəqillik dövrünə təsadüf edir. Müstəqilliyimizin ilk illərində iqtisadiyyatımız çox ağır günlər keçirir, böhranın girdabından çıxa bilmirdi. Məhz o vaxtlar Ümummilli Lider Heydər Əliyevin iqtisadi siyasət kursunu hər vəchlə dəstəkləyən digər vətənpərvər iqtisadçılar kimi, Bəyalı müəllim də yaxşı bələd olduğu aqrar-sənaye sferasının yeni tələblər baxımından transformasiyasına və dirçəldilməsinə dair ardıcıl olaraq müxtəlif kütləvi informasiya vasitələrindən istifadə edərək, elmi-nəzəri seminarlarda, "dəyirmi masa"larda və elmi-praktik konfranslarda iştirakı vasitəsilə ən ümdə və təxirəsalınmaz məsələləri ön plana çəkir, təklif və tövsiyələrini direktiv orqanların diqqətinə çatdırır, aqrar elmin nailiyyətlərinin istehsalata tətbiqinə səy göstərirdi. O vaxtlar aqrar sahədə həllini gözləyən əsas problemlər sırasında Ulu Öndərin cəsarətli və MDB məkanında analoqu olmayan torpaq islahatı nəticəsində kəndlilərin sərəncamına verilmiş torpaq paylarından səmərəli istifadə, bitkiçilikdə və heyvandarlıqda innovativ texnologiyaların ləngimədən tətbiqi, aqrar istehsalın yeni şəraitə uyğun diversifikasiyası, bu sahəyə dövlət dəstəyinin ilbəil gücləndirilməsi, kəndlilərin "ələbaxımlıq" psixologiyasından əl çəkərək məhsuldar əməyə cəlb edilməsi, kənd təsərrüfatında kooperasiya və inteqrasiya əlaqələrinin genişləndirilməsi, aqrar sahibkarlığın geniş vüsət alması və beləliklə də, respublika əhalisinin etibarlı ərzaq təminatına möhkəm zəmin yaradılması zərurətini Bəyalı Ataşov öz məqalə və kitablarında yeni elmi yanaşmalar prizmasından xüsusilə vurğulayırdı.

Uzun müddət elmi-pedaqoji fəaliyyətini ölkəmizin ali məktəbləri sırasında layiqli yer tutan Azərbaycan Kooperasiya Universitetinin "Maliyyə" kafedrasında davam etdirən, həmçinin bir sıra elm ocaqları ilə sıx əməkdaşlıq edən professor 8 monoqrafiyanın, ali məktəblər üçün 6 dərslik və dərs vəsaitlərinin, çoxsaylı tədris proqramlarının, metodik göstərişlər və tövsiyələrin, habelə Azərbaycan Respublikası Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu respublika və xarici jurnallarda (o cümlədən beynəlxalq xülasələndirmə və indeksləmə bazalarına daxil olan Web of Science, Scopus-da) günün aktual problemlərinin tədqiqinə dair 140-dan artıq elmi məqalənin müəllifidir.

Hələ ali məktəbdə oxuyarkən və sonrakı dövrlərdə respublika və xarici mətbuatda maraqlı məqalələrlə çıxış edən Bəyalı Ataşov elmi araşdırmalara ciddi həvəs göstərmiş, elmi yenilikləri istehsalat təcrübəsi ilə əlaqələndirməyə daim can atmış, elmin və təcrübənin qarşılıqlı surətdə sıx bağlı olub bir-birini tamamlamaları barədə həyat reallığı mövqeyindən araşdırmalar aparmışdır. İstehsalatda çalışmaqla yanaşı, elmi-tədqiqat işləri ilə mütəmadi məşğul olmuş, daim mütaliə etmiş, qabaqcıl təcrübələri öyrənməyə cəhd göstərmiş, ölkəmizin və görkəmli xarici iqtisadçı alimləri ilə, habelə respublikanın müvafiq elm ocaqları ilə sıx yaradıcılıq əlaqələri qurmuş, bir çox respublika əhəmiyyətli tədqiqat işinin yerinə yetirilməsində, təklif və tövsiyələrin hazırlanmasında fəal iştirak etmişdir.

Gənc iqtisadçı alimlərin yetişdirilməsində və hazırlanmasında fəal iştirak edən Bəyalı Ataşov Azərbaycan İqtisadçılar İttifaqının, Azərbaycan Kooperasiya Universitetinin böyük elmi şurasının üzvü olmaqla yanaşı, Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının son 20 ildə yaratdığı dissertasiyaların müdafiəsini keçirən ixtisaslaşdırılmış şuraların üzvü və həmsədri olmuşdur. Hazırda Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurası sədrinin müavinidir.

45 illik elmi-tədqiqat və elmi-pedaqoji fəaliyyət dövründə Bəyalı müəllimin bilavasitə elmi rəhbərliyi və məsləhətçiliyi ilə indiyə kimi 25 nəfər iddiaçı iqtisad üzrə fəlsəfə doktoru, 3 nəfər isə elmlər doktoru elmi dərəcəsi almaq üçün müvəffəqiyyətlə dissertasiya müdafiə etmişlər.

Bundan əlavə, o, digər iddiaçılar tərəfindən müxtəlif illərdə müdafiəyə təqdim edilmiş xeyli sayda fəlsəfə doktoru və elmlər doktoru dissertasiyalarının rəsmi opponenti və rəyçisi olmuş, alim və müəllim həmkarlarının hazırladıqları bir sıra monoqrafiya, dərslik və dərs vəsaitlərinin, tədris proqramlarının hazırlanıb nəşr edilməsində elmi redaktor və rəyçi kimi iştirak etmişdir. Eyni zamanda hazırda bir sıra nüfuzlu ölkə və xarici elmi-praktik jurnalların redaksiya heyətinin üzvüdür.

Professor Bəyalı Ataşovun vaxtilə elmi rəhbəri, elmi məsləhətçisi və opponenti olduğu gənc alimlərin böyük bir qismi hal-hazırda ölkəmizin müxtəlif nüfuzlu elm ocaqlarında elmi-pedaqoji fəaliyyətlərini uğurla davam etdirir.

"Maliyyə" kafedrasının professoru qismində tədris metodikasının incəliklərinə dərindən bələd olan alimin bakalavrlara və magistrlərə ixtisas fənləri üzrə oxuduğu mühazirələri, keçirdiyi məşğələ dərslərini dinləyicilər həmişə maraqla qarşılayıblar.

O, bir mütəxəssis kimi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən ölkəmizin ali təhsil müəssisələrinin akkreditasiyası yoxlamalarına da zaman-zaman cəlb edilib.

Elmin inkişafı Azərbaycan dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Dövlət başçımız möhtərəm İlham



Əliyevin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda ölkəmizdə elmi-tədqiqat universitetlərinin yaradılması yaxın gələcək üçün təxirəsalınmaz vəzifə kimi qarşıya qoyulmuşdur. Bu tezisi fəaliyyət proqramı kimi qəbul edən Azərbaycan Kooperasiya Universitetinin rəhbərliyi başda rektor, bir sıra nüfuzlu xarici ölkələrin universitet və akademiyalarının fəxri doktoru və fəxri professoru, beynəlxalq mükafatlar laureatı, millət vəkili, Respublika Ağsaqqallar Şurasının sədri, professor Eldar Quliyev olmaqla, son 5 ildə elmi-tədqiqat işlərinin səmərəli şəkildə aparılmasına, innovasiyaların tətbiqinə, bu elm ocağının potensialının ilbəil artırılmasına daim ciddi səy göstərmişdir. Belə ki, göstərilən müddətdə universitetin pedaqoji kadrları sırasında fəlsəfə doktoru və elmlər doktoru elmi dərəcəsi, dosent və professor elmi adları almış əməkdaşların sayı əvvəlki eyni dövrə nisbətən 3-4 dəfə artmışdır. Kollektivin qazandığı bu elmi uğurlarda Bəyalı müəllimin də payı var.

Aqrar iqtisad elminin layiqli tədqiqatçılarından biri, praqmatik dünya görüşünə malik olan yubilyarın "Azərbaycan Respublikası ərzaq kompleksinin formalaşmasının və inkişafının təşkilati-idarəetmə problemləri" mövzusunda doktorluq dissertasiyasındakı (2002) və "Ərzaq təhlükəsizliyinin aktual problemləri" adlı monoqrafıyasındakı (Bakı, "Elm", 2005) elmi araşdırmaları respublika iqtisadçılarının böyük marağına səbəb olmuşdur. Bu əsərlərdə respublikada ilk dəfə olaraq Azərbaycan iqtisadiyyatının aparıcı sahəsi olan ərzaq kompleksinin bazar transformasiyaları şəraitində təşkilati-idarəetmə problemlərinin həllinə yeni sistemli elmi yanaşmalar verilmişdir. "Aqrar sahədə struktur və səmərəlilik problemləri" (2017) və "Azərbaycan iqtisadiyyatının qeyri-neft-qaz sektorunun müasir durumu və inkişaf perspektivləri" (2026) adlı monoqrafiyalarda da elmi-təcrübi əhəmiyyət kəsb edən vacib məsələlərin həllinə dair müəllif tərəfindən dəyərli təklif və tövsiyələr irəli sürülmüşdür.

Azərbaycanın gələcək sosial-iqtisadi inkişafına böyük nikbinliklə baxan Bəyalı müəllimin elmi araşdırmalarının əsas hədəfi isə rəqəmsallaşma və "yaşıl iqtisadiyyat" kimi çağırışlar fonunda beynəlxalq standartlara cavab verən, rəqabətqabiliyyətli yerli istehsalı sabit sürətlə artırmaq yolu ilə ölkəmizin iqtisadi və ərzaq təhlükəsizliyini etibarlı şəkildə təmin etməkdir.

Mehriban ailə üzvlərindən, həyatda onu əhatə edən aqil insanlardan, mütaliə etdiyi kitablardan və yazdığı elmi əsərlərdən güc-qüvvət alan, digər vətənpərvər, iqtisadçı alimlər kimi özünün əsas məqsədini Azərbaycanın iqtisadi tərəqqisinə xidmətdə görən Bəyalı Ataşov əsərlərində haqlı olaraq yetərli təbii-iqtisadi, əmək və intellektual resurslara malik respublikamızın XXI əsrdə inkişaf etmiş ölkələr sırasında layiqli yer tutacağına, xalqımızın isə layiq olduğu firavan həyat quracağına böyük əminlik ifadə edir.

Xarizmatik düşüncə tərzinə malik Bəyalı müəllim son dərəcə sadə, səmimi, alicənab, təmənnasız və humanist xarakterli alimdir. Onun təvazökarlığını, insanlara qarşı diqqətini onunla bir dəfə ünsiyyətdə olmaqla hiss etmək olar. Alimin keçdiyi şərəfli ömür yolu, bacarıqlı rəhbər, elm təşkilatçısı kimi gənc nəslin yetişməsində gördüyü səmərəli fəaliyyəti insanlıq meyarlarına və müəllim adına layiqli nümunədir.

Ədəb-ərkan sahibi Bəyalı müəllim təəssübkeş ziyalı, həmişə ədalətli və obyektiv olmağa cəhd göstərən və dövlətçiliyimizə sadiq şəxsiyyətdir. Onunla hər mövzuda söhbət etmək mümkündür. O, həm təmkinlə dinləməyi bacarır, həm də yeri gələndə öz dəyərli məsləhətini əsirgəmir.

Bu gün Bəyalı müəllim haqqında ürək sözlərimizi demək bizim üçün çox xoşdur. Çünki o, heç vaxt bizlərə - həmkarlarına, dostlarına, tələbələrinə, yaxınlarına öz isti, doğma münasibətini əsirgəməyib, hər zaman ağıllı, müdrik tövsiyələri və lazım gəldikdə şəxsi iştirakı ilə dəstək olub.

Yeri gəlmişkən, bir məqamı qeyd etmək istərdik. Bu yaxınlarda Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən ixtisaslaşdırılmış müdafiə şurasının növbəti iclası keçirilərkən fasilə zamanı Bəyalı müəllimin iş otağında olduq. Azərbaycanın və Kooperasiya Universitetinin bayraqları qoyulmuş divarın döşündəki köməkçi masa üstündəki iki kiçik "Oskar" heykəli diqqətimizi cəlb etdi. Birinin altında "Dünyanın ən yaxşı müəllimi", digərinin altında isə "Yer üzünün ən yaxşı elmi rəhbərinə" sözləri yazılmışdı. Başa düşdük ki, otağında əzizlədiyi bu hədiyyələr vasitəsilə sevimli tələbə və doktorantları Bəyalı müəllimə öz dərin ehtiramlarını bir qədər emosional şəkildə olsa da, məhz belə ifadə etmişlər. Bu mənzərə urəyimizcə oldu və biz bir anlığa məmnunluq hissi keçirdik.

Heç vaxt nailiyyətləri ilə öyünməyən, mübarizə və çətinliklərdə mətinləşən Bəyalı müəllim elmdə öz sözünü demiş, özünü təsdiq etmiş bir alimdir. Əminliklə demək olar ki, gərgin əməyi və uzunmüddətli səmərəli fəaliyyəti nəticəsində o, özünəməxsus elmi məktəbini yarada bilmişdir. Özü demişkən, bu gün böyük zəhmət bahasına həyatda istədiyi çox şeyə nail olub. Qismətinə, taleyinə görə o, daima Uca Tanrıya şükranlıq edir.

İşlədiyi və elmi-pedaqoji fəaliyyət göstərdiyi kollektivlərdə böyük hörmət və nüfuz qazanmış Bəyalı Ataşov respublikanın ictimai-siyasi həyatında da fəal iştirak edir. Onun əməyi "Azərittifaq"ın İdarə Heyəti və ölkə rəhbərliyi tərəfindən yüksək qiymətləndirilmişdir. 1970-ci ildə keçmiş SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə "Əmək rəşadətinə görə" yubiley medalı, 18 noyabr 2014-cü ildə Kooperasiya Universitetinin 50 illik yubileyi münasibətilə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə respublikamızda təhsilin inkişafındakı xidmətlərinə görə "Tərəqqi" medalı, "Azərittifaq"ın İdarə Heyətinin 18 iyul 2016-cı il 33 saylı qərarı ilə 70 illiyi nəzərə alınaraq "Fəxri kooperator" döş nişanı ilə təltif edilmiş, anadan olmasının 70 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidentinin 4 oktyabr 2016-cı il tarixli sərəncamı ilə Azərbaycanda elmin və təhsilin inkişafındakı xidmətlərinə görə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. Azərbaycan Kooperasiya Universitetinin 60 illik yubileyi münasibətilə və uzunmüddətli səmərəli fəaliyyətinə görə elm və təhsil nazirinin 1 dekabr 2025-ci il tarixli əmri ilə fəxri fərmanla təltif edilmişdir.

Dost haqqını tapdalamayan, qohum-əqrəbasının sevimlisi və güvənc yeri olan, özünü xoşbəxt ailə başçısı hesab edən Bəyalı müəllim iki oğul atası, dörd nəvə və üç nəticə babasıdır. Oğlanları Rövsən və Vaqif dövlət qulluqçuları, nəvələri Sevil və İrfan iqtisadçı, Röya və Leyla isə hüquqşünasdırlar.

Müasir Azərbaycan iqtisadi fikir tarixində özünəməxsus yer tutan, görkəmli alimlərdən biri olan Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Bəyalı Ataşovun 80 illik yubileyi yalnız bir şəxsin zəhmətlə yoğrulmuş həyat hekayəsinə nəzər salmaq deyil, eyni zamanda milli iqtisad elminin inkişafında mühüm bir mərhələnin elmi təhlilidir. Onun çoxşaxəli elmi fəaliyyəti, pedaqoji irsi və idarəetmə sahəsində formalaşdırdığı nəzəri-təcrübi yanaşmaları Azərbaycan iqtisad elminin inkişafına yetərli töhfələr vermişdir.

Azərbaycan iqtisad elmini bütün səviyyələrdə ləyaqətlə təmsil edən, ömrünün müdrik çağını yaşayan professor Bəyalı Ataşov həmişə olduğu kimi, bu gün də böyük əzmlə, tükənməz enerji ilə çalışır.

Bəyalı müəllimi Azərbaycan Kooperasiya Universitetinin professor-müəllim heyəti, tələbələri, ölkənin elmi camiyəsi, dostları adından şərəflə yaşadığı 80 illik yubileyi münasibətilə təbrik edir, ona elmi-pedaqoji fəaliyyətində yeni uğurlar, həyatda isə cansağlığı və könül xoşluğu arzu edirik.

*Ziyad SƏMƏDZADƏ,*
*akademik, Milli Məclisin deputatı, iqtisad elmləri doktoru, professor, Azərbaycan İqtisadçılar İttifaqının sədri,*

*Eldar QULİYEV,*
*Milli Məclisin deputatı, Azərbaycan Kooperasiya Universitetinin rektoru, iqtisad elmləri doktoru, professor, Azərbaycan Ağsaqqallar Şurasının sədri*





# Vətən deyəndə...





**● Ölməzliyə qovuşanlar**

# Sözünə əməl etdi - Vətənə layiqli əsgər oldu

**2002-ci il iyunun 15-də uzun zamandan bəri Sumqayıtda yaşayan Kamran kişinin ailəsində oğlan uşağı dünyaya gələndə həyat yoldaşının da, özünün də sevinci yerə-göyə sığmırdı. Yaxınları, doğmaları sevinclərinə qoşularaq onlara gözaydınlığı verir, ünvanlarına xoş sözlər deyirdilər. Hamı ürəkdən arzulayırdı ki, yeni doğulmuş körpə validenyləri üçün də, qoynunda dünyaya göz açdığı Vətən üçün də layiqli ovlad olsun, həmişə onların başını uca etsin.**

Dünyaya gəlişi ilə valideynlərinə, yaxınlarına böyük sevinc bəxş edən körpənin adını Əli qoydular. "Adı ilə böyüsün, bəxtini, taleyini Tanrı versin" deyib ürəkdən dualar etdilər. Aylar, illər hiss olunmadan karvan kimi qatarlanıb üzü gələcəyə getdikcə Əli də yavaş-yavaş böyüyürdü. Yaşı çatanda Sumqayıt şəhər 13 nömrəli orta məktəbdə oxumağa getdi. Dərslərindən aldığı yüksək qiymətlərlə doğmalarını sevindirdi.

Zaman tez ötüb keçdi. 2020-ci ilin yayı idi. Yaşıdları kimi ona da ordu sıralarına çağırıldığı barədə çağırış vərəqi gəlmişdi. Neçə vaxt idi ki, bu günü, bu anı intizarla gözləyirdi. Vətənə əsgər olmaq, əldə silah torpaqlarımızın keşiyində dayanmaq, onu erməni işğalçılarından göz bəbəyi kimi qorumaq istəyirdi. Artıq illərdən bəri arzusunda olduğu gün gəlib çatmışdı.

2020-ci ilin iyulunda valideynləri, doğmaları Əlini ordu sıralarına yola saldılar. Tapşırdılar ki, torpaqlarımızın keşiyində ayıq-sayıq dayansın, yurdumuzu, el-obamızı düşmənlərdən qorusun, Vətənə layiqli əsgər olsun, komandirlərin tapşırıqlarını qüsursuz yerinə yetirsin. Əli Vəliyev verilən məsləhətləri sakitcə dinləyir, eşitdiklərini yaddaşına yazırdı. Valideynlərini əmin etdi ki, nümunəvi xidməti, bilik və bacarığı, cəsarəti ilə onların başını uca edəcək.

Əli Vəliyev ordu sıralarına bu ovqatla, bu həvəslə, bu arzu ilə getdi. Elə ilk günlərdən başlayaraq, doğmalarına verdiyi sözü yerinə yetirərək, təlim-məşqlərdə fəal iştirak edərək hərbi bilikləri dərindən mənimsədi. Təlimlərdə çalışqanlığı və fəallığı ilə seçildi. Nümunəvi xidməti ilə komandirlərinin və əsgər yoldaşlarının rəğbət və hörmətini qazandı. Buna görə dəfələrlə komandirlərindən təşəkkür aldı.

Əgər 27 sentyabr 2020-ci ildə İkinci Qarabağ müharibəsi başlamasaydı, illərdən bəri susan silahlar bir payız günündə gurlamasaydı, əsgər Əli Vəliyev verdiyi sözü yerinə yetirəcəkdi - valideynlərinin yanına alnıaçıq, başıuca qayıdacaqdı. Amma müharibənin başlaması onun digər arzusuna yol açdı. Vətən torpaqlarını erməni işğalçılarından azad etmək, bu yolda vuruşmaq, düşməni məhv etmək Əli Vəliyevin ən başlıca istəyi idi. Üzərinə düşən bu müqəddəs vəzifənin məsuliyyətini ürəyində, qəlbində dərindən hiss edən əsgər İkinci Qarabağ müaribəsinin başladığı ilk günlərdən silaha sarılaraq qələbə ovqatı ilə döyüşlərə yollandı.

Əlinin döyüş yolu Goranboyun Tapqaraqoyunlu kəndi istiqamətində olan əlverişli yüksəkliklərin azad olunması uğrunda gedən əməliyyatlardan başladı. Elə ilk həmlədən əsgər Əli özünə əlverişli mövqe seçərək cəsarətlə vuruşur, komandirin döyüş tapşırıqlarını dəqiq yerinə yetirirdi. Erməni işğalçıları neçə ildən bəri möhkəmləndikləri mövqelərdən çıxmaq istəmir, ciddi müqavimət göstərirdilər. Əsgər Əli Vəliyev güllələri geri çəkilmək istəməyən düşmənin üstünə dolu kimi yağdırırdı.

Müharibənin üç günü arxada qalmışdı. Silahlar isə susmurdu. Düşmən xeyli geri oturdulmuşdu. Qəsbkarların keçilməz hesab olunan mövqeləri darmadağın edilmişdi. Talış və Suqovuşan kəndləri istiqamətinə gedən yollar açılmışdı. İndi gərgin döyüşlər bu istiqamətdə gedirdi. Ordumuz yağıların müqavimətini qıra-qıra irəliləyirdi. Əsgərlərimizdən sarsıdıcı zərbə alan, məğlubiyyətin acısını dadan düşmən tələm-tələsik mövqelərini tərk edirdi. 19 yaşlı əsgər Əli Vəliyev də bu döyüşlərdə ön sıralarda vuruşurdu.

Təəssüflər olsun ki, sentyabrın 30-da - müharibənin 4-cü günü düşmənin atdığı mərmi əsgər Əlinin yaxınlığına düşdü. Partlayış səsi ətrafı başına götürdü. Bu qəfil partlayışdan yayınmaq mümkün deyildi. Cəsur əsgərin yenicə başladığı döyüş yolu yarımçıq qaldı. Ömrünün ən gözəl çağında - 19 yaşında yurdumuzun azadlığı uğrunda gedən əməliyyatlarda növbəti döyüş tapşırığını yerinə yetirərkən şəhid oldu. Əsgər Əli Vəliyev Qarabağ uğrunda gedən döyüşlərdə sonadək vuruşmaq istəyirdi. Amma nə edəsən ki, onun həm arzuları, həm də ömür yolu yarıda qaldı.

Əlinin yaşadığı evin qapısını qara xəbər döydü. Şəhid olduğu haqqında xəbər onun doğmalarını, yaxınlarını sarsıtdı. Valideynlərinin kəsilməyən ah-naləsi, qurumayan göz yaşları hamını kədərləndirdi. Əli hələ kiçik yaşlarından bayraq vurğunu idi. Bütün tədbirlərdə bayrağı öpüb gözləri üstünə qoyardı.

İllər əvvəl çəkilmiş həmin kadrları özündə qoruyub saxlayan şəkillərə illər sonra həyəcansız baxmaq mümkün deyil. Bir anlıq əlimizi yazıdan çəkib diqqətlə o şəklə baxırıq. Budur, növbəti tədbirlərin birində balaca Əli yenə bayrağımızı sevgi dolu ürəklə öpür. Şəhid Əli Vəliyevi bir zamanlar öpüb gözünün üstünə qoyduğu üçrəngli bayrağa bükük, Sumqayıt şəhərindəki Şəhidlər xiyabanında azadlığı uğrunda vuruşduğu Vətən torpağına tapşırdılar.



İkinci Qarabağ müharibəsində göstərdiyi igidliyə görə Əli Kamran oğlu Vəliyev ölümündən sonra Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə "Suqovuşanın azad olunmasına görə", "Vətən uğrunda" və "Cəsur döyüşçü" medalları ilə təltif olundu.

Şəhid Əli Vəliyev ordu sıralarına yola düşəndə valideynlərinə verdiyi sözə əməl edərək Vətənə layiqli əsgər kimi xidmət etdi. Doğmalarının, yaxınlarının yanına alnıaçıq, başıuca və qəhrəman kimi döndü. Əli Vəliyev beləcə qısa, amma olduqca şərəfli, gələcək nəsillərə nümunə olacaq bir ömür yaşadı. Fəxr ediləsi, qürur duyulası bir ömür!

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# Azərbaycan ilə Belarus arasında müdafiə sahəsində əməkdaşlığın genişləndirilməsi məsələsi müzakirə edilib

**Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Belarus Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin dəvəti ilə bu ölkədə rəsmi səfərdədir.**



Azərbaycan Müdafiə Nazirliyindən AZƏRTAC-a verilən məlumata görə, protokola uyğun olaraq rəsmi qarşılanma mərasimində Baş Qərargah rəisləri fəxri qarovul dəstəsinin önündən keçib, hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

Sonra general-polkovnik Kərim Vəliyev Belarus Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi - müdafiə nazirinin birinci müavini general-mayor Pavel Muraveyko ilə görüşüb.

Görüşdə Azərbaycan ilə Belarus arasında müdafiə sahəsində əməkdaşlığın daha da genişləndirilməsi və inkişaf perspektivləri müzakirə edilib.

Tərəflər həmçinin regional təhlükəsizlik və qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparıblar.

Səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Minsk şəhərindəki Qələbə meydanındakı Qələbə abidəsini ziyarət edərək önünə əklil qoyub.

Daha sonra qonaqlar Belarus Silahlı Qüvvələrinin Hərbi Akademiyasının Avtomatlaşdırılmış İdarəetmə Sistemləri bölməsini ziyarət edib, akademiyanın tədris-maddi bazası və laboratoriyaları ilə tanış olublar.

**● Yurdu yaşadan qəhrəmanlar**

# Qaraqayada Sahib zirvəsi

**Hər il məktəblilərin yay tətili başlanan kimi atasından xahiş edərdi ki, onu kəndə əmisigilə yola salsın. Bütün yay boyu dupduru suları dağlardan süzülüb gələn Axınca çayında üzərək möhkəmlənər, Əyri dərənin kəklikotusunun, yarpızının rayihəsini ciyərlərinə çəkər, böyürtkən, moruq kollarından əlləri ilə dərib yediyi meyvələrlə qarşıdakı qışın şaxtasından, soyuqdəyməsindən sığortalanardı...**



Bəzən kənd uşaqları ilə dağa-daşa dırmaşaraq yorulanda, lalələrdən sanki xalı şərmiş yamaca uzananda baxışları Qaraqayanın, Dolmatlının, Genqüzeyin zirvələrinə yönələrdi. Ən çox da qəlbi Qaraqaya dağının başına pərvazlanardı. Bir dəfə dostlarından kimsə zarafat elədi: "Alpinist olsaydın, çatdığın zirvəyə Sahib adı verərdik". Hamı güldü. Çünki haqqında danışacağımız igidin adı Sahib idi.

Haqverdi kişi ailəsinin sonbeşiyinə bu adı min arzu-kamla vermişdi. Düşünmüşdü ki, digər övladları pərvazlanıb ev-eşik yiyəsi olandan sonra ata ocağına yurdçu kimi kiçik oğlu sahiblik edəcək. Bəlkə də heç ağlına gətirməmişdi ki, oğlunun qəlbində daha böyük və müqəddəs bir hiss - vətəninə, torpağına sahiblik hissi kök atacaq. Məqamı gələndə - yurda yağı basqın edəndə isə bu hisslə döyüşə atılacaq, onu qarşıda ölüm gözlədiyini bilə-bilə geriyə dönməyəcək...

Sahib özündən yaşca böyük olan üç bacısı və üç qardaşı kimi Bakının Binəqədi rayonundakı 115 nömrəli orta məktəbdə oxuyurdu. Ailə Bakıda yaşayırdı, soykökü isə Tovuz rayonunun Ağdam kəndindən idi. Sahib bu ata-baba kəndini çox sevirdi. Amma burada xoşuna gəlməyən bir məqam da var idi. Ağdam sərhəd kəndi olduğundan buraya ermənilər tez-tez gələrdi. Xüsusilə yay vaxtı bağ-bostanın tör-töküntülərini yığıb aparardılar. Özlərini çox mehriban göstərməyə çalışsalar da, Sahib hələ uşaqkən onların sifətindəki yaltaqlıq və riyakarlığı aydın görərdi...

Sahib Hüseynov orta təhsilini başa çatdırandan sonra Bakıdakı 25 nömrəli texniki-peşə məktəbində oxudu. Təmirçi-çilingər peşəsinə yiyələndi. 1989-cu ildə onu keçmiş sovet ordusu sıralarına xidmətə çağırdılar. İki il Polşada xidmət etdikdən sonra Bakıya qayıtdı.

...1991-ci ilin sonu idi. Atası əsgəri xidmətini başa çatdırıb evə dönmüş Sahib üçün münasib iş yeri axtarırdı. O isə yenidən əsgər olmaq qərarına gəlmişdi. Bu dəfə öz yurdunun əsgəri olmaq, doğma Azərbaycanını müdafiə etmək istəyirdi. Anası Pərizal xanım oğlunun fikrini biləndə çox narahat oldu. Axı ananın gözü yollardan təzəcə yığılmışdı.

- Narahat olma, ana, uzağa getmirəm. Xahiş etmişəm ki, məni Tovuza göndərsinlər, öz kəndimizə, - dedi.

1992-ci ilin fevralında Sahib könüllü olaraq ata-baba yurdunun imdadına tələsdi. Çətin vaxtlar idi. Düşmən dağların qoynuna sığınmış bu kəndə, onun əkin-biçinlə, heyvandarlıqla, quşçuluqla məşğul olan dinc sakinlərinə rahatlıq vermirdi. Məqsəd insanları bu gözəl məkandan pərən-pərən salmaq idi, amma onlarla bacara bilmirdi. Kənd vuruşur, şəhid verir, cavanlar canından-qanından keçir, camaat mərdliklə dözüb dayanırdı.

Sahib Ağdam kəndinə, bax, belə bir dövrdə gəlmişdi. Kəndi qoruyan igidlərlə birlikdə dağlara çəkilmişdi. Komandirlərinin tapşırıqlarını həmişə ləyaqətlə yerinə yetirirdi. Neçə dəfə düşmənlə göz-gözə dayanmış, qeyrətlə döyüşmüşdü.

1994-cü il mayın 12-də Azərbaycan və Ermənistan arasında atəşkəs elan olunanda Sahib artıq iki ildən çox idi ki, doğma torpağın müdafiəsində dayanmışdı. Yenə də dağlardan kəndə keşik çəkirdilər.

Artıq 1994-cü ilin ortaları idi. Komandiri iyulun 14-də Sahibin ad günü olduğunu eşidib o ərəfədə onu yaxınlıqda yaşayan əmisi Teymur kişigilə göndərir. Bu icazə Sahibə, əlbəttə ki, mərd döyüşçü olduğu üçün verilir.

Əmisinin evinə çatar-çatmaz yolda atəş səsləri eşidən Sahib ayaq saxlayır. Ürəyində "namərdlər atəşkəsi pozdular", - deyir və dərhal geriyə dönməyi qərara alır. Döyüşə atılır... və bu onun son döyüşü olur.

Sahib bu ali məqama elə zirvədə, kəndi əhatə edən dağlardan birinin - Qaraqayanın başında çatır. Bir vaxtlar ətəyində dayanıb zirvəsinə həsrətlə baxdığı Qaraqayanın…

İllər keçsə də, Vətən öz igid övladını unutmur. Prezident İlham Əliyevin 24 iyun 2010-cu il tarixli sərəncamı ilə Sahib Hüseynov "Hərbi xidmətlərə görə" medalına layiq görülüb. Bakının Rəsulzadə qəsəbəsində Sahib Hüseynov küçəsi var.

23 yaşı tamam olan gün əbədiyyətə qovuşan şəhidimiz yaşasaydı, indi 55 yaşını qeyd edərdi. Doğmaları, dostları, döyüş yoldaşları, həmkəndliləri bu günü unutmayıblar. Sahib Hüseynovun eyni zamanda şəhidliyinin 32 ili tamam olur.

32 il. Bu illər ərzində Sahibin vuruşduğu yerlərdə nələr oldu, igidlər düşmənlə neçə döyüşə atıldı, neçə oğul həyatından, neçəsi sağlamlığından keçdi... 2020-ci ilin məlum Tovuz hadisələri də məhz bu məkanda baş vermişdi. Xalqımızın ən yeni tarixinin qəhrəmanlıqlarından biri bu dağlarda göstərilmişdi.

Tovuzun Ağdam kəndinin Şəhidlər xiyabanında 1990-cı illərin əvvəlində yurdun müdafiəsinə qalxan igidlərlə yanaşı, 2020-ci ilin iyul hadisələrində və 44 günlük Vətən müharibəsində fədakarlıq göstərən oğullar uyuyur. 32 il əvvəl Sahibin də son mənzilinin uğrunda həyatından keçdiyi kənddə olmasına camaat özü qərar vermişdi. Bura kənd sakinlərinin hər gün gül-çiçəyə qərq etdiyi qürur yeridir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# "Zabit ixtisas kursu"nun növbəti buraxılış mərasimi keçirilib



**Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində "Zabit ixtisas kursu"nun növbəti buraxılış mərasimi keçirilib. Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyindən məlumat verilib.**

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Vətən uğrunda canını fəda etmiş şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə ölkəmizdə həyata keçirilən ordu quruculuğuna həsr olunmuş videoçarx nümayiş etdirilib.

Milli Müdafiə Universitetinin rektoru general-mayor Gündüz Əbdülov çıxış edərək gənc leytenantları bu əlamətdar gün münasibətilə Müdafiə Nazirliyinin rəhbərliyi adından təbrik edib, gələcək xidməti fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.

Azərbaycan Ordusunda hərbi təhsil sahəsində aparılan islahatlardan danışan rektor hərbi qulluqçuların peşəkar inkişafı üçün geniş imkanlar yaradıldığını diqqətə çatdırıb. Gənc zabitlərin təhsil müddətində əldə etdikləri biliklər sayəsində xidmət edəcəkləri bölmələrin döyüş ruhunu və mənəvi-psixoloji hazırlığını yüksəldəcəklərinə əminliyini ifadə edib.

Çıxış edən kurs birincisi leytenant Sənan Piriyev məzunlar adından yaradılan şəraitə, kursun yüksək səviyyədə təşkilinə, eləcə də göstərilən diqqət və qayğıya görə dövlət başçısına və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını bildirib.

Sonra kurs birincisi tərəfindən rəmzi yaş kötüyünə xatirə lövhəsi vurulub.

Kursu müvəffəqiyyətlə bitirən gənc zabitlərə sertifikatlar, fəxri fərmanlar və qiymətli hədiyyələr təqdim edildikdən sonra xatirə fotosu çəkdirilib.

# Tovuz döyüşləri Azərbaycan Ordusunun dağlıq relyefdəki uğurlu hərbi əməliyyatlarından biridir

**"Tovuz döyüşləri mahiyyət etibarilə 44 günlük Vətən müharibəsindən əvvəl Azərbaycanın hərbi hazırlığını, xalqın birlik və mübarizə əzmini nümayiş etdirən mühüm hadisələrdən biri kimi qiymətləndirilir. Ermənistanın hücum cəhdi təkcə sərhəd bölgəsində hərbi vəziyyəti gərginləşdirmək məqsədi daşımırdı. Bu təxribat eyni zamanda Azərbaycanın enerji strategiyasına, beynəlxalq neft və qaz kəmərlərinə, eləcə də ölkənin Qərbə açılan əsas nəqliyyat-kommunikasiya marşrutlarına qarşı yönəlmiş təhlükə idi.**



Lakin Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanının qarşıya qoyduğu tapşırıqların yüksək peşəkarlıqla yerinə yetirilməsi nəticəsində Azərbaycan Ordusu düşmənin bütün cəhdlərinin qarşısını qətiyyətlə aldı. Bu qələbə 44 günlük Vətən müharibəsində əldə olunacaq tarixi Zəfərin mühüm hərbi və mənəvi təməlini formalaşdırdı".

Bunu AZƏRTAC-a açıqlamasında Vətən müharibəsi iştirakçısı, ehtiyatda olan polkovnik-leytenant, hərbi-siyasi ekspert Elmar Hüseyn deyib.

Ekspertin sözlərinə görə, Tovuz döyüşləri zamanı Azərbaycan Ordusu yalnız hərbi qələbə qazanmadı, həm də qəhrəmanlıq salnaməsinə yeni səhifələr yazdı. Döyüşlərin ən ağır məqamlarında ön xətdə şəxsi heyətlə birlikdə vuruşan Azərbaycanın Milli qəhrəmanları - general-mayor Polad Həşimov və polkovnik İlqar Mirzəyev Vətən uğrunda canlarından keçərək şəhidlik zirvəsinə ucaldılar. Onların fədakarlığı, cəsarəti və sarsılmaz iradəsi Azərbaycan hərb tarixində əbədi iz qoydu, xalqın mübarizə ruhunu daha da gücləndirdi. Polad Həşimov və İlqar Mirzəyevin əziz xatirəsi sonradan 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərə aparan yolun mənəvi simvollarından birinə çevrildi.

"Tovuz döyüşləri həmçinin Azərbaycan Ordusunun mürəkkəb dağlıq relyef şəraitində uğurla həyata keçirdiyi hərbi əməliyyatlardan biri hesab olunur. Həmin əməliyyatın əsas xüsusiyyətlərindən biri quru qoşunları və raket-artilleriya bölmələrinin koordinasiyalı fəaliyyəti idi. Aprel döyüşləri və 44 günlük Vətən müharibəsində müxtəlif qoşun növləri, o cümlədən Xüsusi Təyinatlı Qüvvələr geniş şəkildə iştirak etsə də, Tovuz istiqamətində əsas yük quru qoşunları və artilleriya bölmələrinin üzərinə düşmüşdü.

Düşmən atəşkəs rejimindən sui-istifadə edərək gecə saatlarında, dumanlı hava şəraitində mövqelərini irəli çəkməyə, ölkənin Qərbə çıxışını təmin edən strateji nəqliyyat dəhlizinə nəzarəti ələ keçirməyə cəhd göstərirdi. Lakin Azərbaycan Ordusu bu planların qarşısını qətiyyətlə aldı. Şəxsi heyətin peşəkarlığı, yüksək döyüş ruhu və düzgün taktiki qərarlar nəticəsində say üstünlüyünə malik düşmən qüvvələrinə ağır zərbələr endirildi və onların hücum planı tamamilə iflasa uğradıldı.




# "Azpetrol" şirkəti 29 yaşını qeyd edir

Bu gün Azərbaycanın ən böyük yanacaqdoldurma şəbəkəsinə malik olan "Azpetrol" şirkəti fəaliyyətinin 29-cu ildönümünü qeyd edir.

Ötən illər ərzində şirkət dinamik inkişaf yolu keçərək ölkənin enerji sektorunda aparıcı mövqelərdən birini tutmuş, yanacaqdoldurma məntəqələrinin sayını 109-a çatdırmışdır.

Son illərdə "Azpetrol"un strateji prioritetlərindən biri işğaldan azad edilmiş ərazilərdə fəaliyyətin bərpası və genişləndirilməsi olmuşdur. Şirkət Zəngilan, Füzuli, Cəbrayıl, Şuşa, Laçın, Xankəndi, Hadrut, Əsgəran və Suqovuşan kimi bölgələrdə modul tipli yanacaqdoldurma məntəqələri quraraq Böyük qayıdış prosesinə öz töhfəsini vermişdir. Bu layihələr regionların iqtisadi canlanmasına, infrastrukturun inkişafına və məşğulluğun artırılmasına xidmət edir.

29 il ərzində "Azpetrol" sadə yanacaqdoldurma şəbəkəsindən ölkə üzrə geniş infrastruktura malik, çoxşaxəli xidmətlər təqdim edən və regional inkişaf proseslərinə inteqrasiya olunmuş iri şirkətlərdən birinə çevrilmişdir. Şirkətin əsas məqsədi bundan sonra da texnoloji yeniliklərin tətbiqi, xidmət keyfiyyətinin daha da yüksəldilməsi və ölkənin enerji infrastrukturunun inkişafına töhfə verməkdir.

Qeyd etmək lazımdır ki, "Azpetrol" şirkətinin yaranması, inkişafı və uğurlu fəaliyyəti Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanda sahibkarlığın və bazar iqtisadiyyatının formalaşdırılması istiqamətində həyata keçirilən islahatların nəticəsində mümkün olmuşdur. 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ölkənin neft strategiyasının əsasını qoyaraq özəl sektorun inkişafına mühüm təkan vermişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilən yeni neft strategiyasının prioritetləri bu gün də "Azpetrol"un fəaliyyət istiqamətlərinin əsas yol xəritəsini təşkil edir.

Şirkətin ilk yanacaqdoldurma məntəqəsi - "Spartak" YDM 15 iyul 1997-ci ildə Bakı şəhərinin Nəsimi rayonu, Moskva prospekti, 1013-cü məhəllə ünvanında fəaliyyətə başlamışdır.

"Azpetrol" yalnız yanacaq satışı ilə kifayətlənməyərək xidmət spektrini davamlı şəkildə genişləndirmişdir. Şirkətin fəaliyyət istiqamətlərinə maye qaz (LPG) və sıxılmış təbii qaz (CNG) infrastrukturu, elektrik avtomobilləri üçün enerji doldurma məntəqələri, motel və hotel xidmətləri daxildir. Bu yanaşma "Azpetrol"u klassik yanacaqdoldurma məntəqəsi operatorundan daha çox, kompleks xidmət platformasına çevirmişdir. Yüksək keyfiyyət, dürüstlük, şəffaflıq və müştəri məmnuniyyəti şirkətin fəaliyyətinin əsas prinsipləri olaraq qalır.

"Azpetrol" şirkətinə məxsus olan "Wyndham Garden Baku" hoteli 25 oktyabr 2022-ci ildə fəaliyyətə başlamışdır. Hotelin rəsmi açılış mərasimi isə 27 yanvar 2023-cü ildə keçirilmişdir. Beynəlxalq standartlara uyğun xidmət göstərən hotel müasir infrastrukturu, yüksək xidmət keyfiyyəti və geniş imkanları ilə seçilir. Fəaliyyətə başladığı gündən etibarən "Wyndham Garden Baku" həm yerli, həm də xarici qonaqlar üçün etibarlı və komfortlu yerləşmə məkanı kimi öz mövqeyini möhkəmləndirmişdir.

Hazırda şirkətin Azərbaycanın əksər iqtisadi rayonlarını əhatə edən, ən müasir avadanlıqlarla təchiz olunmuş 109 yanacaqdoldurma məntəqəsi, 1 maye qaz (LPG) məntəqəsi və müasir standartlara cavab verən 1 sıxılmış təbii qaz (CNG) terminalı fəaliyyət göstərir. Yanacaq məhsullarının saxlanılması məqsədilə şirkətin 3 neft bazası və 1 avtobazası mövcuddur. Şirkətin avtomobil parkına ümumilikdə 167 yük avtomobili daxildir. Bunlardan 162-si yanacaqdaşıyan yük avtomobili, 1-i şambo, 1-i yük avtomobili, 1-i buksir və 2-si maye daşıyan avtomobildir. Bundan əlavə, 8 sıxılmış təbii qaz postu, 4 maye qaz postu və 75 elektrik avtomobili doldurma postu fəaliyyət göstərir.

Şirkətin xidmət şəbəkəsinə 1 hotel, 8 motel və əksər yanacaqdoldurma məntəqələrində fəaliyyət göstərən müxtəlif iaşə və xidmət obyektləri daxildir. Hazırda "Azpetrol"da 4000-dən çox əməkdaş çalışır.

"Azpetrol" fəaliyyət göstərdiyi bütün sahələrdə innovasiyaların tətbiqinə, xidmət keyfiyyətinin yüksəldilməsinə və müştəri məmnuniyyətinin təmin edilməsinə xüsusi önəm verir.

**Azpetrol - Daim inkişafa doğru!**

**Əlaqə: 957**

# Paşinyanın "demokratik" diktaturası

## İkili standartlardan çıxış edən Qərb Ermənistandakı avtoritar idarəçiliyə göz yumur

**Ermənistanda son aylarda baş verən daxili siyasi proseslər İrəvanın beynəlxalq auditoriyaya sırımağa çalışdığı "demokratiya" və baş nazir Nikol Paşinyanın "islahatçı lider" obrazını fərqli şəkildə ortaya çıxardı. Belə ki, Paşinyanın idarəçilik modeli cəmiyyətə və xarici tərəfdaşlara "sivil idarəetmə" kimi təqdim olunsa da, mahiyyət etibarilə getdikcə daha sərt, totalitar elementlərlə zəngin avtoritar rejimə çevrilməkdədir. Ermənistanın yalançı "demokratiya" modelinin beynəlxalq müstəvidə ciddi tənqidə məruz qalmaması, əksinə, dəstəklənməsi Qərbin növbəti dəfə nümayiş etdirdiyi ikili standartlar və geosiyasi maraqların mənəvi dəyərlərdən üstün tutulması faktorundan qaynaqlanır.**



Ermənisanda totalitar meyillərin ən bariz təzahürü 2026-cı il iyunun 7-də keçirilmiş parlament seçkiləri zamanı ortaya çıxdı. Parlament seçkiləri Ermənistanın siyasi tarixində növbəti sınaq sayılsa da, seçkiöncəsi və səsvermə günü qeydə alınan hadisələr prosesin demokratik prinsiplərdən tamamilə uzaq olduğunu təsdiqlədi. Gedişat göstərdi ki, hakim "Vətəndaş Müqaviləsi" Partiyasının qələbəsi azad və ədalətli siyasi mübarizənin deyil, sistemli təzyiq mexanizmlərinin və inzibati resursların kobud şəkildə sui-istifadəsinin nəticəsi idi.

Ölkədə hələ səsvermədən çox öncə müxalif siyasi qüvvələrə və hökumət tənqidçilərinə qarşı genişmiqyaslı repressiya dalğası başladıldı. Hakimiyyət siyasi rəqiblərini neytrallaşdırmaq üçün "səslərin satın alınması" kimi süni ittihamları əlində alətə, təzyiq vasitəsinə çevirdi. Kampaniya çərçivəsində yüzlərlə müxalifət fəalı və təşkilatçı saxlanıldı, alternativ siyasi qüvvələrin təşviqat aparmaq imkanları inzibati yollarla tamamilə məhdudlaşdırıldı.

Təzyiq mexanizmi səsvermə günü daha eybəcər formalarla davam etdirildi. Dövlət və bələdiyyə strukturlarında çalışan minlərlə işçi işlərini itirmək hədəsi ilə məcburi şəkildə hakim partiyaya səs verməyə cəlb edildi. Seçicilərə aşkar təzyiqlər, səsvermə otaqlarında müşahidə olunan ciddi pozuntular sübut etdi ki, bu seçki xalqın azad iradəsini yox, hakimiyyətin siyasi ömrünü uzatmaq məqsədi daşıyan əvvəlcədən planlaşdırılmış bir ssenarini əks etdirir.

Paşinyan hökumətinin siyasi qisasçılığı təkcə səsvermə günü ilə məhdudlaşmadı. Seçkilər başa çatdıqdan sonra təzyiq və təqib siyasətinin daha da sərtləşməsi müşahidə olundu. Baş nazir qazandığı üstünlüyündən ölkədə siyasi plüralizmi təmin etmək əvəzinə cəmiyyətdəki fərqli səsləri boğmaq və müxalifəti darmadağın etmək üçün istifadə etməyə başladı.

Müxalif biznesmen və siyasi fiqur Qaqik Tsarukyanın və ona yaxın bir neçə şəxsin seçkilərin ardından dərhal həbs edilməsi də qisasçılıq prosesinin tərkib hissəsidir. Müxalifət rəhbərlərinin qondarma ittihamlarla həbsxanaya salınması ölkədə hüquq-mühafizə sisteminin tamamilə hakim partiyanın cəza alətinə çevrildiyini təsdiqlədi. Vəziyyət o həddə çatıb ki, Ermənistanda hakimiyyəti tənqid edən hər bir şəxs təqiblərlə üzləşir.

Əslində, Ermənistanda yaşanan mənzərə göstərir ki, hakimiyyət dəyişsə də, təfəkkür dəyişməz qalıb, sadəcə, siyasi personajlar əvəzlənib. Keçmiş prezidentlər Robert Koçaryanın və Serj Sarkisyanın dövründə Ermənistanda hərbi-siyasi elitanın dominantlığına əsaslanan sərt diktatura hökm sürürdü. Maraqlıdır ki, Qərb dünyası o zaman da özünün strateji və geosiyasi maraqları naminə bu avtoritarizmə göz yumur, təzyiq mexanizmlərini işə salmırdı. Bu gün isə Nikol Paşinyanın öz sələflərindən daha repressiv idarəçilik üsullarından istifadə etməsinə baxmayaraq, o, Qərbdən heç bir təzyiq, hətta yüngül tənqidlə belə üzləşmir, bunun əksinə beynəlxalq platformalarda "demokrat" elan olunur.

Məhz bu məqamda Qərbin klassik və ifrat ikili standartlar siyasəti tam çılpaqlığı ilə özünü büruzə verir. Qərbin məntiqinə görə, əgər bir lider "onların demokratıdırsa" və onların maraqlarına xidmət edirsə, əl atdığı bütün qanunsuzluqlar, kütləvi həbslər, siyasi təzyiqlər "qanun çərçivəsində atılan addımlar" kimi qələmə verilir.

Bu yanaşmanın nə qədər qərəzli olduğunu qonşu Gürcüstana göstərilən münasibət də ortaya qoyur. Gürcüstanda keçirilən seçkilər və daxili siyasi qərarlar Avropa İttifaqı və ABŞ tərəfindən kəskin şəkildə tənqid olunurdu. Rəsmi Tbilisiyə qarşı sanksiya təhdidləri, maliyyə yardımlarının dayandırılması və "demokratiyadan geriləmə" ittihamları irəli sürülürdü. Bundan fərqli olaraq Qərb Ermənistanda baş verənləri, Paşinyanın şübhəli "qələbəsini" böyük coşğu ilə qarşıladı. Qərb üçün insan hüquqları, azad seçkilər və mənəvi dəyərlər anlayışları onların geosiyasi maraqlarına xidmət edən içi boş anlayışlardır. Onlar üçün demokratiya universal dəyər olmaqdan çıxaraq, beynəlxalq siyasətdə dövlətləri itaətdə saxlamaq üçün tətbiq edilən siyasi alətə çevrilib.

Paşinyan hakimiyyətinin avtoritar rejimi Qərbin qeydşərtsiz dəstəyi ilə daha da stimullaşdırılır. Halbuki, bu dəstək Ermənistanı müstəqil ölkəyə çevirmir, onu böyük güclərin əlində təhlükəli geosiyasi alətə çevirir. Uzun illər Rusiyanın Cənubi Qafqazdakı əsas hərbi-siyasi dayağı olan Ermənistan, indi sahibini dəyişərək Qərbin regiondakı yeni forpostuna çevrilməkdədir. Bu siyasət Ermənistanı daxili parçalanmaya, iqtisadi problemlərə və regional təhlükələrə sürükləyir. Ölkə getdikcə Qərb-Rusiya rəqabətinin qurbanına çevrilir.

Nəticə etibarilə Ermənistanda yaşanan son proseslər Paşinyan diktaturasının kənar dairələrin dəstəyi ilə daha da güclənməsindən xəbər verir. Qərb dairələrinin İrəvandakı avtoritar rejimi israrla legitimləşdirmək cəhdləri ikili standartlarla yanaşı, Cənubi Qafqazda davamlı sülh və sabitlik perspektivlərinə də zərbə vurur.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Ermənistan vətəndaşlarının şikayətləri üzrə apellyasiya məhkəməsi davam etdirilib





İyulun 14-də Bakı Apellyasiya Məhkəməsində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə, hakimiyyəti zorla ələ keçirmə və digər çoxsaylı cinayətlərə görə Bakı Hərbi Məhkəməsi tərəfindən barələrində ittiham hökmü çıxarılmış Ermənistan Respublikası vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Sahakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin apellyasiya şikayətləri üzrə məhkəmə baxışı davam etdirilib.

AZƏRTAC xəbər verir ki, Bakı Apellyasiya Məhkəməsinin hakimləri Elmar Rəhimovun sədrliyi, Emin Mehdiyev və Mehriban Qarayevanın (ehtiyat hakim Əli Məmmədov) iştirakı ilə keçirilən məhkəmə iclasında barələrində cinayət işi üzrə apellyasiya icraatı aparılan şəxslərin hər biri bildikləri dillərdə - erməni və rus dillərində tərcüməçi, habelə müdafiələrinin təmin olunması məqsədilə vəkillərlə təmin edilib.

Məhkəmə iclasında zərərçəkmiş şəxslərin nümayəndələri, dövlət ittihamını müdafiə edən prokurorlar - Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin şöbə rəisi Abbas Abbaslı, həmin idarənin şöbə prokurorları Anar Ələkbərov və Sevinc Qasımova iştirak ediblər.

Əvvəlcə xatırladılıb ki, ötən məhkəmə iclasında təqsirləndirilən Bako Sahakyan müdafiə çıxışına başlayıb, lakin məhkəmədə fasilə elan olunduğundan o, çıxışını bu gün davam etdirəcək.

Ardınca Bako Sahakyan çıxışına davam edərək öz arqumentlərini səsləndirib, elan olunmuş ittihamlarla razılaşmadığını bildirib və birinci instansiya məhkəməsinin qərarının ləğvini xahiş edib.

Sonra təqsirləndirilən David Manukyanın müdafiəçiləri çıxış ediblər. Müdafiəçilər David Manukyan barəsində bəraət hökmünün çıxarılmasını məhkəmədən xahiş ediblər.

Bundan sonra David Manukyan çıxış edib. O, hər iki vəkilinə təşəkkürünü bildirərək müdafiəsinə dair arqumentlərini səsləndirib.

Məhkəmənin növbəti iclası iyulun 17-də keçiriləcək.

Xatırladaq ki, Bakı Hərbi Məhkəməsinin 2026-cı il 5 fevral tarixli hökmünə əsasən, Arayik Harutyunyan, Levon Mnatsakanyan, David Manukyan, Davit İşxanyan və David Babayan ömürlük azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər. Arkadi Qukasyan və Bako Sahakyan 20 il, Madat Babayan və Melikset Paşayan 19 il, Qarik Martirosyan 18 il, Davit Allahverdiyan və Levon Balayan 16 il, Vasili Beqlaryan, Qurgen Stepanyan və Erik Qazaryan isə 15 il müddətinə azadlıqdan məhrum ediliblər.




# Bu gün mundialın ikinci finalçısı bəlli olacaq

**İngiltərə-Argentina yarımfinal oyunu Dünya Çempionatının ən maraqlı oyunlarından biri hesab olunur. Hər iki komanda turnir ərzində güclü çıxış edib və finala yüksəlməyə layiqdir.**

Argentinanın yarımfinal yolu:

1/16 final: Kabo-Verde üzərində 3:2 hesabı ilə qələbə.

1/8 final: Misir üzərində 3:2 hesabı ilə qələbə.

1/4 final: İsveçrə üzərində 3:1 hesabı ilə qələbə.

Komandanın hücum xətti turnir boyu məhsuldar olub. Lionel Messi, Julian Alvarez və Lautaro Martinez əsas təhlükə mənbələri sayılır.

İngiltərə millisi də Tuxelin rəhbərliyi ilə məzmunlu oyun sərgiləyərək yarımfinala yüksələ bilib.

İngiltərənin yarımfinal yolu:

1/16 final: Konqo DR-sı üzərində 2:1 hesabı ilə qələbə.

1/8 final: Meksika üzərində 3:2 hesablı qələbə.

1/4 final: Norveç üzərində 2:1 hesabı ilə qələbə.





İngiltərənin əsas silahları Harri Keyn, Jud Bellinqem və Bukayo Saka hesab olunur. Komanda həm müdafiədə, həm də əks-hücumlarda sabit oyun nümayiş etdirir.

Taktiki baxımdan Argentina topa daha çox nəzarət etməyə və texniki kombinasiyalar qurmağa çalışır. İngiltərə isə sürətli keçidlərdən, fiziki üstünlükdən və standart vəziyyətlərdən maksimum yararlanmağa çalışır.

Argentina ilə İngiltərə arasında qarşılaşmalar futbol tarixində xüsusi yer tutur. Ən məşhur oyun Dünya Çempionatı - 1986-da baş verib. Həmin oyun Diego Maradonanın "Tanrının əli" və möhtəşəm fərdi qolları ilə yadda qalmışdı. Bu səbəbdən iki komandanın hər yeni görüşü böyük maraq doğurur.

Xatırladaq ki, İngiltərə-Argentina yarımfinal oyunu bu gün Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

## Argentinadan FIFA-ya xüsusi müraciət



**Argentina millisi İngiltərə ilə oyun öncəsi FIFA-ya müraciət edib.**

Argentinalı jurnalist Qaston Edulun məlumatına görə, Lionel Skaloninin komandası ənənəvi mavi-ağ zolaqlı forma əvəzinə tünd-göy rəngli ehtiyat formada meydana çıxmaq üçün icazə istəyib.

Xatırladaq ki, Argentina millisi 1986-cı il dünya çempionatının 1/4 finalında İngiltərəni Dieqo Maradonanın məşhur qolları sayəsində 2:1 hesabı ilə məğlub edərkən, həmçinin 1998-ci il mundialında rəqibini penaltilər seriyasında mübarizədən kənarlaşdırarkən də məhz tünd-göy formada meydana çıxmışdı.

## DÇ-2026-da ən çox səyahət edən komanda

**Mundialda yarımfinala yüksələn komandalar arasında oyunlara gedib-gələrkən ən çox məsafə qət edən komanda İngiltərə millisidir. Bu barədə "TyC Sports" nəşri məlumat yayıb.**

Bildirilir ki, İngiltərə millisi turnir ərzində ümumilikdə 20 600 kilometr yol qət edib. Bu göstərici ilə onları 14 200 kilometrlə İspaniya izləyir. Siyahıda növbəti yerləri 8025 kilometrlə Argentina və 5500 kilometrlə Fransa tutur. Beləliklə, yarımfinalçılar arasında ən az məsafə qət edən komanda Fransa millisidir.



## Messi yenə də ən yaxşıdır



"The Athletic" builki dünya çempionatında mübarizə aparan ən yaxşı oyunçuların yenilənmiş reytinqini dərc edib.

Siyahıda ilk yerdə Argentina millisinin hücumçusu Lionel Messi qərarlaşıb. Fransa millisinin hücumçusu Kilian Mbappe ikinci, İngiltərə millisinin hücumçusu Cud Bellingem isə üçüncü yerdədir.

**İlk "10-luq":**

1. Lionel Messi (Argentina)
2. Kilian Mbappe (Fransa)
3. Cud Bellinqem (İngiltərə)
4. Harri Keyn (İngiltərə)
5. Erling Holland (Norveç)
6. Maykl Olise (Fransa)
7. Usman Dembele (Fransa)
8. Əşrəf Hakimi (Mərakeş)
9. Vinisius Junior (Braziliya)
10. Aymerik Laporte (İspaniya)

## Mundialdan uzaqlaşdırılan hakim ölü tapıldı



**Niderlandlı hakim Rob Diperink 38 yaşında vəfat edib. Bu barədə Niderland mətbuatı məlumat yayıb.**

**Bildirilib ki, polis Diperinkin yaşadığı küçədə bir nəfərin ölümü ilə bağlı araşdırma aparıb. Vəfat edən şəxsin keçmiş FIFA hakimi olduğu təsdiqlənib. Hüquq-mühafizə orqanları hadisədə başqa şəxslərin iştirakını istisna edib.**

**Qeyd edək ki, Diperink bu ilin aprelində azyaşlıya qarşı seksual xarakterli hərəkətlərdə ittiham olunaraq saxlanılmışdı. Lakin kifayət qədər sübut olmadığı üçün istintaq dayandırılmışdı. Buna baxmayaraq, FIFA onu DÇ-2026-da oyun idarə edəcək referilərin siyahısından çıxarmışdı.**

*Hazırladı:*
*Dönməz ABBASOV*


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

*abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
İlham Əliyevin dünyaya sülh çağırışı: "Sülh nail olunmalı olan ən ali məqsəddir"
Prezident İlham Əliyev IV Şuşa Qlobal Media Forumunun açılışında iştirak edib
Azərbaycanı zirvələrə aparan siyasət
DÖVLƏTİMİZ GÜCLÜDÜR, ORDUMUZ İRADƏMİZ YERİNDƏDİR
Prezident İlham Əliyev Laçın, Şuşa, Xankəndi və Xocavənda səfər edib
Şuşadan ünvanlanan mesajlar
Etibarlı tərəfdaş, məsuliyyətli dövlət və mühüm geosiyasi aktor

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya* ***(Tel.: (012) 539-59-33)*** *zəng vura bilərsiniz.*



İCBARİ SIĞORTA BÜROSU
Compulsory Insurance Bureau

## Yaşıl Kart Sistemi çərçivəsində fəaliyyət göstərmək hüququ olan sığortaçılar barədə

## ELAN

Yaşıl Kart sisteminə üzv ölkələrə səfər etmək istəyən vətəndaşların nəzərinə çatdırırıq ki, bu növ üzrə "İcbari Sığorta Bürosu" Hüquqi Şəxslərin İttifaqının (İSB) iştirakçısı olan sığorta şirkətləri bunlardır: "Atəşgah" Sığorta Şirkəti ASC, "Azərbaycan Sənaye Sığorta" ASC, "Meqa Sığorta" ASC, "Paşa Sığorta" ASC, "Qala Sığorta" ASC, "Xalq Sığorta" ASC.

Məlumat üçün bildiririk ki, İSB Yaşıl Kart sistemi üzrə əlaqələndirici, ixtisaslaşmış təşkilat kimi fəaliyyət göstərməklə Beynəlxalq Yaşıl Kart Sistemində Azərbaycanı təmsil edir.

**Tel: +99412 525 97 07, E-mail: pr@isb.az Web: www.isb.az**
**Ünvan: Akademik Zahid Xəlilov küçəsi 53/1, Bakı, AZ1141**


# ABŞ İranın dəniz blokadasını yenidən tətbiq edir

**ABŞ Prezidenti Donald Tramp Tehranı Vaşinqtonla əvvəlki razılaşmaları pozmaqda ittiham edərək ABŞ-nin İrana qarşı dəniz blokadasını yenidən tətbiq etdiyini açıqlayıb. Daha sonra o, ABŞ-nin Hörmüz boğazına nəzarəti ələ keçirəcəyini bildirib.**



Bununla bağlı ABŞ Prezidenti özünün sosial media hesabı "Truth Social"da yazıb: "Hörmüz boğazı açıqdır və İranla və ya İransız açıq qalacaq. Biz bununla bağlı "İran blokadası"nı yenidən tətbiq edirik. Bu, yalnız İran gəmilərinə və İranla ticarət edənlərə təsir etdiyi üçün belə adlanır. Bütün digər ölkələr Hörmüz boğazından sərbəst və maneəsiz istifadə edə biləcəklər".

Tramp həmçinin ABŞ-nin bundan sonra özünü "Hörmüz boğazının keşikçisi" adlandıracağını deyib. O, Vaşinqtonun bu strateji əhəmiyyətli ərazidə gəmiçiliyin təhlükəsizliyini təmin etmək niyyətində olduğunu, lakin xərclərinin ödənilməsini gözlədiyini bildirib: "Bu andan etibarən ABŞ "Hörmüz boğazının keşikçisi" kimi tanınacaq. Ədalət naminə, dünyanın bu yüksək dərəcədə dəyişkən bölgəsində təhlükəsizliyi təmin etmək məqsədilə lazım olan bütün xərcləri ödəmək üçün daşınan bütün yüklərin dəyərinin 20 faizi bizə ödəniləcək. Bu mexanizm dərhal işə düşəcək". ABŞ lideri bu mexanizmin praktikada necə işləyəcəyini izah etməyib.

Silahlı Qüvvələrin Mərkəzi Komandanlığı (CENTCOM) blokadanın yenidən başladığını açıqlayıb. Fox News-a verdiyi müsahibədə Tramp CENTCOM-un son saatlarda ölkə daxilindəki hərbi obyektlərə etdiyi bir sıra hücumlara istinad edərək İrana "çox güclü zərbə" endirdiyini iddia edib: " Onlar bizim əlimizdədir. Onlar geri çəkilirlər. Onların hərbi texnikasının əksəriyyəti məhv edilib. Onların hava hücumundan müdafiə sistemləri sıradan çıxarılıb".

ABŞ lideri həmçinin bildirib ki, İran nümayəndələri bir gün əvvəl Amerika tərəfi ilə 11 saatlıq danışıqlar aparıblar. Prezident deyib ki, görüşdən sonra İran nümayəndə heyəti danışıqlar otağını tərk edib və daha sonra Amerika tərəfi ilə yenidən əlaqə saxlayaraq "bir neçə dəyişiklik" edilməsinin lazım olduğunu bildirib.

Amerika tərəfinin bildirdiyinə görə, İranın Hörmüz boğazında yük gəmilərinə hücum etməsindən sonra regionda yeni bir gərginlik dövrü baş verib. Öz növbəsində İranın ən yüksək hərbi komandanlığı olan "Xatəm əl-Ənbiya" qərargahı ABŞ-nin Hörmüz boğazının idarə olunmasına müdaxilə etməsinə icazə verməyəcəyini bildirib.

İranın Tasnim xəbər agentliyi tərəfindən dərc edilən bəyanatda ABŞ-nin boğazdakı "təkrarlanan macəralarının regional təhlükəsizliyi ciddi şəkildə sarsıtdığı" vurğulanır. Hərbi qüvvələr qeyd edib ki, biz ABŞ-nin bu həyati əhəmiyyətli su yoluna nəzarət etməsinə icazə verməmişik və verməyəcəyik.

Bundan əlavə, Tehran xəbərdarlıq edib ki, Hörmüz boğazında ABŞ ilə hər hansı bir əməkdaşlıq İranın suverenliyinə qarşı "müharibə aktı" hesab ediləcək. İran tərəfinin bəyanatında daha geniş bir xəbərdarlıq da yer alıb: "Münaqişə yayılarsa, müharibə alovu regiondakı bütün ölkələri bürüyəcək".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


*"Parktoun" Mənzil Tikinti Kooperativinə (VÖEN: 1306642181) məxsus Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Baş Dövlət Tikinti Müfəttişliyi tərəfindən 29 aprel 2026-cı il tarixdə verilmiş Ö/007340 nömrəli İstismara Hazırlıq Aktı itdiyi üçün etibarsız sayılır.*



## ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov Akif Təvəkküloğluna anası
**SUQRA XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Amil Novruzov, Raqif Məmmədli və Züleyxa Əliyeva tələbə yoldaşları
**MALİK ZEYNALOVUN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Akif Əliyev, Bəxtiyar Əzizli və Rafiq Əliyev dostları Akif Təvəkküloğluna anası
**SUQRA XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Aslan Muradov, Rəfail Mehdiyev, Fuad Cavadov, Mehdi Nəcəfov, İlqar Məmmədov, Akşin Ziyadov, Malik Ələkbərov, Hüseyn Əlixanov, Elçin Qasımov, Mehman Soltanov, Rahim Rəhimov, Ağakərim Səmədzadə, Sübhi Kazımov, Çingiz Məmmədov və Cümşüd Cəfərov Adil, Faiq və Fuad Əliyevlərə anaları
**SƏYYARƏ XANIMIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.



BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

**Gündəlik rəsmi dövlət qəzeti**

Tiraj **3185**
Sifariş **897**

Qiyməti 60 qəpik